# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 237 (8553) ŞƏNBƏ, 14 noyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# Zəfər salnaməsinin şanlı 44 günü

**Gün o gün olsun ki...**
**İllərdir dilimizdən düşməyən istək, alqış, xəyal...**
**İllərdir hər əlamətdar günlərimizdə bu arzuyla başlamışıq bütün ürək sözlərimizə...**
**İllərdir çox əziyyətlər, ağrı-acılar çəkmişik... Doğma el-obamızdan qəddarlıqla, amansızlıqla didərgin salınmışıq, olmazın faciələr görmüşük, öz vətənimizdə qaçqın, köçkün kimi yaşamağa məcbur olmuşuq...**

Bir gözümüzlə gülsək də, o biri gözümüzlə hər zaman ağlamışıq. "Vətən" deyə-deyə ürəyimizə qara qanlar axıtmışıq. Yurdu yuxuda görməyi özümüzə təskinlik bilmişik...

Vətən həsrətilə bu dünyadan gözü açıq köçən əzizlərimizi doğma torpaqlarında dəfn edə bilməmişik...

İllərdir həsrətində olduğumuz, ürəyimizdə qübara çevrilən, xiffətini çəkdiyimiz ata-baba torpaqlarına böyük qayıdışın arzusu, xəyalı ilə yaşamışıq...

Doğma yurdundan qovulan, olmazın zillətlərə düçar edilən, 30 ilə yaxındır məcburi köçkün həyatı yaşayan nisgilli vətəndaşlarımızın yenidən öz doğma ocağına qayıdacaqları inamını içimizdə böyüdüb, ölməyə qoymamışıq...

Müharibənin açdığı, sarısaq da, heç vaxt tam sağalmayan, zaman-zaman qanayan, bizi incidən yaralarımıza sığal çəkib, Qarabağa yenidən dönəcəyimiz günün arzusu ilə ayaqda qalmışıq...

Bəzən gözləməkdən yorulmuşuq, uzun sürən intizardan bezmişik, bəzən içimizdə inamsızlıq baş qaldırıb, əlimizi hər şeydən üzmüşük, hətta Tanrıya belə üsyan etmişik. Amma qəlbimizdəki ümid qığılcımı heç vaxt sönməyib. İllərlə közərib, közərib...

Və... o qığılcım illər sonra alov olub qəlbimizi isidib...

Biz bu günü çox gözlədik... Ay yox, il yox, illərlə... Təxminən bir qərinə...

## Nəhayət... o gün gəldi

30 il əvvəl yaşanan kədər sona çatdı!

30 illik vətən həsrəti, nisgili bitdi!

30 illik arzularımız, xəyallarımız, yuxularımız gerçəyə çevrildi!

30 il gözlədiyimiz o möhtəşəm tarixə şahidlik etmək zamanı yetişdi!

10 noyabr 2020-ci il... Bu tarix Qarabağa qovuşduğumuz tarixdir! Bu gün Böyük Qələbə Günüdür!

Müzəffər Ordumuz 44 gün ərzində döyüş meydanında gücünü göstərdi və qəhrəmanlıqla savaşaraq qələbə qazandı. Ali Baş Komandanın qətiyyətli mövqeyi, Azərbaycan əsgərinin rəşadəti, şücaəti, xalqımızın birliyi, həmrəyliyi nəticəsində düşmənin müqaviməti qırıldı və 10 noyabr şanlı tariximizə Zəfər günü kimi yazıldı.

Sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatı, bütün cəbhəboyu ağır artilleriyadan istifadə etməklə hücuma keçməsi və birbaşa mülki əhalini hədəfə alması nəticəsində Azərbaycan Ordusu vətən uğrunda ölüm-dirim savaşına qalxdı. Ordumuz bütün dünyanın suveren Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıdığı Dağlıq Qarabağı və ətraf rayonları düşmən işğalından azad etmək üçün Vətən müharibəsinə başladı. Elə ilk gündən düşmənin ön müdafiə xəttinin yarılması, qısa zamanda bir neçə kənd və strateji əhəmiyyətli yüksəkliklərin işğaldan azad edilməsi xalqımızın qələbə ovqatını daha da artırdı. Bütün xalq öz rəhbəri ətrafında bir yumruq kimi sıx birləşdi. Minlərlə igid oğullarımız mənfur düşmənlə vuruşmaq üçün hərbi səfərbərlik şöbələrinə axışdı. Hər kəs bacardığı qədər orduya maddi və mənəvi dəstək göstərdi.

Qələbəyə doğru inamla irəliləyən qorxmaz, cəsur əsgərlərimiz düşmənin işğal olunmuş torpaqlarımızdakı hərbi hissələrini, istehkamlarını, ön xətt mövqelərini, döyüş texnikalarını və infrastrukturunu, canlı qüvvəsini, cəbhənin dərinliyindəki atəş nöqtələrini, bazalarını darmadağın etdi, kəndlərimizi, strateji yüksəklikləri sürətlə tutdu.

Ardı 5-ci səh.

# Paşinyan repressiyalara, müxalifət isə inqilaba başladı



**Ermənistan bir daha insan haqlarının kobud şəkildə pozulduğu ölkə kimi beynəlxalq aləmin diqqətini cəlb etməkdədir. Burada azacıq da olsa, azad sözə meyilli olanları və ictimai fəallığa can atanları dərhal həbsə ataraq ağızlarını yumdururlar. Son günlərdə Yerevanda davam edən etiraz aksiyaları fonunda bu, özünü növbəti dəfə təsdiq etdi.**

Bu günlərdə Ermənistanda baş verənlərin baş nazir Paşinyanın vaxtilə əlində bayraq etdiyi demokratiya ilə heç bir əlaqəsi yoxdur. Söhbət faktiki olaraq gücdən, şantajdan istifadə edərək hakimiyyətin qorunmasından gedir. Müharibədə sarsıdıcı məğlubiyyətə uğramış Paşinyan iqtidarı ölkə daxilində baş qaldıran narazılığı və xalqın qəzəbini söndürmək üçün repressiyalara başlayıb.

Ardı 9-cu səh.

# Koronavirus bütün ölkələrdə tüğyan edir

**Hər gün dünyanın müxtəlif ölkələrindən açıqlanan məlumatlar göstərir ki, koronavirus hər yerdə sürətlə yayılmaqda davam edir. Aparılan mübarizə tədbirləri isə hələ də vəziyyəti yaxşılığa doğru dəyişə bilmir. Əksinə, ötən hər gün virusa yoluxma sayında yeni rekord müəyyən edilir.**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesabatında da dünyada son bir həftə ərzində koronavirusa yoluxma sayında rekordun yeniləndiyi bildirilib. Məlumata görə, dünyada ümumi yoluxma sayı 52,957,693 olub. Ölüm halı 1,296,623-ə çatıb. Sağalanların sayı isə 36.914.613 təşkil edib.

Ardı 8-ci səh.

# Milli Məclis Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Azərbaycan xalqına müraciət qəbul edib

**Azərbaycan Respublikasının Milli Məclisi noyabrın 13-də keçirilən iclasında Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə və Azərbaycan xalqına müraciət qəbul edib. AZƏRTAC müraciəti təqdim edir.**

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Azərbaycan xalqına Azərbaycan Respublikası Milli Məclisinin müraciəti*

- Zati-aliləri möhtərəm cənab Prezident!

Əziz Azərbaycan xalqı!

Son 100 ildən artıq dövrdə Azərbaycan xalqı "böyük Ermənistan" yaratmaq xülyasına düşmüş erməni şovinist dairələrinin etnik təmizləmə, soyqırımı və işğalçılıq siyasətinin fəlakətli nəticələrini mütəmadi yaşamalı olmuşdur. Mərhələ-mərhələ həyata keçirilən bu siyasət ötən əsrin əvvəllərində Cənubi Qafqazda yüz minlərlə azərbaycanlının və digər xalqların nümayəndələrinin etnik və dini mənsubiyyətinə görə qətlə yetirilməsinə gətirib çıxarmışdır.

Çar Rusiyasının süqutunun ardınca keçmiş İrəvan xanlığının (sonrakı İrəvan quberniyasının) ərazisində erməni dövləti yaradılmışdır. Ermənistanda və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bolşevik rejiminin əli ilə Azərbaycan torpaqlarının daha bir hissəsi, o cümlədən Qərbi Zəngəzur, Dərələyəz mahalı, Qazax qəzasının dağlıq hissəsi və digər yerlər Ermənistana verilmiş, nəticədə onun ərazisi 9 min kvadratkilometrdən 29,8 min kvadratkilometrə çatdırılmışdır.

Ardı 2-ci səh.

# Yeni Azərbaycan Partiyası Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə müraciət edib

**Yeni Azərbaycan Partiyası Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə müraciət edib. AZƏRTAC müraciəti təqdim edir.**

Zati-aliləri, Müzəffər Ali Baş Komandanımız!

Doğma Qarabağın azad edilməsi uğrunda Vətən müharibəsinin möhtəşəm qələbə ilə başa çatması hər bir Azərbaycan vətəndaşının qəlbində böyük qürur və iftixar hissi yaratmışdır. 30 il davam edən işğala son qoyulması, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi, məcburi köçkünlərin köçkünlük həyatının sona çatması və doğma yurdlarına qayıtmaq imkanlarının yaradılması müasir tariximizin ən möhtəşəm hadisəsidir.

Cəmi 44 gün davam edən müharibəyə Azərbaycan Sizin rəhbərliyiniz altında illərlə hazırlaşdı, qələbəyə lazım olan gücünü artırdı. Bir il əvvəl bəyan etdiyiniz "Qarabağ Azərbaycandır!" kəlməsi xalqımızın müqəddəs torpaqlarımız uğrunda savaşının ideya əsası, qələbəyə səsləyən lider çağırışı oldu. Bütün xalq bu çağırışa səs verdi, birləşdi, qələbəmizin əsasına çevrilən milli birliyimizi və həmrəyliyimizi formalaşdırdı. Cəmiyyətimizin bu günlərdə nümayiş etdirdiyi möhtəşəm səfərbərlik xalqımızın Sizin ətrafınızda sıx birləşməsinin bariz ifadəsi olmaqla yanaşı, eyni zamanda, Azərbaycanın bütün dünyaya ciddi mesajı kimi qəbul edildi.

Vətən müharibəsində qazanılan tarixi qələbə Azərbaycan xalqının əzmini, qətiyyətini, mübarizliyini, doğma torpaqları uğrunda hər cür fədakarlığa və qəhrəmanlığa hazır olduğunu göstərdi. On minlərlə gənc vətənpərvərin Vətən torpaqları uğrunda vuruşmaq üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etməsi, cəbhə xəttində əsgər və zabitlərimizin göstərdiyi şücaətlər xalqımızın qəhrəmanlıq nümunələri hesab olunmalıdır. Etiraf edilməlidir ki, xalqın və Ordunun Prezident və Ali Baş Komandan kimi Sizə dərin inamı Vətən müharibəsinin tarixi qələbə ilə başa çatmasında mühüm rol oynamışdır.

Ardı 3-cü səh.

# Tarixin alqışladığı qələbə

**Yurdumuz qələbə zəfərini yaşayır. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin Şuşanın işğaldan azad olunması ilə bağlı o müjdəli səsi hələ də hər birimizin hafizəsindədir. Qəlbimizin döyüntüsü ilə həmahəng əks-səda verir bu qürur dolu kəlmələr: "Əziz həmvətənlər, əziz bacılar və qardaşlar!**



Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.

İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!"

Deyirlər, xoşbəxtlik sadəcə andır. Amma saatlarla, günlərlə, illərlə sürən xoşbəxtlik də varmış. Prezident İlham Əliyevin noyabrın 8-də Şuşanın azad edilməsi xəbərini xalqa elan edərək həyatımıza gətirdiyi qürur, sevinc bütün tarixə dolan fəxarət hissidir, ömrümüzü bəzəyən, dövlətimiz var olduqca bizimlə birgə əbədi olacaq xoşbəxtlikdir.

Rəşadətli ordumuz Ali Baş Komandanımızın rəhbərliyi ilə tariximizin saf incisini düşmən tapdağından təmizləməklə bizi bir ömürlük nəsibimizə yetirdi. 28 ildir sinəmizdə qövr edən Şuşa yarasına məlhəm qoydu. Hər birimizə sözlə ifadə edilməsi mümkünsüz olan sevinc payı bağışladı.

Ardı 5-ci səh.



# İlham Əliyev Azərbaycanın hüquqlarını Qarabağda tam təmin etdi

**Bu günlərdə Azərbaycanın həm müstəqillik, həm də bütövlükdə dövlətçilik tarixinin ən mühüm hadisələrindən biri baş verdi.**

30 ilə yaxındır işğal altında olan torpaqlarımız ordumuz tərəfindən cəmi 44 gün ərzində azad olundu, təcavüzkar Ermənistan kapitulyasiya bəyanatını imzalamağa məcbur edildi. Tarixə səs salan bu sənəd Azərbaycanın Ermənistan üzərində qalibiyyətini rəsmiləşdirən hüquqi akt oldu.

## Beynəlxalq hüquq respublikamızın tərəfindədir

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair hələ birinci Qarabağ müharibəsinin gedişindən başlanmış danışıqlarda bütün beynəlxalq hüquq ölkəmizin tərəfində olub.

Ardı 5-ci səh.



# İyirmi səkkiz ildən sonra Şuşada cümə namazı qılındı

**Azərbaycanlılar 28 ildən sonra ilk dəfə Şuşada, Gövhər ağa məscidində cümə namazı qılıblar.**

AZƏRTAC xəbər verir ki, bu barədə sosial şəbəkələrdə görüntülər yayımlanıb.

Qeyd edək ki, Azərbaycan Ordusu 28 ildən sonra, bu il noyabrın 8-də Şuşa şəhərini işğaldan azad edib.

# Milli Məclis Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Azərbaycan xalqına müraciət qəbul edib

*Əvvəli 1-ci səh.*

Ermənistan ərazisində qalan, ata-baba torpaqlarında elliklə yaşayan yüz minlərcə azərbaycanlıya muxtariyyət verilmədiyi halda, Azərbaycan ərazisində sayı onlardan dəfələrlə az olan ermənilər üçün 1923-cü ildə qondarma "Dağlıq Qarabağ Muxtar Vilayəti" təşkil edilmişdir. Beləliklə, erməni şovinistlərinin Azərbaycana qarşı gələcək ərazi iddiaları üçün meydan açılmış, Cənubi Qafqazda baş verəcək yeni faciələrin əsası qoyulmuşdur. 1948-1953-cü illərin zorakı deportasiyaları nəticəsində Ermənistan SSR-dən yarım milyona yaxın azərbaycanlı qovulmuş, onların bütün əmlakı talan edilmişdir.

1991-ci ildə Sovet İttifaqının süqutundan sonra geniş miqyas almış işğalçılıq müharibəsinin gedişində Azərbaycan Respublikası ərazisinin 20 faizi, yəni Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayon - Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. 20 mindən çox azərbaycanlı qətlə yetirilmiş, on minlərcə soydaşımız yaralanmış və əlil olmuşdur. Ermənistan ərazisindən və Azərbaycanın işğal edilmiş bölgəsindən 1 milyondan çox azərbaycanlı qovulub didərgin salınmışdır.

İşğalçılıq müharibəsi zamanı erməni şovinistləri azərbaycanlı əhaliyə qarşı bir sıra soyqırımı cinayətləri törətmişlər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində əsrin ən dəhşətli faciələrindən biri baş vermişdir. Soyqırımı aktı nəticəsində 613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilmiş, 487 nəfər şikəst edilmiş, 1275 sakin girov götürülərək amansız işgəncələrə məruz qalmışdır. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bugünədək məlum deyildir.

Ermənistan Respublikasının etnik təmizləmə, soyqırımı və işğalçılıq siyasətinə qarşı müqavimət cəbhəsi 1993-cü ilin iyun ayında böyük siyasi və dövlət xadimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra təşkil edilmişdir. Ordu quruculuğu və silahlı qüvvələrin möhkəmləndirilməsi sahəsində görülən düşünülmüş tədbirlər Ermənistan hərbi birləşmələrinə ağır zərbələr endirməyə və işğal altında olan bəzi əraziləri, o cümlədən Füzuli rayonunun strateji əhəmiyyət daşıyan Horadiz qəsəbəsini azad etməyə imkan vermişdir. Azərbaycanla silah dili ilə danışmağın daha mümkün olmadığını görən Ermənistan Respublikası 1994-cü ilin mayında atəşkəs imzalamağa məcbur olmuşdur.

Beləliklə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc yolla aradan qaldırılması üçün mötəbər beynəlxalq təşkilatların köməyi ilə aparılan danışıqlara əlverişli şərait yaranmış, həmin təşkilatların qəbul etdikləri sənədlər münaqişənin nizama salınmasının hüquqi bazasının ayrılmaz hissəsini təşkil etmişdir.

BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrdə, eləcə də BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi 62/243 nömrəli qətnamədə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı birmənalı şəkildə təsdiqlənmiş və Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilmişdir. Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının, İslam Əməkdaşlığı Təşkilatının, Qoşulmama Hərəkatının, Avropa İnsan Hüquqları Məhkəməsinin və digər mötəbər beynəlxalq qurumların müxtəlif illərdə qəbul etdikləri sənədlərdə də Ermənistan silahlı qüvvələrinin işğal olunmuş bütün ərazilərdən çıxarılması tələb edilmiş, yurdlarından didərgin düşmüş şəxslərin öz torpaqlarına geri dönməsi hüququ təsdiq edilmişdir.

Münaqişənin nizama salınması üçün vasitəçilik səyləri göstərən ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin, yəni Amerika Birləşmiş Ştatlarının, Rusiyanın və Fransanın dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir, dəyişməlidir və məsələ tezliklə öz həllini tapmalıdır. Həmsədrlərin irəli sürdüyü və Azərbaycan tərəfindən qəbul edilmiş Madrid prinsipləri də münaqişənin nizama salınmasına yönəlmişdir. Ümumiyyətlə, uzun illər boyu aparılan danışıqlarda Azərbaycan tərəfi daim təmkinli davranaraq sülh prosesinə sadiqlik nümayiş etdirmiş, işğalın aradan qaldırılmasına, ölkəmizin ərazi bütövlüyünün bərpasına, didərgin düşmüş soydaşlarımızın doğma yurdlarına qayıtmasına hər hansı şəkildə kömək göstərə biləcək bütün təkliflərə anlayışla yanaşmışdır.

Təəssüf ki, münaqişənin həll edilməsi üçün göstərilən beynəlxalq səylər Ermənistanın qeyri-konstruktiv və pozucu mövqeyi üzündən heç bir səmərə verməmişdir. Bu dövlətin rəhbərliyi cəzasız qalmasından, bölgədə sülh və sabitlik yaradılmasında marağı olmayan xarici qüvvələrin dəstəyindən istifadə edərək aparılan danışıqlar prosesini pozmaq və Azərbaycan torpaqlarının işğalını əbədiləşdirmək üçün müntəzəm cəhdlər göstərmişdir.

2016-cı ilin aprel ayının əvvəllərində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribat sülh prosesinə ciddi zərbə vurmuşdur. Azərbaycanın ön mövqelərinin və cəbhə xətti boyunca yerləşən yaşayış məntəqələrinin güclü artilleriya atəşinə tutulması nəticəsində 2 nəfər dinc sakin həlak olmuş, 10 nəfər yaralanmışdır. Azərbaycan Silahlı Qüvvələri əhalinin təhlükəsizliyini təmin etmək üçün cavab tədbirləri görməyə məcbur olmuşlar. Dörd gün davam edən döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə başa çatmışdır.

Təəssüf ki, 2016-cı ilin Aprel döyüşlərindən dərs almayan Ermənistan rəhbərliyi pozuculuq hərəkətlərindən əl çəkməmişdir. 2018-ci ilin aprelində Ermənistanda baş verən "məxməri" inqilabdan və hakimiyyət dəyişikliyindən sonra Azərbaycana qarşı təxribatlar daha geniş vüsət almışdır.

Ermənistan rəsmiləri öz bəyanatları və davranışları ilə sübut etmişlər ki, bu dövlət nəinki işğal altında olan əraziləri qaytarmağa hazırlaşmır, əksinə, Azərbaycanın yeni ərazilərini işğal etmək niyyəti güdür. Dağlıq Qarabağda yaradılmış qondarma rejimin başçısının Şuşada "andiçmə" mərasiminin keçirilməsi, oyuncaq qurumun "parlamentinin" Şuşaya köçürülməsi, işğal olunmuş ərazilərə Ermənistandan yeni yol çəkilməsi, qanunsuz məskunlaşdırma siyasətinin genişləndirilməsi, danışıqların formatını dəyişdirməyə cəhdlər göstərilməsi, danışıqları davam etdirmək üçün Azərbaycan qarşısında üzdəniraq "7 şərt" qoyulması, Ermənistanın dövlət başçısının irəli sürdüyü "Qarabağ Ermənistandır və nöqtə", Ermənistan müdafiə nazirinin səsləndirdiyi "yeni ərazilər üçün yeni müharibə" iddiaları işğalçı dövlətin rəhbərliyinin əsl niyyətlərini üzə çıxarmışdır.

Bu məsuliyyətsiz davranış və bəyanatlara beynəlxalq təşkilatlar, eləcə də işğalçını sülhə sövq etməli olan Minsk qrupunun həmsədr ölkələri tərəfindən heç bir münasibət bildirilməməsi Ermənistan Respublikasının daha çox əl-qol açmasına gətirib çıxarmışdır. 2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələri atəşkəsi kobudcasına pozaraq cəbhə xəttindən uzaqlarda, dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini artilleriya atəşinə tutmağa başlamışlar.

İriçaplı toplardan, raket qurğularından, müxtəlif növ atıcı silahlardan və zirehli texnikadan istifadə edən Ermənistan silahlı qüvvələrinin həmlələri iyulun 16-dək davam etmişdir. Düşmənin silahlı təcavüzünün qarşısını almaq üçün Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi cəza tədbirləri nəticəsində işğalçıların müxtəlif təyinatlı hərbi texnikası, döyüş vasitələri, komanda məntəqəsi, müdafiənin dərinliyindəki ehtiyatları və yüzlərcə canlı qüvvəsi məhv edilmişdir. Azərbaycanın yeni ərazilərini işğal etmək üçün düşmənin göstərdiyi bütün cəhdlərin qarşısı qətiyyətlə alınmışdır.

2020-ci il avqustun 23-də Azərbaycan və Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının Goranboy rayonu istiqamətində təmas xəttində Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupu təxribat törətməyə cəhd etmişdir. Azərbaycan Silahlı Qüvvələrinin bölmələri tərəfindən görülən qəti tədbirlər nəticəsində təxribatın qarşısı alınmış, təxribat qrupunun başçısı yaxalanmışdır.

Son illərdə Azərbaycan Ordusundan aldığı qüvvətli zərbələrdən lazımi nəticələr çıxarmayan Ermənistan rəhbərliyi 2020-ci il sentyabrın 27-də növbəti planlaşdırılmış təxribata əl atmışdır. İşğalçı ölkənin silahlı qüvvələri müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək Azərbaycanın yaşayış məntəqələrini və hərbi mövqelərimizi bir neçə istiqamətdən atəşə tutmuşlar. Mülki əhali və hərbi qulluqçular arasında həlak olan və yaralananlar olmuşdur. Qeyd edilməlidir ki, Ermənistanın bu xaincəsinə hücumu işğalçı ölkənin hərbi və siyasi rəhbərliyinin beynəlxalq hüquqa saymazyana münasibətinin növbəti təzahürü, Azərbaycanla aparılan sülh danışıqlarını pozaraq münaqişəni öz xeyrinə birdəfəlik həll etmək niyyətinin yeni ifadəsi olmuşdur.

Düşmənin hücumunun cavabında Azərbaycan Respublikası BMT-nin Nizamnaməsinə uyğun özünümüdafiə hüququndan istifadə edərək təcavüzkarı sülhə məcbur etmək məqsədi ilə əks-hücum əməliyyatına başlamışdır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 gün davam edən əməliyyat gedişində möhtəşəm qələbələr əldə edərək dünya hərb tarixinə yeni şanlı səhifələr yazmışdır. Silahlı Qüvvələrimizin kompleks inkişafı və modernləşdirilməsi ilə bağlı son 17 ildə həyata keçirilən hərbi siyasətin səmərəliliyi döyüş meydanında təcəssümünü tapmışdır.

Düşmənin uzun illər ərzində qurduğu, keçilməz hesab edilən müdafiə xətləri yarılmış, Ermənistanın hava hücumundan müdafiə sistemi və hərbi hava qüvvələri sıradan çıxarılmışdır. İşğalçı qüvvələrə ağır zərbələr endirilmiş, onların çoxlu sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilmişdir. Ölkəmizin işğal altında olan ərazisinin böyük bir hissəsi, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Şuşa şəhəri, Hadrut qəsəbəsi, ümumən 300-ə yaxın yaşayış məntəqəsi düşmən tapdağından azad edilmişdir.

Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti ilə idarə etdiyi Azərbaycan Silahlı Qüvvələrinin zəfər yürüşü siyasi müstəvidə qazanılan qələbə ilə başa çatmışdır. Azərbaycan Ordusu qarşısında duruş gətirə bilməyəcəyini, iflasa məhkum olduğunu dərk edən düşmən məğlubiyyətini etiraf edərək diz çökmüşdür.

2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli bəyanat 30 ildən artıq davam edən münaqişəyə, Azərbaycan torpaqlarının işğalına son qoymuş, Cənubi Qafqaz bölgəsinin gələcək inkişafına yönələn fəaliyyətin yeni formatını təqdim etmişdir. Bəyanatın müddəalarına uyğun olaraq, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların dayandırılması elan edilmişdir. Bu il dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonları mərhələ-mərhələ Azərbaycan Respublikasına qaytarılacaqdır.

Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu 5 il müddətinə Rusiya Federasiyasının sülhməramlı kontingenti yerləşdirilir. Atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır və bu mərkəzdə Rusiya və Türkiyə hərbi qulluqçularının birgə fəaliyyəti nəzərdə tutulur. Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcəkdir.

Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı Ofisinin nəzarəti altında qayıdacaqlar. Hərbi əsirlərin, girovların və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçiriləcəkdir.

Bölgədə bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir.

Tarixi əhəmiyyət daşıyan bu bəyanat çoxillik münaqişə və müharibədə Azərbaycan xalqının şanlı qələbəsini təcəssüm etdirir. Tarixi ədalət öz yerini tutur, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunur.

Bu möhtəşəm Qələbəyə görə, möhtərəm cənab Prezident, Sizə sonsuz minnətdarlığımızı bildiririk. Sizin uzaqgörən rəhbərliyiniz ilə Azərbaycan Respublikasının böyük iqtisadi potensialı yaradılmış, müasir hərb nəzəriyyəsinin və praktikasının tələblərinə cavab verən güclü Azərbaycan Silahlı Qüvvələri qurulmuşdur. Sizin dəmir iradəniz, sarsılmaz əzminiz və lider qətiyyətiniz sayəsində həm döyüş meydanında, həm də danışıqlar masasında parlaq nailiyyət qazanılmışdır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini beynəlxalq hüquq normaları və prinsipləri əsasında başa çatdırmaqda, tarixi düşmənə qarşı əsrlik mübarizədə məğlubiyyət sindromunu aradan qaldırmaqda öz inamı, hörməti, məhəbbəti və dəstəyi ilə kömək etmiş əziz xalqımız, sizi böyük Qələbə münasibətilə ürəkdən təbrik edirik.

Biz inanırıq ki, uzun illər ərzində ölkəmizin müstəqilliyi və təhlükəsizliyi üçün böyük təhdid mənbəyi olmuş Dağlıq Qarabağ probleminin həlli ilə Azərbaycan Respublikası daha yüksək sürətlə inkişaf edərək qüdrətli dünya dövlətlərindən birinə çevriləcəkdir. Biz bu yolda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev başda olmaqla xalqımıza yeni-yeni uğurlar arzulayırıq.

Eşq olsun Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə!

Eşq olsun müzəffər Azərbaycan Ordusuna!

Yaşasın Azərbaycan xalqı!

Qarabağ Azərbaycandır!

# Milli Məclisin iclasında






## İlham Əliyevin yenilməz iradəsi və ordumuzun qəhrəmanlığı sayəsində Vətən savaşı zəfərlə başa çatdı

**Noyabrın 13-də Milli Məclisin növbəti iclası keçirildi. İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirdi ki, Azərbaycan xalqı 30 ildən bəri həsrətlə gözlədiyi böyük Qələbənin sevincini yaşayır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yenilməz iradəsi və ordumuzun qəhrəmanlığı sayəsində xalqımızın qurtuluş savaşı zəfərlə başa çatmış, işğalçı Ermənistan təslim olmağa məcbur edilmiş və ölkəmizin ərazi bütövlüyü təmin olunmuşdur.**

"Azərbaycanın əzəli tarixi torpağı olan Qarabağın işğaldan azad edilməsi xalqımızı uzun illər davam edən məğlubiyyət acısından qurtarmış və onu qalib xalqa çevirmişdir. Təəssüf ki, müharibə itkisiz olmur. Biz də bu müharibədə itkilər verdik", - deyə Spiker bildirdi.

Milli Məclisin Sədrinin təklifi ilə döyüş meydanında, dinc şəhər və kəndlərimizdə şəhid olmuş insanlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Sədr Allahdan bütün şəhidlərimizə rəhmət, yaralılara şəfa dilədi.

Sonra Spiker diqqətə çatdırdı ki, bu gün Azərbaycan bayrağı Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Şuşada qürurla dalğalanır, tezliklə Kəlbəcərdə, Ağdamda, Laçında və işğaldan azad edilən digər torpaqlarımızda yüksələcək.

Vətən müharibəsinin ən şərəfli səhifələrindən biri noyabr ayının 8-də Qarabağın incisi və tacı, Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşanın işğaldan azad edildiyi gün oldu. Spiker Şuşanı, digər şəhər və kəndlərimizi düşməndən təmizləyən əsgər və zabitlərimizin qəhrəmanlığının dillərdə dastan olacağına əminliyini diqqətə çatdırdı. Qeyd etdi ki, Azərbaycan Ordusu döyüş meydanında göstərdiyi hünərləri ilə xalqımızın nəyə qadir olduğunu dünyaya nümayiş etdirdi.

Sahibə Qafarovanın sözlərinə görə, bu tarixi günlərin bizim üçün ən mühüm nəticələrindən biri də xalqımızın Ali Baş Komandanı İlham Əliyevin ətrafında yumruq kimi birləşməsi və bütövləşməsi oldu. Azərbaycan xalqının birliyinin rəmzinə çevrilən bu yumruq düşmənə endirilən ağır zərbələrin ifadəsi idi. Çətin sınaq qarşısında Azərbaycan xalqının yenilməz gücə çevrildiyini hər kəs görüb yəqin etdi. Bu birliyin, bu qüvvənin qarşısında düşmən duruş gətirə bilməzdi və gətirmədi də.

Spiker xatırlatdı ki, noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən imzalanmış üçtərəfli bəyanatla Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulmuşdur. Bu bəyanatın Azərbaycan Respublikası üçün çox böyük tarixi əhəmiyyəti var. Belə ki, bəyanatın müddəalarına əsasən 2020-ci il dekabrın 1-dək Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş ərazisindən çıxarılacaq, Kəlbəcər, Ağdam və Laçın rayonları qan tökülmədən, şəhidlər verilmədən Azərbaycana qaytarılacaqdır. Bununla da ölkəmizin ərazi bütövlüyü təmin ediləcək, məcburi köçkünlərimiz doğma yurdlarına dönəcəklər.

Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin bərpası da milli maraqlarımızın təmin edilməsi baxımından vacib məsələdir.

Sədr bir məqamı da xüsusi qeyd etdi ki, bu müharibədə Ermənistan elə ağır zərbə aldı ki, onun özünə gəlməsi üçün neçə illər lazım olacaq. Biz bu gün Yerevanda baş verənləri müşahidə edirik: "Bir tərəfdən, şəhərin küçələrində kütlə azğınlıq edir, hərc-mərclik hökm sürür. Digər tərəfdən, iqtidar müxalifətin bütün liderlərini həbs edir, müxalif deputatların mandatdan məhrum edilməsi barədə söhbətlər gəzir və s.

Diqqət yetirin, bütün bu rüsvayçı hadisələr Qərbin bəzi dairələrinin demokratik dövlət kimi qələmə verməyə çalışdığı bir ölkədə baş verir. Ancaq nə Qərb dövlətlərinin rəhbərləri, nə də onların "informasiya vasitələri" bu qanunsuz əməllərə münasibət bildirmir, susmağı üstün tuturlar. Güman edirəm, hər şey aydındır. Hər kəs öz simasını göstərir. Doğrudan da, möhtərəm Prezidentimizin dediyi kimi, bizə demokratiya dərsi keçməyə çalışanlar əvvəl güzgüdə özlərinə baxsınlar.

Bu müharibədə dünya bir həqiqəti də gördü ki, erməni vandalları işğal altında saxladıqları şəhər və kəndlərimizi viran qoymuş, tarixi-mədəni abidələrimizi yerlə yeksan etmiş, milli sərvətlərimizi talan etmişlər".

Sədr diqqətə çatdırdı ki, həmin ərazilərdə infrastruktur tam sıradan çıxarılmışdır: "Ancaq biz əminik ki, cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı bütün dağıdılmış yaşayış məntəqələrini bərpa edəcək və Qarabağ sakinləri ata-baba yurdlarında yenidən qurub yaradacaqlar.

Biz bilirik ki, müharibənin davam etdiyi dövrdə dövlət başçısı nə qədər böyük təzyiqlərə məruz qalsa da, geri çəkilməmiş, Ordumuzun zəfər yürüşünü qələbə ilə başa çatdırmağa nail olmuşdur.

Bu isə düşmən üzərində böyük Qələbədə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nə qədər böyük rol oynadığını bir daha təsdiq edir".

Spiker dedi ki, Prezident İlham Əliyev xalqa müraciətində bu məsələyə toxunmuşdur. Demək olar ki, hər gün ondan dayanmağı tələb edirdilər. Amma möhtərəm Prezidentimizin dediyi kimi, "...biz qabağa getdik. Çünki mən xalqın dəstəyini hiss edirdim, xalqın inamını görürdüm. Məni heç nə dayandıra bilməzdi.

Çünki mən bilirdim ki, biz haqlıyıq. Biz öz ərazi bütövlüyümüzü bərpa edirik, öz torpaqlarımızı qaytarırıq...

Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!"

Sahibə Qafarova dedi ki, biz sonsuz qürur hissi ilə yurd yerlərimizə, doğma Qarabağa qayıdırıq. Bu haqqı bizə qəhrəman ordumuz, onun Ali Baş Komandanı qaytarıb. Biz şəhidlərimizin, qanlı döyüşlərdə yaralanmış əsgər və zabitlərimizin igidliyini və fədakarlığını heç vaxt unutmayacağıq.

Bir məsələ də diqqətə çatdırıldı ki, Prezident İlham Əliyevin bir il əvvəl Soçi şəhərində "Valday" beynəlxalq diskussiya klubunun iclasında səsləndirdiyi "Qarabağ Azərbaycandır və nida" ifadəsi Azərbaycanın qələbəsinin rəmzinə çevrilib. Bu gün yüz minlərin, milyonların dilindən eşidilən bu milli şüar artıq reallığa çevrilib. Bəli, Qarabağ Azərbaycandır! Eşq olsun Ali Baş Komandanımız İlham Əliyevə! Eşq olsun qəhrəman Ordumuza! Yaşasın Azərbaycan xalqı!

Milli Məclisin Sədrinin çıxışı alqışlarla qarşılandı.

Daha sonra Spiker bildirdi ki, 6 ay bundan əvvəl şuşalı gənc qız Əsra Məmmədli bu salonda çıxış etmişdi: "O zaman Şuşa şəhəri işğal altında idi və gənc qızımızın çıxışı da o vaxtın ovqatına uyğun idi. Onun çıxışı hamımızı duyğulandırdı və böyük təsir bağışladı. Mən bu gün yenə də Əsra Məmmədlini bu zala dəvət etmək istəyirəm. Düşünürəm ki, onun nə hiss etdiklərini dinləmək maraqlı olar".

İclasda çıxış edən Əsra Məmmədli bildirdi ki, bir neçə ay əvvəl burada çıxış edərkən təsəvvür belə etməzdi ki, Vətənə qovuşmaq və Şuşanı görmək bu qədər yaxın olacaq. "Artıq işğala son qoyuldu. Azərbaycan əsgəri, Azərbaycan xalqı qanı və canı bahasına öz torpağına sahib çıxdı. Ali Baş Komandan cənab İlham Əliyev başda olmaqla müzəffər Azərbaycan Ordusu bizi doğma torpaqlarımıza qovuşdurdu. Bizim ailəmiz babalarımın evinə qayıdır!"- deyə o bildirdi.

Əsra Məmmədlinin çıxışı alqışlarla qarşılanıb. Sədr bildirdi ki, Əsranın sözləri bütün deputatların fikirlərini əhatə edir.

İclasda Milli Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin Böyük Qələbə münasibətilə hazırladığı videoçarx nümayiş etdirildi.

Daha sonra Sədr Sahibə Qafarovanın təklifi ilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Azərbaycan xalqına Azərbaycan Respublikası Milli Məclisinin Müraciətinin mətninin hazırlanması üçün Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynlinin başçılığı ilə komissiya yaradıldı. Komissiyaya Milli Məclisin deputatları Nizami Cəfərov, Tural Gəncəliyev, Nigar Arpadarai və Erkin Qədirli daxil edildilər.

İclasda Milli Məclis Sədrinin müavini Adil Əliyev, komitə sədrləri Əhliman Əmiraslanov, Ziyafət Əsgərov, Hicran Hüseynova, Səməd Seyidov, Zahid Oruc, Siyavuş Novruzov, Tahir Mirkişili, komissiya sədri Eldar İbrahimov, deputatlardan Şahin İsmayılov, Məlahət İbrahimqızı, Razi Nurullayev, Fəzail Ağamalı, Cavid Osmanov, Jalə Əliyeva, Nəsib Məhəməliyev, Anar İsgəndərov, Vahid Əhmədov, Eldəniz Səlimov, İsa Həbibbəyli, Fazil Mustafa, Musa Qasımlı, Etibar Əliyev, Qüdrət Həsənquliyev və başqaları xalqımızın qazandığı Böyük Qələbə münasibətilə fikirlərini bildirdilər. Qeyd etdilər ki, bu Qələbə daxili həmrəyliyimizin, milli birliyimizin və Ali Baş Komandanın dediyi kimi, yumruq kimi birləşməyimizin parlaq nəticəsi oldu. 44 gün davam edən müharibədə Prezident İlham Əliyev Azərbaycanın haqqını ən yüksək səviyyədə qorudu və qəbul etdirdi. Prezidentin xarici ölkələrin televiziya kanallarına verdiyi müsahibələr isə bu işin avanqardı oldu. Bildirildi ki, bu Qələbə Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq və hərb tarixinə yeniliklər gətirmiş müharibə kimi düşəcək.

Sonra Milli Məclisin deputatı Nigar Arpadarai Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Azərbaycan xalqına Azərbaycan Respublikası Milli Məclisinin Müraciətinin mətnini oxudu *(müraciətin mətni qəzetin bugünkü nömrəsində dərc olunub).*

Müraciət alqışlarla qarşılandı və səsə qoyularaq təsdiqləndi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Yeni Azərbaycan Partiyası Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə müraciət edib

*Əvvəli 1-ci səh.*

Güclü Ordunun yaradılması, Silahlı Qüvvələrimizin ən müasir döyüş vasitələri ilə təchiz edilməsi, şəxsi heyətin peşəkarlıq səviyyəsinin və hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi, Ordu ilə xalqının vəhdətinin təmin edilməsi rəşadətli Azərbaycan Ordusunun möhtəşəm qələbəsinin kökündə dayanan həqiqətlərdir. Azərbaycan Ordusu Vətən müharibəsində qazandığı qələbəsi ilə hazırkı dünyanın ən güclü, müasir, hazırlıqlı, yüksək döyüş qabiliyyətinə malik olan orduları sırasında layiqli yer tutduğunu əyani şəkildə sübuta yetirdi. İnanırıq ki, müzəffər Ordumuzun döyüş əməliyyatlarını xüsusi peşəkarlıqla planlaşdıraraq həyata keçirmək strategiyası və taktikası digər ölkələrin hərbi strukturları tərəfindən öyrəniləcək və tətbiq ediləcəkdir.

Möhtəşəm hərbi uğurlarımızda Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılmasının, ölkəmizin hərtərəfli təbliğatının, Ermənistanın işğalçı siyasətinin Sizin rəhbərliyiniz və bilavasitə iştirakınızla ən mötəbər beynəlxalq tədbirlərdə tutarlı şəkildə ifşa edilməsinin, eləcə də çoxsaylı diplomatik nailiyyətlərimizin xüsusi rolu ayrıca vurğulanmalıdır. Həyata keçirilən diplomatik səylər nəticəsində dünya ictimai rəyində Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Azərbaycanın haqlı mövqeyinin dəstəklənməsi Vətən müharibəsində əldə etdiyimiz böyük qələbənin beynəlxalq əhəmiyyətini ciddi şəkildə artıran amil hesab edilə bilər.

Döyüş meydanında qazanılan hər bir tarixi qələbənin əsasında lider amili dayanır. Hamılıqla etiraf etdiyimiz gerçəklik ondan ibarətdir ki, Sizin Ümummilli Lider, müdrik dövlət başçısı Heydər Əliyevin siyasi varisi kimi zəngin təcrübəniz və yüksək şəxsi keyfiyyətləriniz, Azərbaycan xalqı arasında və dünyada böyük nüfuzunuz doğma Qarabağ uğrunda savaşda uğurlarımızın əsas şərti olmuşdur. Azərbaycanın üçrəngli bayrağının tezliklə işğal olunmuş torpaqlarımızda, Qarabağda dalğalandırılacağı barədə verdiyiniz vədləri şərəflə yerinə yetirməyiniz Ulu Öndərimizin və Azərbaycan xalqının Sizə olan böyük etimadının nə qədər dərin köklərə malik olmasından xəbər verir.

Biz sevinir və qürur duyuruq ki, rəşadətli Azərbaycan əsgəri Qarabağ savaşı başlayan dövrdən etibarən verilən qurbanların, şəhidlərimizin, qətlə yetirilən günahsız uşaqların, qadınların, qocaların qanını yerdə qoymadı. İnanırıq ki, savaş meydanında düşmənə endirilən sarsıdıcı zərbələrdən və qazanılan möhtəşəm qələbədən onların ruhları şad olur.

Müzəffər Azərbaycan Ordusunun zəfər yürüşü, düşmənin sonadək bütün torpaqlarımızdan qovulması, Qarabağın işğaldan tam azad edilməsi, uzun illər düyünə düşmüş və region üçün təhlükə mənbəyi olan Dağlıq Qarabağ münaqişəsinin uğurla və ədalətlə həll edilməsi, həm də yaşadığımız bölgədə sülhə və təhlükəsizliyə əvəzsiz töhfədir. Heç şübhə etmirik ki, savaş meydanında əldə etdiyimiz tarixi qələbənin ardınca Azərbaycanı daha böyük gələcək, daha firavan həyat gözləyir.

Cənab Prezident, müqəddəs torpaqlarımız uğrunda Vətən müharibəsində qazandığımız şanlı qələbənin müəllifi də, ilham mənbəyi də Sizsiniz. Bu, Sizin qələbənizdir. Siz Azərbaycanın yeni tarixini yaratdınız. Tarix Sizin adınızı öz şərəf səhifəsinə qızıl hərflərlə həkk edəcəkdir. Siz xalqın qəlbində əbədi yaşayacaqsınız.

Tariximizin ən möhtəşəm qələbəsinin müəllifi kimi Sizi, Ali Baş Komandanı olduğunuz Azərbaycan Ordusunu, rəşadətli əsgər və zabitlərimizi, bütün xalqımızı rəhbərlik etdiyiniz Yeni Azərbaycan Partiyasının çoxminli üzvləri adından səmimi-qəlbdən təbrik etmək bizə böyük şərəf və qürur bəxş edir. Allah Sizi və Azərbaycanı qorusun!

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Sizi və Azərbaycan xalqını torpaqlarınızın 28 illik işğaldan azad edilməsi ilə nəticələnən qələbə və döyüşlərin dayandırılmasına dair bəyanatın imzalanması münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Şübhəsiz ki, bu tarixi qələbə regionda ədalətin bərqərar olması baxımından çox mühüm hadisədir. Əslində, bu şanlı qələbə Sizin qətiyyətli liderliyiniz və peşəkar ordunuz sayəsində qazanılıb.

Ölkənizin ayrılmaz ərazisinin uzun müddət işğal altında qaldığı dövrdə Sizin nümayiş etdirdiyiniz səbir və təmkin təqdirəlayiqdir. Əfqanıstanın milyonlarla əhalisi adından və şəxsən öz adımdan rəşadətli Azərbaycan əsgərlərinə və bu qələbənin əldə olunmasına töhfə verən bütün şəxslərə minnətdarlığımı bildirirəm.

Bu təcavüzün əvvəlindən Sizin yanınızda olan Əfqanıstan xalqı Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin işğaldan azad olunmasını Sizinlə birgə qeyd edir.

Razılaşmanın tam icrası və ölkənizin işğal atlında olan digər ərazilərinin azad edilməsi ilə bağlı xəbərləri səbirsizliklə gözləyirik. Sizə və Azərbaycan xalqına ədalətin bərpası istiqamətində fəaliyyətinizdə səmimi-qəlbdən davamlı uğurlar arzu edirəm.

*Hörmətlə,*

***Məhəmməd Taqi XƏLİLİ,***
***Əfqanıstanın Azərbaycandakı sabiq səfiri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Ümumisrail Dağ Yəhudiləri Birliyi adından şəxsən Sizə və bütün Azərbaycan xalqına Azərbaycan xalqı və bütün azərbaycanlı həmvətənlər üçün böyük Qələbə günü münasibətilə səmimi təbriklərimizi bildirirəm.

Tarixi ədalət zəfər çaldı və Azərbaycan xalqı öz tarixi torpaqlarına sahib çıxdı.

Dağ yəhudiləri və Azərbaycan xalqı müxtəlif dövrlərdə həm sevincli, həm də kədərli günlərdə həmişə bir-birinə qardaş olublar. Biz Azərbaycanın uğurlarına görə çox şadıq.

*Dərin hörmət və səmimi təbriklərimlə,*

***Pavel YELİZAROV,***
***Qafqaz mənşəli Dağ Yəhudilərinin Ümumisrail Birliyinin sədri, Dağ yəhudilərinin parlament lobbisinin baş direktoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Zati-alinizi və Azərbaycan xalqını tarixi uğur - işğal altındakı torpaqların BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, beynəlxalq hüququn norma və prinsiplərinə əsasən azad edilməsi və ölkənizin suverenliyinin təmin olunması münasibətilə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) adından və şəxsən öz adımdan ən səmimi duyğularımla təbrik edirəm.

Zati-aliləri, Dağlıq Qarabağ bölgəsində noyabrın 10-dan etibarən davamlı atəşkəs elan edilməsi və bütün döyüşlərin dayandırılması ilə bağlı Sizin, Ermənistanın baş nazirinin və Rusiya Prezidentinin imzaladığı birgə bəyanatı böyük məmnunluq hissi ilə qarşıladıq.

Bu anlaşma nəticəsində döyüşlərin dayandırılması, məcburi köçkün vəziyyətinə düşmüş azərbaycanlı qardaşlarımızın öz torpaqlarına yenidən qayıtması, təqribən 30 il işğal altında olan əzəli Azərbaycan torpaqlarında sülh, əmin-amanlıq və rifahın bərqərar olması ilə tarixi ədalət bərpa edildi.

Zati-alinizin liderliyi ilə qazanılmış bu şanlı zəfər Azərbaycan xalqının birlik və həmrəyliyini bütün dünyaya nümayiş etdirdi.

İnanıram ki, işğal dövründə dağıdılmış tarixi və mədəni mirasımız tezliklə yenidən əvvəlki vəziyyətinə qaytarılacaq, bütün türk aləminin mədəniyyət və incəsənət xadimlərinin səsləri Şuşadan, Cıdır düzündən dünyaya yayılacaq.

Bu tarixi zəfər münasibətilə Zati-alinizi və Azərbaycan xalqını bir daha təbrik edir, döyüşlərdə həlak olan qardaşlarımıza Allahdan rəhmət və yaralılara tezliklə şəfa tapmalarını diləyirəm.

*Dərin hörmətlə,*

***Düsen KASEİNOV,***
***TÜRKSOY-un Baş katibi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Sizi və Azərbaycan xalqını işğal altında olan torpaqlarınızın, xüsusilə də noyabrın 8-də Şuşa şəhərinin işğaldan azad edilməsində Azərbaycan Silahlı Qüvvələrinin qazandığı Qələbə münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Mən ölkənizə səfərlərim zamanı məcburi köçkünlərlə görüşlər keçirən bir şəxs kimi Şuşanın azad edilməsinin xalqınız üçün nə qədər əhəmiyyətli olduğunu yaxşı bilirəm. Şuşanın işğaldan azad edilməsinin Azərbaycanın noyabrın 9-da qeyd etdiyi Dövlət Bayrağı Gününə təsadüf etməsi həqiqətən də əlamətdar hadisədir.

Mən tam əminəm ki, Sizin rəhbərliyinizlə Şuşa şəhəri Azərbaycan mədəniyyətinin və incəsənətinin beşiyi kimi əvvəlki şöhrətini bərpa edəcək. Biz Böyük Britaniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri olaraq tarixi Şuşa şəhərinə səfər etməkdən şərəf hissi duyardıq.

Biz həmçinin üçtərəfli razılaşmaya əsasən Ermənistan silahlı qüvvələrinin Qarabağdan tam və qeyd-şərtsiz çıxarılması barədə bəyanatı da ürəkdən alqışlayırıq.

Cənab Prezident, müharibənin fəal fazasında təmkin və qətiyyət nümayiş etdirməyiniz hamı tərəfindən yüksək qiymətləndirilir. Biz Azərbaycanın Böyük Britaniya parlamentindəki dostları olaraq Azərbaycanın haqlı mövqeyinin dünyaya çatdırılması istiqamətində səylərimizi bundan sonra da davam etdirəcəyimizi bir daha bəyan edirik. Biz azərbaycanlı məcburi köçkünlərinin öz doğma yurdlarına qayıdacağı günü səbirsizliklə gözləyirik.

*Hörmətlə,*

***Bob BLƏKMƏN,***
***Böyük Britaniya parlamentinin İcmalar Palatasının üzvü, Azərbaycanla dostluq qrupunun sədri***

❖ ❖ ❖

Hörmətli Prezident, cənab Ali Baş Komandan İlham Əliyev.

Avstraliya Azərbaycan Assosiasiyası tərəfindən Sizi Qarabağımızın işğaldan azad olunması zəfəri münasibətilə ürəkdən təbrik edirik. Sizin iradəniz və rəhbərliyinizlə qəhrəman Azərbaycan Ordusu Ermənistana gücünü göstərdi. Bu gün dünya azərbaycanlıları böyük sevinc içindədirlər. Avstraliyadakı soydaşlarımız da bu qələbə sevincini yaşayır və qürur hissi ilə bu tarixi zəfəri qeyd edirlər. İnanıram bu qələbə cinayətkar Ermənistana böyük bir dərs oldu.

Biz, Avstraliyada yaşayan azərbaycanlılar bundan sonra dünyada başımızı uca tutmalı və azərbaycanlı olaraq daha fərqli qürurlanmalıyıq. Fəxrlə deyirik ki, bəli, biz azərbaycanlıyıq və çirkin niyyətli erməni lobbilərinin, o cümlədən diasporunun terror əməllərinə qarşı çox möhkəm dayanacağıq. Alnımız açıq, daha da güclü şəkildə diaspor fəaliyyətlərimizdə Azərbaycan millətinin və dövlətinin mənafeyinin müdafiəsi və mühafizəsi uğrunda mübarizə aparacağıq. Bu, bizim millətimizə və dövlətçiliyimizə olan milli borcumuzdur.

Allah qəhrəman şəhidlərimizə rəhmət eləsin, yaralılarımıza şəfa versin.

Sizə və millətimizə eşq olsun!

*Dərin hörmətlə,*

***Mikayil OYTA,***
***Avstraliya Azərbaycan Assosiasiyasının sədri***
*Avstraliya, Sidney şəhəri*

# Milli Məclisin İntizam komissiyasının iclasında deputat Könül Nurullayeva barəsində intizam tədbirinin tətbiqi məsələsinə baxılıb

**Noyabrın 13-də Milli Məclisin İntizam komissiyasının iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda deputat Könül Nurullayeva barəsində intizam tədbirinin tətbiqi məsələsinə baxılıb. Qeyd olunub ki, noyabrın 12-də Türkiyənin TV Net telekanalına müsahibə verən K.Nurullayevanın canlı yayımda səsləndirdiyi fikirlər Azərbaycanın dövlət siyasətinə ziddir, Azərbaycan cəmiyyətinin və Milli Məclisin mövqeyini əks etdirmir.

Ermənilərin Qarabağa vurduğu ziyanla bağlı dəyərləndirmə aparılaraq Ermənistandan təzminat istənilməsi barədə suala cavab verən Könül Nurullayeva deyib ki, bu gün Ermənistanın iqtisadiyyatı tam çöküb, xarici borcları artıb, sosial təminat sahəsində fəlakətli durum yaranıb və bu durumda Azərbaycana təzminat verilməsi önəmli deyil.

Komissiyanın üzvləri qeyd ediblər ki, son 200 ildə müntəzəm olaraq Azərbaycan xalqına qarşı təcavüz aktları həyata keçirən, torpaqlarımıza göz dikən, 30 il Dağlıq Qarabağ bölgəsini və ətraf rayonları işğalda saxlayan, həmin ərazilərdə dəhşətli dağıntılar törədərək Azərbaycan insanlarına və ölkənin iqtisadiyyatına, tarixi, mədəni, dini obyektlərimizə milyardlarla manatlıq ziyan vuran, Xocalı soyqırımını törətmiş olan Ermənistandan təzminat tələb etmək bizim haqqımızdır və belə bir prosedur beynəlxalq hüquqda təsbit olunub.

Bildirilib ki, Vətən müharibəsi ilə, xalqımızın ümdə hüquqları ilə bağlı çıxışlarında hər bir deputat məsuliyyət hissini rəhbər tutmalı, Azərbaycanın milli maraqlarını mütləq nəzərə almalıdır.

Müzakirələrin yekununda İntizam komissiyası deputat Könül Nurullayeva barəsində töhmət intizam tədbirinin tətbiq edilməsi haqqında qərar qəbul edib.

# Ermənistanın təcavüzü nəticəsində sentyabrın 27-dən başlayaraq Azərbaycan ərazisinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı işçi qruplar yaradılıb və fəaliyyətə başlayıb

Azərbaycan Respublikasının Prezidentinin 2020-ci il 06 noyabr tarixli "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı"na əsasən ziyanın qiymətləndirilməsi və aradan qaldırılması məqsədilə Dövlət Komissiyası yaradılıb. Sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə Dövlət Komissiyasının noyabrın 9-da ilk iclası keçirilib. Noyabrın 12-də Azərbaycan Respublikasının Baş naziri Prezidentin tapşırıqlarının həyata keçirilməsini təmin etmək üçün müvafiq sərəncam imzalayıb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sərəncama əsasən 3 qrup yaradılıb:

- Nazirlər Kabineti Aparatı üzrə Koordinasiya qrupu;
- Aidiyyəti dövlət orqanlarının rəhbərlərinin müavinlərindən ibarət tərkibdə müvafiq sahələrə rəhbərlik üzrə İşçi qrupu. Buraya daxildir: İqtisadiyyat nazirinin müavini, Fövqəladə Hallar nazirinin müavini, Baş prokurorun müavini, Kənd Təsərrüfatı Nazirliyinin, "ASAN xidmət"in nümayəndələri, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini və Maliyyə Nazirliyi Aparatının rəhbəri;
- Aidiyyəti dövlət orqanlarının nümayəndələrindən ibarət tərkibdə işçi qruplar.

Bütövlükdə, Ağdam, Ağcabədi, Beyləqan, Bərdə, Tərtər, Füzuli və Cəbrayıl, Goranboy və Naftalan, Gəncə, Mingəçevir rayon və şəhərləri üzrə 11 işçi qrupu yaradılıb. Tərtər rayonu üzrə dəymiş ziyanın miqyasını nəzərə alaraq 3 işçi qrupu formalaşdırılıb.

Koordinasiya qrupuna tapşırılıb ki, dövlət orqanlarının (qurumlarının) işlərinin əlaqələndirilməsi təşkil və təmin edilsin, həyata keçirilən tədbirlər üzrə analitik təhlillər aparılsın, statistik hesabatlar hazırlansın, görülən işlər barədə mütəmadi olaraq komissiyaya məlumat verilsin.

İşçi qruplar mülki əhaliyə, dövlət əmlakına, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini təmin edərək və dəymiş ziyanın aradan qaldırılması, zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsi üçün tələb olunan maliyyə vəsaiti barədə təkliflərini 2020-ci il dekabrın 10-dək komissiyaya təqdim edəcəklər.

Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə, Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə, "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə, "Azərişıq" Qapalı Səhmdar Cəmiyyətinə və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə tapşırılıb ki, infrastruktur obyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini təmin etsinlər və aradan qaldırılması üçün tələb olunan maliyyə vəsaiti barədə təkliflərini 2020-ci il dekabrın 1-dək komissiyaya təqdim etsinlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tapşırılıb ki, dəymiş ziyana və onun aradan qaldırılmasına, o cümlədən zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin aparılmasına çəkilmiş xərclərə dair vahid məlumat bazasının formalaşdırılmasını 2020-ci il dekabrın 10-dək təmin etsin.

Xatırladırıq ki, 27 sentyabrdan sonra Ermənistanın təcavüzü nəticəsində təqribən 3 700 obyektə müxtəlif dərəcəli ziyan dəyib.

Evində yaşayışın mümkün olmadığı vətəndaşlar müvafiq mənzillərdə yerləşdiriliblər.

Qiymətləndirməni həyata keçirmək məqsədilə yerli özəl qiymətləndirmə şirkətləri də prosesə cəlb olunacaq.

Eyni zamanda, dəymiş ziyanın qiymətləndirilməsi üçün xarici şirkətlərin də cəlb olunması istiqamətində XİN tərəfindən iş aparılır.

Xarici İşlər Nazirliyi Prezidentin sərəncamından irəli gələn tapşırığa əsasən vurulmuş ziyana və onun aradan qaldırılmasına, o cümlədən zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin aparılmasına çəkilmiş xərclərə dair məlumatlarla beynəlxalq institutları təmin edəcək və bu istiqamətdə iş aparılır.

# Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclası keçirilib

**Noyabrın 13-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan komitənin sədri Əli Hüseynli gündəliyə 2 məsələnin daxil edildiyini bildirib.**



Əvvəlcə komitənin üzvü Kamal Cəfərov "Dövlət qulluğu haqqında" qanun layihəsində dəyişikliklər edilməsi ilə bağlı sənədi ikinci oxunuşda təqdim edib. Deputat bildirib ki, layihənin əsas məqsədi dövlət qulluqçularının fəaliyyətinin düzgün qiymətləndirilməsi, onların potensial imkanlarının aşkara çıxarılması, inkişafı və səmərəli istifadəsidir. Sənəddə əsas istiqamət dövlət qulluqçusunun fəaliyyətinin qiymətləndirilməsi qaydalarını təkmilləşdirməkdir. Kamal Cəfərov deyib ki, müvafiq icra hakimiyyəti tərəfindən dövlət qulluqçusunun peşə səriştəliyini artırmağa, onun əlavə təhsilə ehtiyacının, tutduğu vəzifəyə uyğun gəlib-gəlmədiyinin müəyyənləşdirilməsi məqsədilə hər təqvim ilinin sonunda inzibati vəzifə tutan dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi həyata keçiriləcək. Qeyd olunub ki, yekun qiymətin 50 faizi tapşırıqların icra vəziyyətinə, 40 faizi meyarlar əsasında, 10 faizi isə əmək intizamı əsasında qiymətləndirməyə əsaslanacaq. Nəticələr qiymətləndirmə barədə sənədlə rəsmiləşdiriləcək. Yekun qiymət müəyyən edildikdən sonra dövlət qulluqçusu ilə müsahibə keçiriləcək və onun xidməti fəaliyyətinə verilən qiymət və şərhlər müzakirə olunacaq. Dövlət orqanının rəhbəri tərəfindən dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsinə görə, barəsində mükafatlandırılma, vaxtından əvvəl ixtisas dərəcəsinin verilməsi, fəaliyyətinin və bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə əlavə təhsilə və xüsusi təlimlərə cəlb edilməsi, bilik və bacarıqlarına uyğun digər analoji vəzifəyə keçirilməsi, aşağı inzibati vəzifəyə keçirilməsi kimi tədbirlərdən biri görülə bilər. Dövlət qulluqçusu xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsi ilə razılaşmadıqda inzibati qaydada və məhkəmə qaydasında şikayət etmək hüququna malik ola biləcək.

İclasda Kamal Cəfərov qanun layihəsinin Milli Məclisin plenar iclasında birinci oxunuşu zamanı millət vəkilləri tərəfindən səsləndirilən, yazılı şəkildə komitəyə daxil olan digər rəy, təklif və suallara da aydınlıq gətirib. Deputatlardan Qüdrət Həsənquliyev, Erkin Qədirli, Əminə Ağazadə, Etibar Əliyev, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Vüqar Əsgərov sənədlə bağlı fikir mübadiləsi aparıblar, qanun layihəsinin əhəmiyyəti barədə danışılıb.

Sonra komitədə İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirə edilib. Komitə sədri Əli Hüseynli qeyd edib ki, sənəd uyğunlaşdırma xarakteri daşıyır və "Ətraf mühitin mühafizəsi haqqında" qanun layihəsinə edilən dəyişikliklərə əsasən hazırlanıb. Qanun layihəsinə təklif olunan dəyişiklikdə qalınlığı 15 mikrona qədər olan polietilen torbaların, habelə birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, bıçaq, boşqab və stəkanların sahibkarlar tərəfindən idxalına, istehsalına, istehlakçıya satılmasına, inzibati tənbeh almış şəxs tərəfindən təkrar törədilməsinə görə də inzibati məsuliyyət nəzərdə tutulur. Qanun layihəsinin polietilen torbalara münasibətdə 2021-ci il yanvarın 1-dən, digər birdəfəlik istifadə üçün nəzərdə tutulan məhsullara münasibətdə isə 2021-ci il iyulun 1-dən qüvvəyə minməsi təklif edilib.

Komitə üzvləri tərəfindən hər iki qanun layihəsinin Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə edilməsi qərara alınıb.

# Milli Məclisdə Xocalının Quşçubaba kəndinin Baharlı, Xocavəndin Tsakuri kəndinin Hünərli adlandırılmasına dair məsələlərə baxılıb

**Noyabrın 13-də Milli Məclisin Regional məsələlər komitəsinin növbəti iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclası acan komitə sədri Siyavuş Novruzov bildirib ki, 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə Ermənistanın 30 il ərzində xarici havadarlarının dəstəyi sayəsində işğal altında saxladığı torpaqlarımızı azad edib. Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatı Vətən müharibəsində Azərbaycanın tam qələbəsini rəsmiləşdirdi. Ordumuzun qarşısında ağır məğlubiyyətə uğrayan ermənilər qeyd-şərtsiz təslim oldu. Artıq proseslərdə şərt qoyan, diktə edən tərəf Azərbaycandır. Bu bəyanata əsasən Türkiyə ilə Azərbaycanı, eyni zamanda, Türkiyə ilə Rusiyanı birləşdirən ən qısa quru yol olacaq Naxçıvan Muxtar Respublikası ilə gediş-gəliş koridorunun olması çox önəmlidir.

Siyavuş Novruzov vurğulayıb ki, ölkəmiz üçün həssas olan bu günlərdə Milli Məclis rəhbərliyi, deputatlarımız xüsusi fəallıq nümayiş göstəriblər.

Sonra komitə sədri iclasın gündəliyi barədə məlumat verib. Qeyd edilib ki, gündəliyə ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan "Azərbaycan Respublikasının Xocalı rayonunun Quşçubaba kəndinin Baharlı kəndi adlandırılması haqqında" və "Azərbaycan Respublikasının Xocavənd rayonunun Tsakuri kəndinin Hünərli kəndi adlandırılması haqqında qanun layihələri" daxil edilib. Layihələrə əsasən Azərbaycan Respublikasının Xocalı rayonunun Qarabulaq kənd inzibati ərazi dairəsi tərkibindəki Quşçubaba kəndi Baharlı kəndi adlandırılır. Ölkəmizin Xocavənd rayonunun Çiraquz kənd inzibati ərazi dairəsi tərkibindəki Tsakuri kəndi Hünərli kəndi adlandırılır. Qeyd edilib ki, Xocalı rayonu ərazisində yerləşən Quşçubaba kəndinin adı dəyişdirilərək həm coğrafi baxımdan, həm də Azərbaycan leksikonuna uyğun olaraq ölkə Prezidentinin təşəbbüsü ilə Baharlı adı verilib. Bu, Azərbaycanın zəfərini ifadə etmək baxımından böyük önəm daşıyır.

Komitə sədri Xocavənd rayonunun inzibati ərazisinə daxil olan Tsakuri kəndinin adı ilə bağlı bildirib ki, bu kənd qəhrəman ordumuz tərəfindən bu günlərdə işğaldan azad olunub. Dövlət başçısının təşəbbüsü ilə kəndin adı dəyişdirilərək ona Hünərli adı verilib. Bu ad Azərbaycan Ordusunun Vətən müharibəsində nümayiş etdirdiyi gücü, qüdrəti özündə əks etdirir.

Sonra deputatlar Məzahir Əfəndiyev və Tahir Rzayev müzakirə olunan məsələlərə münasibət bildirərək qeyd ediblər ki, kəndlərimizə verilən yeni adlar müasir dövrün reallıqlarının gələcək nəsillərə çatdırılması baxımından çox əhəmiyyətlidir.

İclasın sonunda qanun layihələri parlamentin plenar iclasına tövsiyə edilib.

# “Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində Azərbaycanın mülki infrastrukturuna külli miqdarda ziyan dəyib”

**Sentyabrın 27-dən Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisini və obyektlərini atəşə tutması nəticəsində ölkəmizin mülki infrastrukturuna külli miqdarda ziyan dəyib.**




AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev müharibə zamanı ermənilərin Azərbaycan vətəndaşlarına vurduqları ziyanın qiymətləndirilməsi ilə bağlı noyabrın 13-də keçirilən brifinqdə bildirib.

Prezidentin köməkçisi deyib ki, sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın mülki obyektlərinə məqsədyönlü şəkildə 30 mindən çox mərmi atılıb.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələri yalnız cəbhə bölgəsindəki mülki əhalini və obyektləri deyil, cəbhə zonasından xeyli kənarda yerləşən şəhərlərimizi, o cümlədən Gəncəni, Mingəçeviri, Xızını və digər şəhərlərimizi ballistik raketlərdən atəşə tutub.

Prezidentin köməkçisi qeyd edib ki, ermənilərin bu vandal və barbar əməlləri nəticəsində 90-dan çox mülki vətəndaşımız həlak olub və 400-dən artıq vətəndaşımız yaralanıb.

Hikmət Hacıyev bildirib ki, sentyabrın 27-dən indiyədək dəymiş ziyanın qiymətləndirilməsi üçün beynəlxalq və yerli qurumlar cəlb olunacaq. Ümumi nəticə əsasında əldə ediləcək rəqəmlər beynəlxalq ictimaiyyətə də təqdim olunacaq. Bütün bunlar qiymətləndirildikdən sonra vətəndaşlara dəymiş ziyanın aradan qaldırılması istiqamətində lazımi tədbirlər görüləcək. Bunlar Azərbaycan dövlətinin öz vətəndaşına verdiyi dəyərin nümunəsidir.

❖ ❖ ❖

Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində törədilmiş dağıntılar 30 illik proses çərçivəsində ayrıca qiymətləndiriləcək. Azərbaycan əvvəllər bu məsələni qaldıran zaman həmin ərazilərə giriş imkanı olmayıb, real faktlar əsasında bunu ortaya qoymaq çətin olub. İndi isə həmin ərazilər işğaldan azad edilib.

Hikmət Hacıyev qeyd edib ki, Prezidentin son sərəncamı isə sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılmasını əhatə edir. Dəymiş ziyanla bağlı rəqəmlər Xarici İşlər Nazirliyi tərəfindən beynəlxalq ictimaiyyətə təqdim olunacaq.

Prezidentin köməkçisi qeyd edib ki, Ermənistanın təcavüzü nəticəsində zərər görən vətəndaşlara yeni evlər veriləcək, lazım olduğu halda onların evləri əsaslı təmir ediləcək.

Hikmət Hacıyev bildirib ki, Ermənistanın təxribatı nəticəsində 4 məscid və kilsəyə, 15 qəbiristanlığa, cəbhəboyu ərazilərdə yerləşən 50-dən çox məktəb binasına ziyan dəyib.

❖ ❖ ❖

Ermənistanın hərbi təxribatı nəticəsində 50-dən çox məktəb binasına ziyan dəyib. Onların bir qisminə əsaslı şəkildə ziyan dəyib.

Prezidentin köməkçisi qeyd edib ki, BMT Təhlükəsizlik Şurasının nəzdində Uşaq Hüquqları üzrə Komissiyanın fəaliyyətində hərbi əməliyyatlar zamanı uşaqlara qarşı cinayətin törədilməsində bir neçə ən ağır hallar müəyyən edilib ki, onların içində məktəblərin, uşaq bağçalarının hədəfə alınması və bombalanması ən ağır cinayətlər hesab edilir. Aidiyyəti beynəlxalq təşkilatlar da cəlb edilməklə bu prosesin qiymətləndirilməsi həyata keçiriləcək.

# *Hikmət HACIYEV:* “Azərbaycanın xaricdəki diplomatik nümayəndəliklərinin rəhbərləri ölkənin rəsmi mövqeyinə zidd olan özbaşına açıqlamaların verilməsindən çəkinməlidirlər”

Rusiya Federasiyası Silahlı Qüvvələrinə məxsus helikopterlə əlaqədar baş vermiş faciəvi hadisə ilə bağlı noyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.

Həmin gün Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi müvafiq açıqlama ilə çıxış edib. Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bu təsadüfi faciə ilə əlaqədar cinayət işi açılıb. Azərbaycanın və Rusiyanın Baş prokurorları arasında istintaqın gedişi ilə əlaqədar telefon danışığı olub. İstintaqın gedişi ilə bağlı qarşılıqlı məlumat mübadiləsi həyata keçirilir.

Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirinin bu məsələ ilə bağlı verdiyi şərh yersizdir. Bu kimi hal Azərbaycan-Rusiya əlaqələrinə xələl gətirə bilməz.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Prezidentin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib: “Həmçinin məsələnin mahiyyətinə varmadan Azərbaycanın Rusiyadakı səfirinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin statusu ilə bağlı söylədikləri qəbuledilməzdir. Azərbaycanın xaricdəki diplomatik nümayəndəliklərinin rəhbərləri və digər rəsmi şəxsləri ölkənin rəsmi mövqeyinə və Prezident İlham Əliyevin yürütdüyü siyasətə zidd olan özbaşına açıqlamaların verilməsindən çəkinməlidirlər”.

# “*Böyük Qələbədən quruculuğa:* başlıca vəzifələrimiz” mövzusunda videokonfrans keçirilib

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK), Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının (QHT Şurası) birgə təşkilatçılığı ilə noyabrın 13-də “Böyük Qələbədən quruculuğa: başlıca vəzifələrimiz” mövzusunda videokonfrans keçirilib.





AQUPDK-nın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, komitə sədri Bahar Muradova xalq, dövlət və region üçün əlamətdar olan bu günlər münasibətilə təbriklərini çatdırıb, Qələbənin Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və Müzəffər Ali Baş Komandan İlham Əliyevin uğurla davam etdirdiyi siyasətin nəticəsində qazanıldığını qeyd edib. Komitə sədri Aprel döyüşləri və Tovuz hadisələri nəticəsində artıq Azərbaycanın təxribatlara, təcavüzə dözməyəcəyini qətiyyətlə həm Ermənistan rəhbərliyinə, həm də dünya ictimaiyyətinə bəyan etdiyini vurğulayıb. 44 gün davam edən İkinci Qarabağ müharibəsinin Azərbaycanın şanlı Qələbəsi ilə başa çatdığını, torpaqlarımızın Ermənistan işğalından azad edildiyini bildirən B.Muradova Azərbaycanın bu müharibədən qalib, yenilməz, monolit şəkildə çıxdığını və bu birliyin gücünü dinc quruculuğa yönəltməli, müharibənin ağır nəticələrinin aradan qaldırılması işinə fəal şəkildə qoşulmalı olduğumuzu bildirib.

Qələbədən sonrakı dönəmdə həyata keçiriləcək quruculuq hədəflərinə toxunan B.Muradova deyib ki, bu istiqamətlərdə müvafiq dövlət qurumları, qeyri-hökumət təşkilatları ilə yaxından əməkdaşlıq xüsusi əhəmiyyət daşıyır. Münaqişədən zərər çəkən ailələrin, psixoloji sarsıntı keçirmiş qadın və uşaqların problemlərinə diqqət çəkən komitə sədri sosial-psixoloji işin miqyasının həddən artıq genişləndiyini nəzərə alaraq qeyri-hökumət təşkilatlarının yardımı ilə qısa müddətdə bu sahədə müvafiq layihələrin həyata keçirilməsinin vacibliyini vurğulayıb. Eyni zamanda, medianın imkanlarından düzgün və səmərəli istifadənin önəmindən danışan B.Muradova mətbuatda və sosial mediada hadisələrin düzgün işıqlandırılması, ictimai rəyin formalaşdırılması baxımından bu istiqamətdə lazımi tədbirlərin görüləcəyini diqqətə çatdırıb. Çıxışının sonunda komitə sədri tədbirdə iştirak edən dövlət və vətəndaş cəmiyyəti qurumlarının nümayəndələrini qeyd olunan sahələrdə birgə, fəal əməkdaşlığa dəvət edib.

DQİDK-nın sədri Mübariz Qurbanlı Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan böyük Qələbədən danışıb, 2021-ci ildə dövlət qurumlarının və vətəndaş cəmiyyətinin qarşısında yeni vəzifələrin dayandığını, yeni proqram və layihələrin həyata keçirilməli olduğunu vurğulayıb. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərin bərpası və inkişaf etdirilməsi ilə bağlı geniş proqramlar həyata keçiriləcəyini diqqətə çatdıran sədr DQİDK və Mənəvi Dəyərlər Fondu olaraq milli-mənəvi dəyərlər, mənəviyyatla bağlı layihələrdə iştirak edəcəklərini bildirib. M.Qurbanlı AQUPDK ilə ortaq mövzular üzrə illərə söykənən əməkdaşlıq təcrübəsindən danışıb, quruculuq dönəmində də bu əməkdaşlığın uğurla davam etdiriləcəyinə inamını ifadə edib. 2021-ci ildə Vətən müharibəsinin qəhrəmanlarının xalqımıza tanıdılması üçün şəhidlərimiz və qazilərimizlə bağlı qısametrajlı filmlərin çəkilməsinin önəmini vurğulayan M.Qurbanlı bu və qeyd edilən bütün mövzularda QHT-lərlə əməkdaşlıq edərək yeni layihələr həyata keçirməyə hazır olduqlarını bildirib.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının (QHT Şurası) sədri Azay Quliyev Qələbə münasibətilə təbriklərini səsləndirib, hər bir azərbaycanlının tarixi və qürurverici günlər yaşadığını qeyd edib. A.Quliyev 2020-ci ilin ən qətiyyətli siyasətçisi, böyük dövlət xadimi və dövlət başçısı kimi Prezident İlham Əliyevin, ən döyüşkən və peşəkar ordu kimi Azərbaycan Ordusunun, ən qəhrəman və mətin xalq kimi Azərbaycan xalqının tarixə yazıldığını diqqətə çatdırıb. A.Quliyev xalqımızın 44 günlük müharibədə Prezidentimizin ətrafında bir yumruq kimi birləşdiyini qeyd edib, bundan sonra qarşımızda duran əsas məsələlər kimi bu birliyin sona qədər qoruyub saxlanılmasının vacibliyini bildirib. O deyib: “Azərbaycan ictimaiyyətinin bütövlüyünü və birliyini qoruyub saxlamaq üçün dövlət strukturları və vətəndaş cəmiyyəti institutları bir amal ətrafında birləşməli, ortaq hədəfləri müəyyənləşdirərək əhəmiyyətli tədbirlər həyata keçirməlidirlər”.

Daha sonra çıxış edən QHT rəhbərləri qaldırılan məsələlərlə bağlı fikir və təkliflərini bölüşüblər. Müzakirələr zamanı münaqişədən əziyyət çəkən insanlara sosial, psixoloji dəstəyin göstərilməsi, şəhidlərimizin tanıdılması məqsədilə onların qəhrəmanlıqlarına həsr edilmiş sənədli filmlərin çəkilməsi, müsabiqələrin təşkil olunması və digər fəaliyyətlərin həyata keçirilməsi, eyni zamanda, Ermənistanın törətdiyi müharibə cinayətlərinin və bu istiqamətdə fərdi şikayətlərin dünya ictimaiyyətinə geniş şəkildə çatdırılması, bu barədə beynəlxalq ictimai rəyin formalaşdırılması kimi məsələlərin vacibliyi vurğulanıb.

Konfransda AQUPDK, DQİDK və QHT Şurasının əməkdaşları və müxtəlif QHT nümayəndələri iştirak ediblər.

# Azərbaycanın xarici işlər naziri ilə Britaniyanın dövlət naziri və İordaniya Haşimilər Krallığının xarici işlər və mühacir məsələləri naziri Əymən Əs-Safadi arasında telefon danışığı olub

**Noyabrın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Böyük Britaniyanın Avropa Qonşuluğu və Amerika üzrə dövlət naziri Vendi Morton arasında telefon danışığı olub.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər bölgədəki cari vəziyyəti, noyabrın 10-da tam atəşkəs və hərbi əməliyyatların dayandırılması ilə əlaqədar imzalanmış üçtərəfli bəyanat ətrafında fikir mübadiləsi aparıblar. BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin ətraf rayonlarından Ermənistan silahlı qüvvələrinin çıxarılması, məcburi köçkünlərin öz evlərinə geri qayıtması, humanitar xarakterli mübadilələrin həyata keçirilməsi və bütün kommunikasiyaların açılması kimi məsələlər müzakirə edilib.

Nazir Vendi Morton bölgədə atəşkəsi və bütün hərbi əməliyyatların dayandırılmasını elan edən üçtərəfli bəyanatın imzalanmasını alqışlayıb. O, razılaşmanın həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Vendi Morton həmçinin tərəflərin humanitar məsələlərə diqqət yetirməsinin mühüm olduğunu qeyd edib.

❖❖❖

Noyabrın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə İordaniya Haşimilər Krallığının xarici işlər və mühacir məsələləri naziri Əymən Əs-Safadi arasında telefon danışığı olub. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər arasında bölgədəki son vəziyyət və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı üçtərəfli bəyanatın imzalanması məsələsi ətrafında fikir mübadiləsi aparılıb. Nazir Ceyhun Bayramov birgə bəyanatın beynəlxalq hüquq normalarına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsaslandığını vurğulayıb.

İordaniyanın xarici işlər və mühacir məsələləri naziri Əymən Əs-Safadi münaqişə bölgəsində tam atəşkəs və bütün hərbi əməliyyatların dayandırılmasını elan edən razılaşmanı alqışlayıb. Bölgədə dayanıqlı sülhün təmin olunması üçün beynəlxalq hüquq normalarına hörmət edilməsinin vacibliyini vurğulayıb.

Tərəflər, habelə qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər.

# *İbrahim MƏMMƏDOV:* “Sentyabrın 27-dən Ermənistanın Azərbaycan ərazisinə təcavüzü nəticəsində dəyən ziyanın araşdırılması üçün 11 işçi qrupu yaradılıb”

Noyabrın 6-da Azərbaycan Respublikası Prezidentinin “2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında” Sərəncamı ilə Dövlət Komissiyası yaradılıb.



AZƏRTAC xəbər verir ki, bunu sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə hücumları nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılmasına həsr olunmuş brifinqdə Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov bildirib.

Dəymiş ziyanla bağlı məlumat bazasının yaradılacağını qeyd edən İbrahim Məmmədov deyib: “Prezidentin sərəncamına əsasən, proses şəffaf olmalıdır. Beynəlxalq ictimaiyyət və xalqımız bununla bağlı davamlı məlumatlandırılacaq, bu brifinq də bu məqsədə xidmət edir”.

Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri qeyd edib ki, artıq Dövlət Komissiyasının işçi qrupları yaradılıb. Ağdam, Ağcabədi, Beyləqan, Bərdə, Tərtər, Füzuli və Cəbrayıl, Goranboy və Naftalan, Gəncə, Mingəçevir rayon və şəhərləri üzrə 11 işçi qrupu yaradılıb. Tərtər rayonu üzrə dəymiş ziyanın miqyasını nəzərə alaraq 3 işçi qrupu formalaşdırılıb.

“Ermənistanın təcavüzü nəticəsində ziyan dəymiş obyektlər arasında fərdi yaşayış evləri, yardımçı tiklilər, çoxmənzilli yaşayış evləri, istehsal, ictimai iaşə obyektləri, məscidlər və kilsələr, tarixi abidələr, su təchizat obyektləri və tələf olmuş malqara var”, - deyən İbrahim Məmmədov diqqətə çatdırıb ki, dəymiş ziyan qısa müddətdə araşdırılacaq və nəticələr dövlət başçısına təqdim olunacaq.

# ATƏT PA-nın Daimi Komitəsinin iclasında Azərbaycanın tarixi Qələbəsi və Ermənistanın kapitulyasiyası haqqında danışılıb

**ATƏT Parlament Assambleyasının (PA) Daimi Komitəsinin onlayn iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, iclasda ATƏT PA-ya üzv dövlətlərin nümayəndə heyətlərinin rəhbərləri, Büro üzvləri və assambleyanın xüsusi üzvləri iştirak ediblər.

Görüşdə ATƏT PA-nın vitse-prezidenti, Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Azay Quliyev çıxış edib.

Çıxışına “Mən bu gün ATƏT PA-nın Daimi Komitəsində ATƏT-in ərazisindəki ən qanlı münaqişələrdən birinə, Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulduğunu bildirməkdən sevinc və şərəf duyuram” sözləri ilə başlayan Azay Quliyev məlumat verib ki, sentyabrın 27-də Ermənistan Azərbaycanın münaqişə bölgəsindən çox uzaqda mülki əhalinin sıx yaşadığı şəhər və kəndləri hədəf alaraq ölkəmizə qarşı yeni təcavüzə başlayıb. 27 sentyabrdan etibarən Ermənistanın Azərbaycanın yaşayış məntəqələrinə artilleriya və raket hücumları nəticəsində 93 dinc sakin öldürülüb, 407 nəfər yaralanıb. Ermənistan ATƏT-in ilk üzv ölkəsi oldu ki, günahsız mülki insanları kütləvi şəkildə öldürmək üçün ATƏT-in başqa bir üzv dövləti olan Azərbaycana qarşı qadağan olunmuş kasetli bombalardan, “SCUD” raketlərindən və ağ fosfordan istifadə edib. Bunlar Ermənistanın hərbi-siyasi rəhbərliyinin törətdiyi açıq-aşkar hərbi cinayətlərdir və o, bu cür qeyri-insani əməllərə görə məsuliyyət daşımalıdır. Bu cür vəhşi hücumlara cavab olaraq Azərbaycan erməni işğalçı qüvvələrinin tam süqutu ilə nəticələnən əks-hücum və cavab tədbirlərinə start verib: “Hərbi əməliyyatların 44 günlük aktiv fazası ərzində şanlı Azərbaycan Ordusu 5 şəhəri, 4 qəsəbəni və 300-ə yaxın kəndi Ermənistanın işğalından azad etdi. Böyük qürur hissi ilə vurğulamaq istəyirəm ki, Dağlıq Qarabağın incisi və dünyadakı hər bir azərbaycanlı üçün müqəddəs yer olan Şuşa şəhəri azad edilmiş şəhərlər sırasındadır. Döyüş meydanında ağır məğlubiyyətə uğradıqdan sonra Ermənistan sülh sənədini imzalamaq və tam kapitulyasiyasını rəsmən etiraf etmək məcburiyyətində qaldı. Tarixi ədalət və beynəlxalq hüququn triumfu olan sözügedən sənədi noyabrın 9-da Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri imzaladılar”.

ATƏT PA-nın vitse-prezidenti bəyanat haqqında ətraflı məlumat verib və onun əhəmiyyətini qeyd edib.

Azərbaycanın BMT Təhlükəsizlik Şurasının 27 ildir kağız üzərində qalan 822, 853, 874 və 884 saylı qətnamələrinin icrasını təkbaşına təmin etdiyini vurğulayan A.Quliyev bildirib ki, bu Qələbə Azərbaycan xalqının, dövlətinin və Ordusunun tarixi Qələbəsidir.

ATƏT PA-nın vitse-prezidenti deyib ki, ermənilərin və azərbaycanlıların birgə yaşamasının, qarşılıqlı inam və anlaşmanın təmin edilməsi hər birimiz üçün prioritet vəzifələrdən olacaq: “Bölgəmizdə davamlı sülh, sabitlik və firavanlığı təmin etmək üçün əlimizdən gələni etməliyik”.

# Azərbaycan Sakit Okean Alyansının 2-ci Əməkdaşlıq Forumunda təmsil olunub

Noyabrın 12-də Sakit Okean Alyansının videokonfrans formatında 2-ci Əməkdaşlıq Forumu keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, alyansda müşahidəçi dövlət statusuna malik olan Azərbaycan 2-ci forumun işində iştirak edib.

Forumun plenar iclasında çıxış edən Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İskəndərov 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın azad edilməsi ilə Azərbaycanın Qarabağ bölgəsinin dünya iqtisadi və mədəni münasibətlər sisteminə geri qayıtdığını diqqətə çatdırıb.

Xüsusilə qeyd edilib ki, Qarabağın mədəni paytaxtı və Qafqazın mədəni incisi olan, müsəlman Şərqində ilk operanın yazılmasına ilham verən Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın işğaldan azad edilməsi regional turizmin inkişafına böyük töhfə verəcək.

Forum iştirakçılarına multikultural irsin turizm sahəsində əhəmiyyəti, bu xüsusda Azərbaycanın malik olduğu zəngin dəyərlər və mədəni irs haqqında məlumat verilib. E.İskəndərov qeyd edib ki, bu sahədə Azərbaycan böyük təcrübəyə malikdir - ölkəmizdə dini və etnik mənsubiyyətindən asılı olmayaraq, bütün tarixi və mədəni abidələr qorunur və bərpa edilir.

Turizm və mədəniyyət sənayesinin sülhün bərpasında rolunu qeyd edən natiq bu sahədə təcrübəsi olan Azərbaycanın işğaldan azad edilmiş ərazilərini lazımi bərpa işlərindən sonra dünya iqtisadi münasibətlər və mədəni xəzinəsinə qaytaracağına, bunun da bölgədə sülhün möhkəmlənməsinə xidmət edəcəyinə əminliyini bildirib.



# Tarixin alqışladığı qələbə

*Əvvəli 1-ci səh.*

Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə işğalçı Ermənistana, bu ölkənin təcavüzkar siyasətinə dəstək olan faşist xislətli dünya ermənilərinə və onların havadarlarına, tarix boyu bizə qarşı törədilmiş erməni vəhşiliklərinə cavab kimi böyük bir dərs verdi.

## Xoşbəxtliyin rəsmi

Ali Baş Komandanın o xoş xəbərindən sonra media qurumlarının Azərbaycanın dörd bir yanından yaydığı reportajları, görüntüləri izlədik. Bu xəbərə şadyanalıq edən həmvətənlərimizin bayram ovqatını gözlərimizə köçürdük. Nəyəsə sevinmək adi insani hissdir: hər birimizin həyatında sevincli anlar olub. Sevincdən, fərəhdən, bunun həyəcanından özümüzə yer tapmadığımız məqamları zaman-zaman çox yaşamışıq. Amma bu qədər misilsiz sevinc həyəcanına şahidlik çoxumuzun həyatında bəlkə də ilk dəfədir. İnsanlar sanki sevinclərini ifadə etməyə çətinlik çəkirlər. Bu qələbənin onlar üçün nə qədər böyük dəyər kəsb etdiyini çoxları gözyaşları ilə çatdırırlar. Həddi-hüdudu olmayan sevinc, xoşbəxtlik də elə məhz budur. Ən önəmlisi isə bu sevincdən hamıya eyni dərəcədə pay düşməsidir. Bu xoşbəxtlik hamıya bərabər paylanır. Bu, həmrəyliyimizin, xalq olaraq çəkici bir zindana vurmağımızın, birliyimizin gücünün yaratdığı nəticənin sevincidir.

Qələbə sorağı gələn günlərdən dünyanın azərbaycanlılar yaşayan bütün məkanları üçrəngli bayrağımıza bürünmüşdü. Bu, bütün dünya demək idi. Hamı bu qələbəni qeyd edirdi. Ümumi qələbəmizə sevinirdi. Dünyanın bütün qitələrində yaşayan azərbaycanlılar ayaq üstəydilər. Azərbaycan Ordusunun zəfərini alqışlayırdılar. Onlar da bizim kimi həyatlarının ən böyük sevincini, fərəhini yaşayırdılar.

Həmin gün sevincdən göz yaşımıza hakim ola bilmirdik. Bu, 28 ildən də çox daş olub ürəyimizdən asılmış ağırlıqdan qurtuluşumuz idi. Şuşanın azadlığı, Şuşa həsrətimizin bitməsi müjdəsindən köksümüzə dolmuş fərəhin, qürurun gözlərdəki rəsmidir.

Nailiyyətlər, böyük sevinclər həmişə insanın ömrünü uzadır. Xalqın ömrü də onun tarixidir. Azərbaycan Ordusunun zəfəri tariximizi böyütdü, yerimizi daha da uca etdi. Şanlı keçmişə sahib Azərbaycan xalqı öz tarixində yeni bir mərtəbədə qərar tutdu. Bu xalqın hər bir təmsilçisinin köksünü dolduran, bizi birləşdirən, böyüdən, yenilməz edən Qələbə ruhu ilə yeni bir başlanğıca qədəm qoyduq.

## Vətənin hər qarış torpağı bizim üçün əziz və müqəddəsdir

Vətən torpağına sevgi onun təbiəti, torpağının bərəkəti, yaxın-uzaqlığı, tarixi ilə ölçülməz. Vətən elə Vətəndir. Hər guşəsi bağrımızın başındadır. Bununla belə nə sirrdirsə, Şuşanın hər bir dünya azərbaycanlısının düşüncəsində bir başqa yeri var. Bu düşüncənin səbəblərini müəyyən etmək o qədər də sadə deyil.

Şuşanı belə özünəməxsus edən bəlkə də təfəkkürümüzdəki Vətən anlayışının bir çox məqamlarının, milli-mənəvi dəyərlərimizin bu şəhərin qədim tarixində, füsunkar təbiətində, mədəni mühitində öz əksini tapmasıdır. Şuşa özlüyündə böyük Vətənimizin sıldırım dağların ucalığında qərar tutmuş bir şəhər boyda abidəsidir, insanların burada doğma yurdun şərəfinə ucaltdıqları məbəddir. Bütün yollar indi bizi bu məbədə - Şuşaya aparır.

Şuşa xalqımızın qeyrət rəmzidir, dağ vüqarımızdır...

Dəniz səviyyəsindən 1300 metr hündürlükdə qərar tutmuş Şuşa Tanrıya yaxın olduğumuz yerdir. Dualarımızı müqəddəs dərgaha daha tez yetirən məkandır, düşüncələrimizin şərəfli bir keçmişin aurasında, muğam dünyasında, saf havanın, ulu dağların, Tanrının qüdrət qələmi ilə çəkdiyi yaşıl təbiətin əhatəsində arınıb-durulduğu kamillik məskənidir. Ona görə Şuşa bizim üçün bu qədər əziz, doğmadır...

Bir də, bəlkə heç özümüz də fərqinə varmadan Şuşanı Vətən sevgimizin rəmzinə, yurd həsrətimizin nişanəsinə, nisgilli yurdlarımıza bir gün dönəcəyimiz günün ümid işığına çevirmişik. Azərbaycanı özünə vətən bilən bütün soydaşlarımızın qəlbində o rəmzdən, o nişanədən, ümiddən nəsə vardı. Şükür qovuşdurana, ümidlərimizin çin olduğu günləri görə bildik. Üçrəngli bayrağımızın yenidən Şuşada dalğalandığı günü yaşamaq nəsibimiz oldu. Şuşa - mədəniyyətimizin, ruhumuzun paytaxtı 28 ildən sonra öz sahibinə qovuşdu, ayrılığa son qoyuldu.

Azərbaycan igidləri dünyanın müharibələr tarixində yeni bir tarixə çevrilən qəhrəmanlıqları ilə ümidlərimizi, arzularımızı, Şuşa xəyallarımızı gerçəkləşdirdi.

## Yenidən yazılan tarix

Şuşa şəhərini döyüşçülərimiz əməliyyat şəraitindən irəli gələrək, demək olar ki, qollarının gücü ilə alıblar. O sıldırım qayalara dırmanaraq, əllərində silah düşmənin üzərinə aslan kimi şığıyaraq bu şəhəri fəth ediblər. Vaxtilə burada baş qoyub getmiş Ağa Məhəmməd Şah Qacara qarşı döyüşən Şuşa igidlərinin qəhrəmanlıq hekayətini əsrlər sonra yenidən təkrarlayıblar. Şuşanın tarixini yenidən yazıblar. Şuşa bundan sonra bizim üçün həm də bu igidlərimizin adsanı ilə müqəddəsdir. Şuşa Azərbaycanın hər qarışı uğrunda canından keçməyə hazır olan və bunu şəhadəti ilə sübuta yetirən övladlarımıza ucalan şəhər-abidədir.

Bu mənada Azərbaycan Prezidentinin Şuşanın azad olunması müjdəsini xalqımıza Şəhidlər xiyabanından, Əbədi Məşəl abidəsi önündən çatdırması da Vətən uğrunda canını fəda etmiş şəhidlərimizə əbədi sevginin ifadəsi kimi böyük rəmzi mənası ilə tarixə yazıldı. Bu müjdəni Ali Baş Komandan İlham Əliyev Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevə onun məzarı önündəki sayğı duruşu ilə çatdırdı. Ulu Öndərin ən böyük vəsiyyətini - ata vəsiyyətini yerinə yetirdiyinə görə xoşbəxt olduğunu bildirdi. Bununla Ümummilli Liderin timsalında dünyadan Qarabağ həsrəti, qayğısı ilə köçmüş bütün böyük şəxsiyyətlərimizin ruhunu şad etdi. Bu şəxsiyyətlərin yaşayıb-yaratdıqları tarixin özü belə Azərbaycan Prezidentinin bu zəfərinə əhsən dedi.

*Bu, bir övlad, bir Lider üçün ən böyük xoşbəxtlikdir.*

*Bu, bir xalq üçün ən böyük nailiyyətdir.*

*Bu, bir dövlət üçün ən şərəfli salnamədir.*

*Zəfərimiz, yeni tariximiz mübarək olsun!*

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# İlham Əliyev Azərbaycanın hüquqlarını Qarabağda tam təmin etdi

*Əvvəli 1-ci səh.*

İlk növbədə ona görə ki, vaxtilə sovet dövlətinin yaratdığı Dağlıq Qarabağ Muxtar Vilayətinin əraziləri tarixi Azərbaycan torpaqlarıdır və onun digər 15 respublika kimi müstəqilliyini elan etməsi üçün heç bir hüquqi çərçivə yoxdur. Digər tərəfdən, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bütün dövlətlər Dağlıq Qarabağı respublikamızın ərazisi kimi tanıyıblar. Azərbaycan dünyanın ən mötəbər beynəlxalq təşkilatı olan BMT-yə və digər beynəlxalq qurumlara üzv qəbul olunanda da Dağlıq Qarabağ Azərbaycanın ərazisi kimi qəbul edilib.

Sonrakı dövrdə Ermənistanın işğal etdiyi Dağlıq Qarabağ və ətraf rayonların Azərbaycan torpaqları olması BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi ilə də təsbit olunub. 822 saylı qətnamə BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü il aprelin 30-da qəbul edilib. Sənəddə işğalçı qüvvələrin Azərbaycanın Kəlbəcər rayonunu və digər işğal olunmuş rayonları dərhal tərk etməsi tələb olunur. BMT TŞ-nin həmin ilin iyulun 29-da keçirilən iclasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair 853 saylı qətnamə qəbul olunub. Sənəddə bütün hərbi əməliyyatların dərhal dayandırılması, işğalçı qüvvələrin Ağdam və Azərbaycanın digər işğal edilmiş rayonlarından dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilib. Qətnamədə həmçinin Azərbaycan vətəndaşlarının bir hissəsinin məcburi köçkün kimi yaşamasından narahatlıq ifadə olunub.

1993-cü ilin avqustunda Ermənistan Azərbaycanın digər rayonlarını işğal etmək üçün yeni hərbi əməliyyatlara başladı. Cəbrayıl, Füzuli və Qubadlı rayonları işğal edildi. 1993-cü il oktyabrın 14-də BMT TŞ yenidən Dağlıq Qarabağ problemini müzakirəyə çıxararaq 874 saylı qətnamə qəbul etdi. Mahiyyət etibarilə bu qətnamə əvvəlkilərdən fərqlənmirdi.

1993-cü ilin oktyabrında Ermənistan silahlı qüvvələri Azərbaycanın Zəngilan rayonunu işğal etdi. BMT Təhlükəsizlik Şurasının 1993-cü il noyabrın 12-də qəbul etdiyi 884 saylı qətnamədə Azərbaycanın Zəngilan rayonunun və Horadiz şəhərinin işğalı pislənildi və işğalçı qoşunların həmin ərazilərdən, eləcə də Minsk qrupunun iclasında razılaşdırılmış "BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 saylı qətnamələrini icra etmək üçün təcili addımlara dair yenilənmiş vaxt cədvəli"nə uyğun olaraq işğalçı qoşunların Azərbaycanın işğal edilmiş digər ərazilərindən çıxarılması tələb edildi.

## Vasitəçilər işğal siyasətinə göz yumdular

BMT Təhlükəsizlik Şurasının qətnamələrinin hər biri birmənalı şəkildə Azərbaycanın işğala məruz qaldığını təsdiq edən beynəlxalq hüquqi sənəddir. Bu sənədlərə imza atanlar həm də ATƏT-in Minsk qrupunun həmsədrləridir. Lakin təəssüflə qeyd edilməlidir ki, 1994-cü ildə atəşkəsdən sonra davam edən danışıqlar prosesində BMT-nin qətnamələrinin icrası Ermənistandan tələb olunmadı, baxmayaraq ki, müasir beynəlxalq münasibətlərdə ayrı-ayrı dövlətlərə qarşı dərhal beynəlxalq təzyiqlərin edilməsinə dair faktlar var. Məsələn, buna vaxtilə Küveytə qoşun yeridən İraqa qarşı beynəlxalq koalisiyanın formalaşdırılmasını göstərmək olar. Bu praktikanın Ermənistana qarşı tətbiq olunmaması Azərbaycanın üzləşdiyi beynəlxalq hüquqi ədalətsizliyin növbəti nümunələrindən biri idi.

ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlarda isə baza prinsiplərinin ilk bəndi Dağlıq Qarabağ ətrafında işğal edilmiş 7 rayonun mərhələli şəkildə Azərbaycana qaytarılması olub. Amma reallıq göstərir ki, Minsk qrupu bunu Ermənistandan qətiyyətlə tələb etməkdən uzaq olub və yumşaq, deklorativ bəyanatlarla kifayətlənib. İşğalçı Ermənistan isə nəinki Qarabağı, hətta işğal olunmuş ətraf rayonları da qaytarmaq istəməyib. Sentyabrın 27-dən sonra Azərbaycanın başladığı əks-hücum əməliyyatlarından sonra bir daha bəlli olur ki, Ermənistan həmin rayonlarda toponimləri də dəyişib, onlara eybəcər adlar qoyub. Bu da təsdiq edir ki, işğalçı dövlət baza prinsiplərinin ilk bəndini də yerinə yetirməkdən uzaq olub.

Əlbəttə, bunlar nəticə etibarilə işğalın 30 ilə yaxın davam etməsinə səbəb olub. Bu dövrdə işğalçı Ermənistana rəhbərlik edənlər isə danışıqları sadəcə imitasiya ediblər və bununla da həm onlar, həm də vasitəçilər Azərbaycanın beynəlxalq hüquqla təsbit olunmuş hüquqlarını kobud şəkildə tapdalayıblar.

## Ermənistan cəzalandırılaraq qovuldu

Ermənistanın sentyabrın 27-dən törətdiyi növbəti hərbi təxribat Azərbaycanın öz torpaqlarının azad edilməsi uğrunda əks-hərbi əməliyyatlara başlamasına səbəb oldu. Əməliyyatların ilk günü Füzuli və Cəbrayıl rayonlarının bir neçə kəndi işğaldan azad olundu. Tezliklə Ermənistanla dövlət sərhədinə qədər torpaqlarımızın işğaldan azad olunması ilə bütün dünya Azərbaycanın gücünü, işğalçı Ermənistanı ən qısa müddətdə məğlub etmək əzmini gördü.

İşğaldan azad edilmiş şəhərlər, rayonların kəndlərinin azad olunması, Xudafərində Azərbaycan bayrağının ucaldılması, İranla dövlət sərhədinə nəzarətin tam təmin edilməsi Azərbaycan Ordusunun möhtəşəm zəfərləri kimi tarixə düşdü.

Prezident İlham Əliyev müsahibələrinin birində dedi ki, Şuşasız bizim işimiz yarımçıq olar. Çünki Şuşa bizim döyünən ürəyimiz, qürur mənbəyimiz, qeyrət qalamızdır. Əgər 1992-ci ildə Azərbaycanda mərkəzi hakimiyyət güclü olsaydı, siyasi çəkişmələr baş verməsəydi, Şuşa heç vaxt işğal olunmazdı. Vətən müharibəsində Azərbaycan ictimaiyyəti Şuşanın azad edilməsini böyük səbirsizliklə gözləyirdi. Ali Baş Komandan İlham Əliyevin noyabrın 8-də Şuşanın azad edilməsini bəyan etməsi Vətən müharibəsində Azərbaycan Ordusunun müzəffər yürüşünün pik nöqtəsi oldu.

Öz ərazilərini işğaldan təmizləməklə Azərbaycan, ilk növbədə, BMT-nin qətnamələrinin icrasını yerinə yetirdi. Öz xoşu ilə vaxtilə qətnamələrin tələblərini yerinə yetirməyən işğalçı indi qəhrəman Ordumuz tərəfindən cəzalandırılaraq torpaqlarımızdan qovuldu.

## Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun davrandı

Vətən müharibəsi başlayandan sonra Azərbaycana qarşı ermənipərəst siyasi mərkəzlərdən çoxsaylı təzyiqlər olsa da, Prezident İlham Əliyev bütün bunların qarşısını əzmlə, qətiyyətlə aldı. Eyni zamanda Azərbaycan dünyaya sübut etdi ki, öz ərazisində BMT Nizamnaməsinin 51-ci maddəsinin tələblərini icra edir.

Beynəlxalq hüquqa əsasən xarici dövlətin silahlı qüvvələrinin təcavüz, hücum, işğal və ya bombardman şəklində olmasından asılı olmayaraq, hər hansı bir silahlı hücum baş verdikdə özünümüdafiə hüququ dərhal və hamı üçün qüvvəyə minir. BMT Nizamnaməsinin 51-ci maddəsində deyilir: "Bu Nizamnamənin heç bir müddəası, əgər Birləşmiş Millətlərin üzvünə qarşı silahlı basqın baş verərsə, Təhlükəsizlik Şurası tərəfindən beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün zəruri olan tədbirlər görülənə qədər, ayrılmaz xarakter daşıyan fərdi və ya kollektiv özünümüdafiə hüququna xələl gətirmir".




Beləliklə, Azərbaycan öz torpaqlarında həm də BMT-nin Nizamnaməsindən irəli gələn tələbləri yerinə yetirərək özünümüdafiə hüququndan yararlandı. Bu dövrdə qeyd etdiyim ki, Azərbaycana qarşı beynəlxalq təzyiqlər edildi. Hətta BMT-də Ermənistanın maraqlarına cavab verən qətnamənin qəbuluna cəhd göstərildi. Lakin beynəlxalq hüquq son nöqtəsinə qədər Azərbaycanın tərəfində olduğundan bu riyakar cəhd baş tutmadı.

Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatları, Prezident İlham Əliyevin qətiyyəti və yüksək diplomatik peşəkarlığı nəticəsində noyabr ayının 10-da Ermənistan kapitulyasiya bəyanatı imzalamağa məcbur edildi və həmin tarix Azərbaycan xalqının Vətən müharibəsində Qələbə günü kimi təqvimə yazıldı.

Tarix sübut edir ki, bütün müharibələr bu cür sənədlərin imzalanması ilə başa çatır və belə hüquqi anlaşmalar gələcək dövr üçün hər bir tərəfin ortaya qoymalı olduğu davranışları təsbit edir. Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin imzaladığı bu bəyanat birmənalı şəkildə ölkəmizin qələbəsinin hüquqi baxımdan təsdiqidir. Eyni zamanda bu sənəd Ermənistanın işğalçı dövlət olduğunu bir daha sübut edən hüquqi aktdır. Üstündən onillər, qərinələr keçsə də, bu bəyanat Azərbaycanın milli haqqının bərpası istiqamətində əsas tarixi hüquqi sənədlərdən biri kimi çıxış edəcək.

Artıq Azərbaycan Ermənistanın işğalına son qoyub. Bu böyük Qələbənin müəllifi isə Azərbaycan Prezidentidir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuz xalqımızın 30 illik arzusunu reallığa çevirdi, ərazi bütövlüyümüzü bərpa etdi. İlham Əliyev Azərbaycanın hüquqlarını təmin etdi. Qələbəmiz mübarək olsun!

Qarabağ Azərbaycandır!

***Qələmdar ABBASOV,***
***Göygöl rayon məhkəməsinin sədri***

# YAP Bərdə şəhərinə 500 ailə üçün nəzərdə tutulmuş humanitar yardım göndərib

Ermənistanın terrorçu dəstələri tərəfindən yaşayış məntəqələrimizin və dinc əhalinin atəşə tutulması nəticəsində zərərçəkmiş ailələrə qayğı göstərilməsi, yardım edilməsi Yeni Azərbaycan Partiyasının (YAP) fəaliyyətində prioritet istiqamətlərdən birini təşkil edir.




YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Vətən müharibəsinin davam etdiyi günlər ərzində partiyanın "Birlikdə güclüyük" kampaniyası çərçivəsində erməni faşistlərinin hədəfinə çevrilmiş Gəncədə və Azərbaycanın digər şəhər və kəndlərində həyata keçirdiyi humanitar layihə hazırda da davam etməkdədir.

YAP nümayəndələri Bərdə şəhərinə səfər ediblər. Partiyanın təmsilçiləri şəhərin raket hücumuna məruz qalması nəticəsində evləri dağılmış ailələri ziyarət edib, onların problemləri ilə maraqlanıblar.

Noyabrın 12-də isə Yeni Azərbaycan Partiyası tərəfindən Bərdəyə 500 ailə üçün nəzərdə tutulmuş humanitar yardım çatdırılıb. Partiyanın bu yardımı erməni vandalizminin qurbanına çevrilmiş, onların təxribatı nəticəsində evləri dağılmış, eləcə də həlak olmuş vətəndaşlarımızın ailələrinə təqdim edilib.

Görüşlərdə iştirak edən Bərdə sakinləri Müzəffər Ali Baş Komandanımız, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı böyük Qələbədən qürur duyduqlarını bildiriblər.

# Zəfər salnaməsinin şanlı 44 günü

*Əvvəli 1-ci səh.*

Azərbaycan torpaqları qarış-qarış, kənd-kənd işğaldan azad edildi. 44 gün ərzində 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad olundu, Silahlı Qüvvələrimiz Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavəndin böyük hissəsini, Laçın rayonunun kəndlərini işğaldan azad etdi. Uzun illərdən sonra doğma torpaqlarımızda yenidən üçrəngli şanlı bayrağımız ucaldıldı.

## Bayram bayrama qovuşdu

8 noyabr isə Azərbaycan tarixinə Qələbə günü kimi düşdü. Qarabağın tacı, ölkəmizin ən dilbər guşələrindən biri, muğamımızın beşiyi Şuşa mənfur düşmən tapdağından qurtuldu. Həmin gün xalqımız tərəfindən böyük coşqu ilə qarşılandı. Hər kəs müqəddəs üçrəngli bayrağımıza bürünərək küçələrə axışdı, sevincini bir-birilə bölüşdü.

9 Noyabr - Dövlət Bayrağı Günü də qələbə xəbərləri davam etdi. Prezident İlham Əliyev "Twitter" hesabından 71 kəndin, 1 qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad edilməsi ilə bağlı şad xəbəri xalqa verdi.

10 noyabr gecəsi isə Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev doğma xalqını böyük zəfər xəbəri ilə müjdələdi: "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır".

## Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə nöqtə qoyuldu

Bəli, o gün Dağlıq Qarabağ münaqişəsinə nöqtə qoyulduğu gün oldu. 30 illik münaqişə 44 gündə Azərbaycanın qələbəsi ilə bitdi. Prezidentin xalqa müraciəti bitərbitməz paytaxt sakinləri küçələrə çıxaraq şanlı qələbənin sevincini, qürurunu bölüşdü. Tezliklə bütün Azərbaycan bayram əhvali-ruhiyyəsinə qərq oldu. Müxtəlif bölgələrdə yaşayan sakinlər meydanlara axışaraq, əllərində Azərbaycan bayraqları, şüarlar tutaraq sevindilər, mahnı oxudular, rəqs etdilər, şeir dedilər. 10 noyabr səhəri Azərbaycan xalqı üçün qələbə müjdəsi ilə açıldı. Gün boyu xalqın zəfər yürüşü, şadyanalığı davam etdi. Minlərlə insan müqəddəs and yerimiz olan Şəhidlər Xiyabanını ziyarət edərək şəhidlərimiz qarşısında şükranlıq borclarını yerinə yetirdi.

44 günlük Vətən müharibəsi Ali Baş Komandanın, Azərbaycan Ordusunun, xalqımızın zəfəri ilə başa çatdı. 44 günlük haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldı. Bu qələbəni Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, müzəffər Ordumuzun şücaəti, qəhrəmanlığı, qorxmaz, cəsur əsgərlərimizin canı, müqəddəs, ölməz şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazandıq...

30 illik münaqişəni 44 günə sona çatdıran bu qısa müharibə dünya hərb tarixinə də misli görünməmiş savaş kimi düşdü. Azərbaycan Ordusunun gücünü, Azərbaycan xalqının qüdrətini bəşəriyyətə sübut etdi. Ona görə 44 günlük qəhrəmanlıq savaşımız tarix boyu şanlı qürur mənbəyimiz olaraq qalacaq.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Zəfərin mübarək, AZƏRBAYCAN!..

Paytaxt sakinlərinin qələbə sevinci “Bakı Media Center”in təqdimatında



# Biz belə sevinc və qürur hissləri yaşamamışdıq

**Prezident, Ali Baş Komandan İlham Əliyevin Qarabağ uğrunda gedən Vətən müharibəsinin qələbəmizlə başa çatmasını elan etməsi hər kəsə sonsuz sevinc bəxş etmişdir. İnsanlar hələ axşam saatlarından yaşadıqları evlərin həyətlərinə, küçələrə çıxaraq, bir-birini təbrik edirdilər. Dostlar, tanışlar, qohumlar telefonla öz hiss və həyəcanlarını bölüşürdülər.**
**Gənclər əllərində Azərbaycan və Türkiyə bayraqları ilə "Qarabağ Azərbaycandır!", "Vətən bölünməz, şəhidlər ölməz!" kimi şüarlarla yürüş etdilər. Marş, musiqi sədaları ətrafa yayıldı.**
**Ulu Öndər Heydər Əliyevin, Ali Baş Komandan İlham Əliyevin portretlərini ucaldan adamlar rəşadətli Azərbaycan Ordusunun göstərdiyi misilsiz qəhrəmanlıqdan qürurla söhbət açırdılar. Meydanlar, küçələr, prospektlər insan axını ilə aşıb-daşmışdı. Bəli, ən yaşlı adamlar belə deyirlər ki, xalqımız belə bir sevinc hissini heç vaxt yaşamamışdır. Qarabağ, onun baş tacı Şuşa yenidən Azərbaycana qovuşdu. Öz dədə-baba yurdundan didərgin düşmüş soydaşlarımız tezliklə o doğma yerlərə qayıdacaqlar. Qələbə xəbəri Cənub bölgəsində yaşayan vətəndaşlarımız tərəfindən də sevinc hissi ilə qeyd edildi.**



## Salyan

Noyabr ayının 9-dan 10-na keçən gecə can verməkdə olan düşmən təslim aktına qol çəkməyə məcbur edildi. Bu xəbəri eşidən kimi Salyan şəhərinin sakinləri öz sevinclərini bildirmək üçün küçələrə axışdılar.

Maşın siqnalları, "Qarabağ!" nidaları gecənin sükutunu pozdu. Şəhərin hər yerindən alqış səsləri, "Yaşasın Ordumuz!", "Yaşasın Ali Baş Komandan!" nidaları eşidildi. Bayraqlarla bəzədilmiş maşın karvanı gur siqnalla bütün günü şəhərin küçələrində şütüdü. İnsan axını daha da gurlaşıb selə döndü.

Uzun illər Salyan Uşaq Xəstəxanasında baş həkim işləmiş Sabir Kərimov fikirlərini belə bölüşdü: "Çox həyəcanlıyam. Nəhayət ki, 30 illik həsrət bitdi, müharibə ordumuzun qələbəsi ilə başa çatdı. Düşmən gördü ki, biz nəyə qadirik. Prezident İlham Əliyev çox böyük siyasətçidir. Onun ardıcıllıqla həyata keçirdiyi tədbirlər, beynəlxalq səviyyədə apardığı işlər sayəsində bugünkü qələbəmiz təmin edildi. İnanırıq ki, ölkəmizin gələcəyi daha parlaq olcaq".

## Lənkəran

Ali Baş Komandan, Prezident İlham Əliyevin Qələbə müjdəli tarixi müraciəti lənkəranlılara da sonsuz sevinc bəxş etmişdir. Uzun illər qələbə həsrəti ilə yaşayan gənclər, yaşlılar, qadınlar, onlarla birlikdə olan uşaqlar izdihamlı şəkildə küçələrə axışmış, Heydər Əliyev parkında, Dövlət Bayrağı meydanında, Şəhidlər xiyabanında toplaşaraq Qələbə sevincini bölüşmüşlər.

RİH-in başçısı Taleh Qaraşovun da olduğu izdihamın iştirakçıları küçə və meydanları, parkları "Yaşasın Azərbaycan!", "Yaşasın Ali Baş Komandan!", "Qarabağ Azərbaycandır!", "Qarabağ bizimdir!", "Ən güclü əsgər bizim əsgərdir!", "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarları ilə doldurmuşlar. Sevinc göz yaşlarını gizlədə bilməyən Milli Qəhrəman Əsgər Əliyevin atası Hacı Ələkbər dedi: "Biz bu şad xəbəri illərdən bəri gözləmişik. Sağ olsun Prezident İlham Əliyev, bu həsrətə son qoydu. Allah onu qorusun!"

## AĞDAM

Qələbə sorağı Ağdamda da bayram ovqatı yaradıb. Son 40 gün ərzində elə gün olmayıb ki, Ermənistan silahlı qüvvələri Ağdamı mərmilərə, raket zərbələrinə məruz qoymasın. Nəticədə çox sayda evlər, sosial obyektlər dağıdılıb, mülki əhali arasında ölənlər, yaralananlar olub. Amma ağdamlıların qələbəyə olan inamı bir zərrə sarsılmamışdı. Bu inam Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müdrik siyasətindən, qəhrəman Azərbaycan əsgərinin dünyanı heyrətə salan hünərindən qaynaqlanırdı.

Quzanlı qəsəbəsi bayram əhvali-ruhiyyəsi ilə üzə gülür. Uşaqdan-böyüyə hamı böyük coşqu ilə küçələrdədir. İzdihamın başı üzərində yüzlərlə üçrəngli, ay-ulduzlu bayrağımız dalğalanır. Ağdam rayon sakini Şükür Mirzəyevlə həmsöhbət olduq:

- Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xalqa vediyi qələbə müjdəsi illərdən bəri ürəyimizi göynədən nisgilə son nöqtəni qoydu. Bura yığışan adamların üzünə diqqətlə baxın. Hamımızın çöhrəsi gülür. Şanlı ordumuzun qazandığı bu möhtəşəm qələbə bizi illərdən bəri həsrət qaldığımız doğma yurdumuza qovuşduracaq. Bu qələbə şəhid analarına ən böyük təsəlli olacaq. Bu qələbənin sorağı canını vətən yolunda qurban edən şəhidlərimizin ruhunu şad edəcək. Bu qələbəni qazanan Ali Baş Komandana, qəhrəman Azərbaycan əsgərinə eşq olsun!

## Cəlilabad

Cəlilabadda o gecə heç kəs səhərəcən gözünü yummamışdı. Hələ axşam saatlarından başlamış şənliklər gecədən səhərə qədər və gün boyu davam etmişdir. Səhər saatlarında şəhərin mərkəzindəki Heydər Əliyev seyrəngahında daha böyük qələbəlik vardı.

Meydanda Azərbaycan və Türkiyə bayraqları dalğalanırdı.












Hər tərəfdən musiqi sədaları yüksəlirdi. Şüarlar səsləndirilir, adamlar bir-birini təbrik edirdilər. Cəlilabad Qarabağdan xeyli aralıda yerləşsə də, bu gün bütün Azərbaycan kimi, bu qədim bölgə də Qarabağdır. Qarabağın dərdi illərdən bəri idi ki, cəlilabadlıları da üzürdü. Rayonun gəncləri cəbhəyə böyük vətənpərvərlik hissi ilə yollanırdılar.

İndi də cəlilabadlılar qələbəni bayram edirdilər. Qarabağ haqqında şeirlər və mahnılar səsləndirilir, insanlar hisslərini bir-biri ilə bölüşürdülər.

Əmək veteranı Oqtay Ağayev ürək sözlərini ifadə edərək dedi: "Ermənistanda hər kəs bilməli idi ki, Azərbaycanla sərt dildə danışmaq olmaz, bütün hallarda biz torpaqlarımızı azad edəcəyik. Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində biz bu qələbəyə nail olduq. Hər kəs bisin ki, biz Vətənə bağlıyıq. İlham Əliyevin dediyi kimi, Qarabağ məsələsi beynəlxalq hüquq və bizim milli ləyaqət, qürur məsələmiz idi. Prezidentimizin böyük səyi, xalqımızın birliyi, igidlərimizin şücaəti və şəhidlərimizin müqəddəs qanı bahasına biz bu qələbəni qazandıq. Bayramımız mübarək olsun!"

## Şirvan

Prezident, Ali Baş Komandan İlham Əliyevin sarsılmaz siyasi iradəsi, müzəffər Silahlı Qüvvələrimizin qəhrəmanlığı sayəsində düşmən noyabrın 10-na keçən gecə ağ bayraq qaldırdı.

Bu xəbəri televiziya ilə izləyən andan ölkənin hər yerində olduğu kimi, Şirvan şəhərində də əhali gecədən başlayaraq müharibənin xalqımızın qələbəsi ilə sona çatmasını bayram əhvali-ruhiyyəsi ilə qarşıladı. Şirvanlılar Ulu Öndər Heydər Əliyevin abidəsi önündə toplaşaraq, oradan bütün küçə və məhəllələrə yürüş keçirdi, sevinc və qürur hisslərini paylaşdılar. Şirvan şəhəri bəlkə də indiyədək bu sayda üçrəngli bayrağımıza bürünməmişdi. Binalar, avtomobillər, obyektlər üçrəngli bayraqlarla bəzədilmişdi. "Yaşasın Ali Baş Komandan!", "Eşq olsun Azərbaycan Ordusuna!", "Qarabağ Azərbaycandır!" şüarları gənclərin şən musiqi sədaları altındakı rəqslərinə, sevinc göz yaşlarına qarışmışdı. Qələbə sevincindən doğan şadyanalıq gün boyu davam etmişdir.

## BƏRDƏ

10 noyabr 2020-ci il. Payızın xəzan çağı olsa da, havadan bahar nəfəsi duyulur. Qədim Bərdə şəhəri bayram libasındadır. Şəhəri iki hissəyə bölən Heydər Əliyev prospektində qələbəlikdir. Bayraqlarla bəzədilmiş avtomobillərin siqnal səsləri, fərəh süzülən təbəssümlü çöhrələr Qələbə müjdəli bu payız səhərinin qürurverici mənzərəsini qəribə şəkildə tamamlayır.

Hamı bir-birini təbrik edir, gözaydınlığı verir. Könül açan izdiham qələbədən doğan sevincə köklənib. Bərdə şəhər sakini Aydın Səfərov xoş duyğularını bizimlə həvəslə bölüşür:

- Bu gün sevincimin həddi-hüdudu yoxdur. Ağsaqqal yaşında olsam da, uşaq kimi kövrəlmişəm. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xalqa müraciətini gecəyarı televiziyada böyük maraqla dinlədim. Sevincdən, həyəcandan sabaha kimi gözümə yuxu getmədi. Dövlət başçısının müdrik siyasəti ilə Azərbaycanın dövlətçilik tarixinə şanlı səhifə yazıldı. Otuz ildən bəri cənnət Qarabağımızı işğal altında saxlayan Ermənistan ordusu rusvaycasına məğlub oldu. Vətən müharibəsi ordumuzun qələbəsiylə başa çatdı. Xoşbəxtəm ki, Allah bu günü görməyi mənə nəsib etdi. Onu da deyim ki, mən əslən şuşalıyam. Şuşada evimiz, mülkümüz vardı. Ürək ağrısıyla tərk etdiyimiz Şuşaya indi gülə-gülə qayıdacağıq. Bu sevinci bizə yaşadan Ali Baş Komandana, qəhrəman Azərbaycan əsgərinə eşq olsun! Biz qalibik! Qarabağ Azərbaycandır!

***Seyran CAVADOV,***
***Lazım QULİYEV,***
***"Azərbaycan"***













# Alimlər «Böyük Qayıdış»a hazırlaşırlar

**Azərbaycan dövləti və şanlı ordumuz ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə doğma Qarabağ torpaqlarını erməni işğalçılarından azad edərək özünün zəfər tarixini yazır. Prezident çoxsaylı çıxışlarında bu savaşın əsl məqsədini bir neçə cümlədə aydın ifadə etmişdir: "... Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik".**

**Bütün bunlarla yanaşı, biz həm də regionun talan edilərək məhv olmaq təhlükəsinə məruz qoyulmuş qiymətli biomüxtəlifliyini xilas etmiş oluruq.**

Hazırda bütün Azərbaycan xalqı Ali Baş Komandan İlham Əliyevin ətrafında bir yumruq kimi birləşərək cəbhədə ordumuzun qələbələrinə öz töhfəsini verir. Belə birlik qarşısında Ermənistanın sınıq-salxaq hərb maşınının çox duruş gətirə bilməyəcəyi şəksizdir. Ona görə də bu gün dövlətimiz və xalqımız kimi, elmi ictimaiyyət də artıq müharibədən sonrakı dövrə köklənmişdir. Hazırda Azərbaycan Milli Elmlər Akademiyasında da postmüharibə dövrü geniş müzakirə mövzusudur.

Bildiyimiz kimi, Qafqaz və o cümlədən Azərbaycan dünyanın ən zəngin biomüxtəliflik regionlarından biri, əksər flora və fauna elementlərinin ilkin əmələgəlmə, bəzi kənd təsərrüfatı bitki və heyvanlarının ilkin və ikinci mədəniləşdirmə və əhliləşdirmə mərkəzlərindəndir. Bu mərkəzin ən önəmli hissələrindən olan Qarabağ bölgəsi həmçinin digər yeraltı və yerüstü sərvətləri, çox qədim tarixi, unikal maddi və mədəniyyət abidələri ilə də seçilir. Dünyanın ən qədim insan məskənlərindən olan Azıx mağarasının, eləcə də bir neçə min illik əkinçilik mədəniyyətini, dövlətçilik ənənələrini əks etdirən arxeoloji qazıntı yerlərinin, antik memarlıq nümunələrinin mövcudluğu Qarabağ bölgəsinin çoxşaxəli multidissiplinar tədqiqatlar üçün dəyərini bir qədər də artırır.

Tədqiqatların xarakterinə və istiqamətlərinə təsir edəcək amillərdən biri də ermənilərin işğal etdikləri ərazilərdə terror və dağıdıcılıq siyasəti aparmalarıdır. Onlar beynəlxalq hüququn norma və prinsiplərinə, ümumbəşəri dəyərlərə zidd olaraq işğal etdikləri ərazilərdə tarixi və mədəni irsimizi tamamilə məhv etmiş, yaşayış məntəqələrinə qondarma adlar qoymuş, Ermənistandan və Yaxın Şərqdən gətirilmiş erməniləri ərazilərimizdə yerləşdirmişlər.

Prezident İlham Əliyev dəfələrlə bildirmişdir ki, işğaldan azad edilmiş ərazilər tam şəkildə yenidən qurulacaq, müasir, abad yaşayış məntəqələri və infrastruktur yaradılacaq, kənd təsərrüfatı, müxtəlif sənaye sahələri bərpa və inkişaf etdiriləcək. Təbii ki, yenidənqurma və inkişaf mərhələsinə qədəm qoyan Qarabağda elmimizin, xüsusən Milli Elmlər Akademiyasının da görməli olduğu işlər çoxdur. Bölgənin tarixi, mədəniyyəti, arxeologiyası, etnoqrafiyası və təbii ehtiyatları, geoloji və coğrafi xüsusiyyətləri tədqiqat obyektləri olmalıdır. AMEA Rəyasət Heyətinin iclasında bu istiqamətlərdə kompleks tədqiqatların yenidən təşkili ilə bağlı qərar qəbul edilmişdir. Qərarda AMEA-nın Qarabağ Regional Elmi Bölməsinin yaradılması məsələsinin AMEA-nın Ümumi iclasına çıxarılması, işğaldan azad olunmuş ərazilərdə elmi-tədqiqat işlərinin bərpası ilə əlaqədar təkliflərin hazırlanıb müzakirəsinin aparılması öz əksini tapmışdır. Təbii ki, bütün bu işlərə 30 il ərzində bədnam qonşularımız tərəfindən işğal edilmiş ərazilərdə törədilmiş ekoloji fəlakətin miqyasının qiymətləndirilməsindən başlanılmalıdır.

Azərbaycan dünyanın ən qədim yaşayış məskənlərindən biridir. İlkin mənbələrdə hələ 1300 il bundan əvvəl işlənmiş və tarixi coğrafi anlayış kimi konkret məkanı bildirmiş "Qarabağ" sözü sonralar Azərbaycanın geniş coğrafi ərazisinə aid edilmişdir. Tanrının cənnət məkanı kimi yaratdığı Qarabağ zonası özünün flora və fauna müxtəlifliyinin zənginliyi, yeraltı və yerüstü sərvətləri, bərəkətli torpaqları, kəhriz və müalicəvi bulaqları, min bir dərdin dərmanı olan şəfalı suları ilə həmişə seçilmişdir. Burada çoxsaylı, o cümlədən Azərbaycanın "Qırmızı Kitab"ına daxil edilmiş qiymətli bitki və heyvan növləri, qoruq və yasaqlıqlar mövcud olmuş, mədəni bitkilərin Azərbaycan xalqı tərəfindən yaradılmış seleksiya nümunələri geniş şəkildə becərilmişdir.

Özünün iqlim və landşaft müxtəlifliyi ilə seçilən bu ərazilərdə 2500-ə qədər bitki, o cümlədən 460 növdən çox yabanı ağac və kol bitkisi vardır. Azərbaycan Respublikasının "Qırmızı Kitabı"nın I nəşrinə (1989) daxil edilmiş 140 adda nadir və nəsli kəsilmək təhlükəsində olan bitkinin bir çoxu Qarabağdan təsvir edilmişdir. Burada yabanı halda bitən növlərdən 21-i Azərbaycan, 82-si Qafqaz üçün endem olmaqla, onlara dünyanın heç bir yerində rast gəlinmir. Daş səhləbi (xarı bülbül), Şuşa gəvəni, qaraçöhrə, Qarabağ dağ laləsi, məryəm noxudu, Şuşa xaşası, azad ağacı, ştrenbergiya kimi təbiət incilərimiz bu yurda həmişə şöhrət gətirmişdir. "Qırmızı kitab"ın II nəsrində (2013) 8 Qarabağ endemi haqqında məlumat verilmişdir. Yeri gəlmişkən, bu nəşr hazırlanan zaman Qarabağın işğal altında olan ərazilərində yayılan bitkilər barədə heç bir yeni məlumatlar əldə etmək mümkün olmamışdır.

İşğalda olan meşə ərazilərimiz barədə də məlumatlar yox dərəcəsindədir. İşğala qədər Qarabağın meşə fondu 160 min hektardan çox olmuşdur. Bəsitçay Dövlət Təbiət Qoruğu Zəngilan rayonunda Bəsitçay dərəsində, 100 hektarını Avropada yeganə təbii çinar meşəsi tutan bir ərazidədir. Qaragöl Dövlət Təbiət Qoruğu Laçın rayonunun yüksək dağlıq ərazilərini əhatə edir. Burada işğaldan öncə 100-dən artıq bitki qorunurdu. Yasaqlıqlardan ən yaddaqalanı qırmızı (qızılı) palıdın mühafizə olunduğu Laçının Hacışamlı meşəsidir. Qubadlı və Laçın ərazisində yaradılmış digər qorunan ərazi isə qırmızı palıdın, qoz ağaclarının, vələs, ağcaqayın, yemişan, ardıc və s. bitdiyi Qubadlı Dövlət Təbiət Yasaqlığıdır.

Dağlıq Qarabağda və ətraf rayonlarda mövcud olan qoruq və yasaqlıqların bir çoxu ötən əsrin 70-ci illərində Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılmışdı.

Qarabağ zonasında təsadüf edilən 15 heyvan növü Azərbaycan Respublikasının "Qırmızı Kitabı"nın II nəşrinə (2013) daxil edilmişdir. Qarabağ və onun ətraf rayonları çox zəngin onurğasız heyvanlar aləminə malikdir. Burada işğala qədər yayılmış növlər (4500-5000 növ) Azərbaycan üzrə ümumi buğumayaqlıların 20 faizə qədərini təşkil etmişdir. İşğal olunmuş ərazilərdə həşəratlar faunasının 56 növü nadir, endemik və nəsli kəsilmək təhlükəsindədir. Dağlıq Qarabağ və onun ətraf rayonları ərazilərində faydalı cücülərdən brakonidlər, xalsidlər, ixnevmonidlər və arıkimilər geniş yayılmışdır.

Azərbaycanın bu ərazilərində təsadüf edilən döşüdişli uzunbığ, Alp rozaliyası, Qafqaz ilbizyeyən fişqırdanı, qəşəng böcək, yarpaqyeyən böcək, ağnöqtəli andrena, tamara alacası, şəfəqsaçan, Alp sarıcası, Qafqaz sarıcası, kəlləşəkilli haf, anaxoreta sovkası, yaşıl Alp sovkası, gəşəng yaşıl sovka, məlikə ayıca, kaya ayıcası növləri "Qırmızı kitab"ın II nəşrinə daxil edilmişdir.

Qarabağın daxili su hövzələrində 12 növ balıq yayılmışdır ki, onlardan 7-si "Qırmızı kitab"ın II nəşri ilə yanaşı, Beynəlxalq Təbiəti Mühafizə Təşkilatının (IUSN) qırmızı siyahısına da daxil edilmişdir.

Respublika daxilində Kiçik Qafqazın böyük hissəsini yovşanlı-şoranotlu və şoranotlu yarıkolluq bitki qruplarının üstünlük təşkil etdiyi düzənlik yarımsəhralar tutur. Sürünən növlərinin və yarımnövlərinin əksəriyyəti (herpetofaunanın 54,7 faizi) burada cəmləşmişdir. İşğala qədər Qarabağ ərazisində 4 növ amfibi, 28 növ reptili (Azərbaycanda 11 növ amfibi və 63 növ reptili) yayılmışdır. Sürünənlərdən 6 növ Azərbaycan Respublikasının "Qırmızı Kitabı"nın II nəşrinə daxil edilmişdir. Qarabağ ərazisində reptililər üzrə tısbağalardan 3, kərtənkələlərdən 17, ilanlardan 15 növ yayılmışdır. Sürünənlərdən 6 növ "Qırmızı kitab"ın II nəşrinə daxil edilmişdir.

Kiçik Qafqazda quşlar faunası daha da zəngin olmuşdur. 1993-cü ilə qədər Qarabağ ərazisində 16 dəstəyə, 57 fəsiləyə daxil olan 288 növ (Azərbaycan ərazisində 19 dəstəyə, 65 fəsiləyə mənsub 407 quş) qeydə alınmışdır. Bunlardan 50 növ "Qırmızı kitab"ın II nəşrinə daxil edilmişdir.

Dağlıq Qarabağ ərazisində həşəratyeyənlər dəstəsinin 8, yarasalar dəstəsinin 20, dovşankimilər dəstəsinin 2, gəmiricilər dəstəsinin 19, yırtıcılar dəstəsinin 11, cütdırnaqlılar dəstəsinin 4 növü məskunlaşmışdır.

Dünyada 4675, Azərbaycanda 115, o cümlədən Qarabağ ərazisində işğala qədər 6 dəstəyə mənsub 63 məməli növü qeydə alınmışdır. Burada "Qırmızı kitab"a daxil edilmiş safsar, çay samuru, qonur ayı, zolaqlı kaftar, qamışlıq pişiyi, çöl pişiyi, vaşaq, Qafqaz bəbiri, nəcib maral, cüyür, Bezoar keçisi kimi nəsli tükənmək təhlükəsində olan orta və iriölçülü nadir məməlilər də az deyil. Bunlardan bəziləri Beynəlxalq Təbiəti Mühafizə İttifaqının Qırmızı Siyahısına (IUSN) da daxil edilmişdir.

Qarabağın mağaraları, xüsusən Azıx mağarası BMT-nin Ətraf Mühit Proqramı Miqrasiya edən Heyvanların Konvensiyası çərçivəsində EUROBATS (Avropa Yarasa Populyasiyalarının Mühafizəsi) Razılaşması ilə beynəlxalq statusla mühafizə olunan nadir yarasa növlərinin sığınacağıdır.

1970-ci illərdə AMEA Biologiya Bölməsinin müvafiq institutları tərəfindən hazırlanmış layihə əsasında Kəlbəcər rayonunun Sarıyeri adlanan ərazisində çəmən-bataqlıq bitkiləri üçün 30 min hektar sahə ayrılmışdı ki, burada nadir və nəsli kəsilməkdə olan alp, su-bataqlıq bitkilərinin çoxaldılması istiqamətində böyük işlər aparılırdı.

Kiçik Qafqazın böyük ərazisinin Ermənistan tərəfindən işğalı, burada aparılan hərbi əməliyyatlar və işğalçıların qadağan edilmiş silahlardan istifadəsi nəticəsində bir sıra beynəlxalq konvensiyalara (Orxuskaya - 1951, QAAQ - 1965, Ramsar - 1971, Pan-Avropa (Bolqarıstan) - 1995, BMT-də Biomüxtəlifliyə dair Beynəlxalq Konvensiya - 1992, Bern - 1999 və s.), BMT-nin Davamlı İnkişaf Məqsədlərinə, digər beynəlxalq sənədlər və qanunvericilik aktlarına zidd olaraq bu unikal bölgənin biomüxtəlifliyinə, tarixən formalaşmış fauna və florasına ciddi ziyan vurulmuşdur. 26 min hektar meşə ərazisində qiymətli fıstıq, cökə, vələs, palıd ağacları (xüsusən nadir ayıfındığı və qırmızı palıd ağacları mebel, sonuncu həmçinin spirt istehsalı, çinar və s. tikinti materialı, yüngül, daşınması asan və daha çox istilik verən tozağacı meşələri yanacaq məqsədilə) talan edilərək Ermənistana daşınmış, təbii bitkiliklər (burada Şuşa şəhərinin ətraf ərazilərində meşələrin söndürülməsi mümkün olmayan və qadağan olunmuş ağ fosfor maddəsindən istifadə olunmaqla qəsdən yandırılması da xüsusi qeyd edilməlidir) dəfələrlə yandırılmışdır. Tozağacı meşələrinin qırılması nəticəsində buranın sakinləri olan endemik növlər - Qafqaz tetrası və Xəzər uları yaşayış yerlərindən məhrum olmuşlar.

Torpaqlar, su mənbələri, o cümlədən kəhrizlər və suvarma sistemləri düşmən tərəfindən dağıdılmış, bilərəkdən kimyəvi maddələrlə çirkləndirilmişdir. Zəbt olunan sahələrdə yanğınlar torpağın üst münbit qatının sıradan çıxmasından əlavə, burada məskunlaşan heyvanların yanmasına, quş yumurtalarının, balalarının tələfatına, növlərin və ya onların fərd sayının kəskin azalmasına gətirib çıxarmışdır. Yarasaların və digər canlıların toplandığı mağaralar silah anbarlarına çevrilmişdir. Bütün işğal altında olan ərazilər üzrə minalanmış sahələrdə iri heyvanlar minaya düşərək şikəst olmuş və ya ölmüşdür. İşğal həmçinin Avropadan Afrika və Asiyaya, əks istiqamətdə quşların vacib trans-Qafqaz miqrasiya yollarına da mənfi təsir etmişdir. İşğal dövründə meşələrin qırılması və daşınması, eləcə də hərbi məqsədlərlə ağır texnikadan istifadə olunması çəmənlik və otlaqlara ziyan vurmuş, torpaq eroziyasını gücləndirmişdir. Cəbhə xəttindən kənarda yerləşən rayonların mütəmadi artilleriya atəşinə tutulması nəticəsində, hətta Ağgöl və Göygöl milli parkları kimi qorunan ərazilərə və oranın canlı aləminə ciddi ziyan dəymişdir.

Erməni təcavüzünə məruz qalmış qoruqlar (Qaragöl və Bəsitçay qoruqları) talan edilmiş, dövlət yasaqlıqları (Qubadlı, Arazboyu, Daşaltı və Laçın) antropogen amillərin mənfi təsirinə məruz qalmışdır. Onu da qeyd edək ki, Şuşa və Xocalı ərazisində vaxtilə mövcud olmuş Daşaltı Dövlət Təbiət Yasaqlığı və Zəngilan rayonunun İranla sərhədində Arazboyu Dövlət Təbiət Yasaqlığının son durumu barədə məlumatlar çox azdır. Hesab edirik ki, bu qoruq və yasaqlıqlar da yeni elmi-tədqiqat obyektlərinə çevrilməlidir.

Araz və Kür çaylarının qolları olan Oxçuçay və Ağstafaçayın Ermənistan tərəfindən ən ağır formada çirkləndirilməsi nəticəsində sözügedən çaylarda da canlı aləmin həyatı üçün böyük təhlükə yaranmışdır.

İşğalçı Ermənistanın yuxarıda qeyd edilən əməllərinə ekoloji terrordan başqa bir ad vermək mümkün deyildir. Bir məsələyə də diqqət çəkmək istərdık ki, hazırda Azərbaycan Milli Elmlər Akademiyasının və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin alim və mütəxəssisləri tərəfindən Azərbaycan Respublikasının "Qırmızı Kitabı"nın 3-cü nəşri ilə bağlı işlər həyata keçirilir. İnanırıq ki, işğaldan azad edilmiş ərazilərimizdə aparılacaq tədqiqatlar nəticəsində nadir və arealı daralan növlər barədə "Qırmızı kitab"a yeni məlumatlar daxil etmək və onların qorunması qayğısına qalmaq mümkün olacaqdır.

Artıq 30 ilə yaxındır ki, alimlərimiz Qarabağ bölgəsinin təbii bioloji müxtəlifliyi ilə yanaşı, torpaq və su ehtiyatlarının, aqrobiomüxtəlifliyinin tədqiqi ilə də məşğul olmaq imkanından məhrumdurlar. İşğal nəticəsində ümumən kənd təsərrüfatı sisteminə və regionda aparılan aqrar tədqiqatlara ciddi ziyan dəymiş, mövcud imkan və resurslardan xalqımızın rifahı və bölgənin inkişafı naminə istifadə etmək mümkün olmamışdır.

İşğaldan əvvəl Dağlıq Qarabağı əhatə edən 7 rayon üzrə torpaqların ümumi sahəsi 791432 ha, o cümlədən kənd təsərrüfatına yararlı sahə 344357 ha olmuşdur. Bundan 88060 ha birillik və ikiillik, 30757 ha çoxillik (bağlar) əkinlər üçün, 13577 ha biçənək kimi istifadə olunmuşdur. Həyətyanı sahələr 3154 ha-dan çox sahə (Ağdam və Füzuli rayonlarını istisna etməklə) tutmuşdur. Bildiyimiz kimi, Kiçik Qafqazın dağ landşaftlarının bir hissəsi, xüsusən Qarabağ vulkanik yaylası da daxil olmaqla, subalp və alp çəmənlikləri tarixən heyvandarlıqda (əsasən, qoyunçuluqda) yay otlaqları kimi istifadə olunurdu. Burada yay otlaqlarının təqribi sahəsi 145591 ha olmuşdur. Həmin rayonlar üzrə meşə sahələri 97936 ha, digər ərazilər 294716 ha təşkil etmişdir. Göründüyü kimi, uzun illər işğal altında olmuş rayonlarımız torpaq ehtiyatlarının zənginliyi və müxtəlifliyi ilə seçilmişdir.

Qarabağ tam azad edildikdən və dinc quruculuq işlərinə başlanıldıqdan sonra, ilk növbədə, qeyd edilən torpaqların yeni uçotu aparılmalıdır, yəni əkin, örüş, biçənək və otlaq sahələrinin konturları müəyyənləşdirilməlidir. Daha sonra kənd təsərrüfatının bərpasını, torpaqların təmizlənməsini, yaxşılaşdırılmasını, meliorasiya və irriqasiya sistemlərinin quraşdırılmasını nəzərdə tutan elmi əsaslı tədbirlər planı işlənib hazırlanmalıdır.

Qeyd etmək lazımdır ki, Qarabağ su ehtiyatlarının (xüsusən yeraltı suların) da böyük potensialı ilə fərqlənmişdir. Məsələn, Azərbaycanda rəsmi dövlət qeydiyyatında olan 623 kəhrizdən 332-si işğal altında qalmışdır. Bu kəhrizlərin əksəriyyəti dağıdılmış, su quyuları qəsdən çirkləndirilmiş və ya torpaqla doldurulmuşdur. Regionda böyük potensiala malik olan yeraltı sular elmi cəhətdən düzgün istifadə edilərsə, yüksək səmərə verə bilər. Hesablamalara görə, işğaldan azad olmuş ərazilərdə kəhrizlər vasitəsilə 58-60 mln. m3 su əldə etmək mümkündür. Tək Cəbrayıl rayonu ərazisində olan 111 kəhrizin il ərzində verdiyi suyun həcmi 34,7 mln.$m^3$-ə bərabərdir.

Regionda kənd təsərrüfatı bitkilərinin və onların yabanı əcdadlarının öyrənilməsi üzrə son ekspedisiya tədqiqatları ötən əsrin 80-ci illərinə təsadüf etmişdir. Həmin dövrdə toplanmış bir sıra qiymətli nümunələr isə o zaman respublikanın elmi müəssisələrində lazımi mühafizə şəraiti olmadığından ya Ümumittifaq Bitkiçilik İnstitutuna (hazırda Ümumrusiya Bitki Genetik Ehtiyatları İnstitutu - VİR) təhvil verilmiş, ya da itib batmışdır. Yüzilliklər ərzində xalq tərəfindən yaradılmış ənənəvi bitki sortlarının əksəriyyəti işğal nəticəsində məhv olmuş, bir qismi isə ermənilər tərəfindən özününküləşdirilmişdir. Eyni sözləri yerli qoyun, keçi və ev quşları cinsləri haqqında da demək olar. Bu mənada zona üzrə genetik ehtiyatların bərpası, toplanaraq mühafizəsinin təşkili də mühüm önəm daşıyır.

1950-1989-cu illərdə Ağdərə bölgəsində AMEA Genetik Ehtiyatlar İnstitutunun 1694 hektar torpaq sahəsi olan Qarabağ Elmi Tədqiqat Bazası mövcud olmuşdur. Burada mədəni bitkilərin və kənd təsərrüfatı heyvanlarının region üçün səciyyəvi genetik ehtiyatlarının, yerli ənənəvi xalq seleksiyası nümunələrinin toplanması, öyrənilməsi, seleksiyada istifadəsi, yeni bitki sortları və heyvan cinslərinin ilkin toxumçuluğunun və damazlıq işinin təşkili və yayılması həyata keçirilirdi.

Bu baza 1989-cu ilin iyulunda erməni təcavüzkarları tərəfindən zəbt edilmiş, orada olan torpaq sahələri, yaşayış, inzibati - təsərrüfat binaları, toxumtəmizləmə zavodu, anbarlar, ferma, artezian quyuları, transformator stansiyaları, çoxlu miqdarda kənd təsərrüfatı texnikası, cins mal-qara sürüləri (200 baş iribuynuzlu cins heyvan, camış hibridləri, 500 baş cins qoyun), meyvə, üzüm, subtropik bitkilərin genofond bağları (500 meyvə sortu), dənli bitkilərin dünya və yerli kolleksiya nümunələri, 200 mindən çox qiymətli seleksiya materialları və s. zəbt edilərək mənimsənilmişdir.

Əminliklə demək olar ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bütün ərazilərimizin, torpaq və su ehtiyatlarımızın, qoruq və yasaqlıqlarımızın, Sarıyeri kimi tədqiqat sahələrinin, eləcə də Qarabağ Elmi Tədqiqat Bazasının tam şəkildə işğaldan azad edilməsi ilə bölgədə böyük bərpa işləri ilə yanaşı, geniş həcmdə elmi tədqiqatların aparılması mümkün olacaqdır.

Bu gün Ermənistanla aparılan müharibə ilə yanaşı, dövlətin təhlükəsizliyini və əhalinin sağlamlığını təhdid edən çoxsaylı amillər mövcuddur. AMEA Biologiya və Tibb Elmləri Bölməsinin alim kollektivinin ciddi fəaliyyəti və əldə etdikləri nailiyyətlər ölkəmizin bioloji müxtəlifliyinin qorunmasında, ərzaq təhlükəsizliyinin təmin olunmasında, əhalinin sağlamlığı uğrunda aparılan mücadilədə mühüm rol oynayır. Mən xüsusilə qlobal bir problemə çevrilməkdə olan biotəhlükəsizlik məsələlərinə diqqəti çəkmək istərdim. Yaxın illərdə müxtəlif bioloji və kimyəvi silahlardan terror və təhdid vasitəsi kimi istifadə təhlükəsi ilə üz-üzə qala bilərik. Su resurslarının əksər hissəsinin transsərhəd çaylar vasitəsilə, xüsusən də Ermənistan ərazilərindən daxil olduğu bu problem Azərbaycanda xüsusilə aktuallıq kəsb edir. Azad edilən ərazilərdən geri çəkilən düşmən qüvvələrinin torpaq və sularımızda hansı izlər buraxacağı da təhlükə mənbəyidir və ciddi tədqiqat mövzusu olmalıdır.

Bütün qeyd edilənləri nəzərə almaqla işğaldan azad edilmiş ərazilərdə planlaşdırılan elmi fəaliyyətlərin əsas istiqamətlərini aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

- Regionun bioloji müxtəlifliyinin işğaldan əvvəlki vəziyyətlə müqayisəli kompleks tədqiqi, Azərbaycan Respublikasının "Qırmızı Kitabı"nın hazırlanması ilə bağlı prosesə Qarabağ regionunun cəlb edilməsi, introduksiya və reintroduksiya tədqiqatlarının aparılması;
- Regionda kənd təsərrüfatının bərpasının elmi əsaslarının işlənməsi, torpaqların mövcud vəziyyətinin və çirklənmə səviyyəsinin müəyyənləşdirilməsi, bərpa edilərək əkin dövriyyəsinə qaytarılması və yaxşılaşdırılmasına dair təkliflərin verilməsi;
- Regionun kənd təsərrüfatı sistemində hansı bitkilərin və onların sortlarının əkilməsinin məqsədəmüvafiqliyi ilə bağlı tədqiqatların aparılması, seçilmiş sortların toxumçuluq və tingçiliyinin təşkilinə elmi dəstək göstərilməsi, toxum və ting materiallarının biotexnoloji metodlarla çoxaldılması;
- Regionun yeraltı su ehtiyatlarının, çay, bulaq, quyu, su tutumları şəbəkəsinin, vaxtilə mövcud olmuş kəhriz sisteminin tədqiqi, bərpası və səmərəli istifadəsinin elmi əsasları;
- Bütün regionun torpaq və su (həm yerüstü, həm də yeraltı) ehtiyatlarının mikrobioloji, toksikoloji və biokimyəvi tədqiqi;
- Qarabağ Elmi Tədqiqat Bazasının və burada tədqiqat fəaliyyətlərinin bərpası, regionun genetik ehtiyatlarının burada toplanması, öyrənilməsi və mühafizəsi ilə bağlı fəaliyyətlərin həyata keçirilməsi.

Eyni zamanda oxucuların bir neçə vacib məsələyə diqqətini çəkmək istərdik. Regionun işğaldan əvvəlki, mövcud və bərpadan sonrakı vəziyyətini, burada aparılan elmi tədqiqatların nəticələrini əks etdirən fotoalbomların, müxtəlif dillərdə bukletlərin, videoçarxların hazırlanaraq yayılması vacib hesab edirik. Düşünürük ki, dağıdılmış, talan edilmiş landşaft elementləri, tarixi, mədəni, mənəvi əhəmiyyət daşıyan tikililər konservləşdirilərək açıq səma altında muzeylər yaradılmalıdır. Ermənilər tərəfindən talan edilmiş, dağıdılmış, saxtalaşdırılmış tarixi-mədəni abidələr, muzeylər, onların eksponat və artefaktları araşdırılmalı, müvafiq məlumatlar toplanıb sistemləşdirilərək nümayiş etdirilməlidir. Tarixi abidələrdə yerləşən və gələcək arxeoloji qazıntılardan əldə olunan bütün materiallar, xüsusən arxeobioloji qalıqlar müvafiq şəkildə analiz olunmalıdır.

İşğal nəticəsində Azərbaycanın biomüxtəlifliyinə, landşaft örtüyünə, tarixi-mədəni və təbii abidələrinə, yeraltı və yerüstü sərvətlərinə vurulmuş ziyanlara, eyni zamanda regionun bərpasında elmin iştirakına həsr edilmiş silsilə beynəlxalq konfrans və "dəyirmi masa"ların təşkil edilməsi Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması baxımından mühüm rol oynaya bilər.

Bu gün İlham Əliyevin yenilməz sərkərdə və müdrik Prezident kimi rəhbərliyi ilə Azərbaycanın ən yeni şanlı tarixi yazılır. Onun 17 il ərzində apardığı uzaqgörən daxili və xarici siyasət, peşəkar diplomatiya və müdrik rəhbərliyi sayəsində haqq müharibəmiz böyük bir Qələbə ilə başa vurulacaq, dövlətimizin ərazi bütövlüyü bərpa ediləcək, işğaldan azad olunacaq torpaqlarımızın hər bir guşəsində üçrəngli Azərbaycan bayrağı fəxarətlə dalğalanacaq.

Artıq Azərbaycan Böyük Qayıdış və Böyük Dirçəliş ərəfəsindədir. Bu dirçəliş və inkişaf planlarının gerçəkləşdirilməsi istiqamətində Azərbaycan elminin, Milli Elmlər Akademiyasının, alimlərin üzərinə də böyük vəzifələr düşür. Elmi cəmiyyət bu vəzifələrin öhdəsindən gəlməyə səfərbər edilmişdir. Azərbaycan alimləri uzun illər dövlətimizin nəzarətindən kənarda qalmış Qarabağımızın təbiətinin, landşaft örtüyünün, flora və fauna aləminin, yeraltı və yerüstü sərvətlərimizin tədqiqi, mühafizəsi, viran edilmiş torpaqlarımızın bərpası, yaxşılaşdırılması və səmərəli istifadəsi üçün əllərindən gələn hər şeyi etməyə hazırdırlar!

Qarabağ Azərbaycandır!

***İradə HÜSEYNOVA,***
***AMEA-nın vitse-prezidenti, akademik***

# Koronavirus bütün ölkələrdə tüğyan edir




*Əvvəli 1-ci səh.*

Dünyanın əksər ölkələrində koronavirusa yoluxma həddində yüksəliş olsa da, yenə də Avrova siyahıda ön sıranı tutub. İtaliyada son bir gün ərzində 600-dən çox insan bu virusun qurbanı olub, 37,978 yeni yoluxma qeydə alınıb. Ümumi yoluxma 1,66,401 nəfərə çatıb.

İspanyada da vəziyyət kritik olaraq qalır. Belə ki, bu ölkədə 365 nəfərin ölməsi ilə ümumi ölüm sayı 19,511-ə çatıb.

Vəziyyətin ürəkaçan olmadığı ölkələrdən biri də Böyük Britaniyadır. Bu ölkədə son sutka ərzində koronavirusa yoluxanların sayı rekord həddədir - 33 470 nəfər artıb. Gün ərzində ölkədə 563 nəfər COVID-19-un qurbanı olub. Məlumata əsasən, pandemiyanın başladığı vaxtdan Böyük Britaniyada 1 290 195 nəfər koronavirusa yoluxub, 50928 xəstə dünyasını dəyişib. Vəziyyət nəzərə alınaraq Böyük Britaniyada noyabrın 5-dən gücləndirilmiş karantin rejimi həyata keçirilir. Digər ölkələrdə də bu cür tədbirlər görülüb. Almaniyada noyabrın 2-dən ayın sonunadək "məhdud karantin", Fransada oktyabrın 30-dan dekabrın 1-dək özünütəcrid rejimləri tətbiq olunub. İtaliyada isə noyabrın 4-dən etibarən ölkə ərazisində koronavirusa yoluxma hallarının yenidən artması ilə əlaqədar komendant saatı tətbiq edilib. Ukraynada da eyni səbəbdən karantin müddəti dekabrın 31-dək uzadılıb və qaydalar sərtləşdirilib.

Qonşu ölkə olan Gürcüstanda da koronavirusa yoluxmada yüksəliş qeydə alınmaqdadır. Belə ki, sutka ərzində koronavirusa gündəlik yoluxma sayında rekord yaşanıb. Bir gündə 3 120 nəfərdə COVID-19 aşkarlanaraq ölkədə koronavirusa yoluxma halı 69 681-ə çatıb. Burada xəstəlikdən 599 nəfər vəfat edib.

Təəssüf ki, dünyada olduğu kimi, ölkəmizdə də son dövrlər koronavirusa yoluxma sayı artıb. Nazirlər Kabineti yanında Operativ Qərargahın yaydığı məlumata görə, koronavirus infeksiyasına 1622 yeni yoluxma faktı qeydə alınıb, 979 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. 20 nəfər COVID-19-dan vəfat edib.

Sanitar-epidemioloji vəziyyətin təhlilinə əsasən, Nazirlər Kabineti ölkə ərazisində xüsusi karantin rejiminin müddətini dekabrın 1-dək uzadıb. Xatırladaq ki, oktyabrın 29-da imzalanan qərara uyğun olaraq, bütün təhsil pillələri üzrə tədris distant formada keçilir. Bu qərar dekabrın 1-dək qüvvədədir. Amma o da istisna edilmir ki, epidemioloji vəziyyət bu cür olacağı təqdirdə göstərilən müddət uzadıla bilər.

Dövlət qurumlarında çalışan işçilərin say həddi 30 faizədək azaldılaraq digər əməkdaşlar məsafədən iş rejiminə keçirilib. Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti də dayandırılıb.

Son günlərdə COVID-19-a yoluxanların sayında artımın olması nəzərə alınaraq, noyabrın 14 və 15-də kommunal xidmətlərin əməkdaşları və xüsusi texnikası tərəfindən Bakı şəhəri üzrə əsas küçə, prospekt və yollarda xüsusi kimyəvi maddələrlə növbəti dəfə əlavə gücləndirilmiş dezinfeksiya işləri aparılacaq. Sakinlərdən xahiş olunub ki, maddələrin qəbul olunmuş müəyyən toksikliyini nəzərə alaraq ciddi zərurət yaranmadığı təqdirdə qeyd olunan tarixlərdə küçəyə çıxmasınlar.

Dövlətimiz pandemiyanın qarşısının alınması istiqamətində lazımi addımlar atır, vətəndaşlarının təhlükəsizliyi, sağlamlığı üçün zəruri tədbirlər həyata keçirir. Ancaq görünən odur ki, COVID-19 adlı bəlanı dəf etməkdə vətəndaş məsuliyyəti də olduqca zəruridir. Əgər insanlar çox sadə olduğu qədər də əhəmiyyətli qaydalara laqeyd yanaşmazlarsa - gigiyenik qaydalara əməl etməzlərsə, sosial məsafə saxlamazlarsa, maska taxmazlarsa koronovirus zəncirini qırmaq mümkün olmayacaq.

Nəzərə almaq lazımdır ki, havalar getdikcə soyuyur. Bütün dünya mütəxəssisləri isə yoluxmanın yüksəlməsinə payız-qış mövsümünün şərait yaratdığını diqqətə çatdırırlar. Proqnozlar da göstərir ki, havalar soyuyandan daha çox artım müşahidə edilir. Mürəxəssislər xəbərdalıq edirlər ki, kəskin respirator virus infeksiyaları soyuq havalarda artıma meyillidirlər. Buna görə də daha diqqətli olmaq tövsiyə edilir. Digər tərəfdən payız və qış fəsillərində mövsümi qrip və digər tənəffüs yolları infeksiyalarının sayının artması müşahidə olunur. Odur ki, bir çox ölkələrdə virusun yayılmasının qarşısını almaq üçün ciddi tədbirlər həyata keçirilir, tətbiq olunmuş karantin rejimi sərtləşdirilir. Eyni zamanda mütəxəssislər bildirirlər ki, qripə qarşı peyvənd olunmaq da insanları COVID-19 bəlasına qarşı effektiv qoruya bilər. Ümumdünya Səhiyyə Təşkilatının ekspertləri pandemiya ilə əlaqədar olaraq qripə qarşı peyvənd olunmağı tövsiyə edirlər. Xüsusilə də uşaqların, qocaların, xroniki xəstəlikləri olanların və hamilə qadınların qripə qarşı peyvənd edilmələri vacib sayılır.

Hər kəs özünü qorumalı, maskadan istifadə etməli, əl gigiyenasına diqqət yetirməlidir. Qapalı məkanlarda bir yerə toplaşmaqdan çəkinmək, məsafə saxlamaq vacibdir. Koronavirus adlı gizli düşməni bu yolla nəinki özümüzdən, ailəmizdən, bütövlükdə cəmiyyətimizdən uzaqlaşdıra bilərik.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***



# Fransa Milli Assambleyasının nümayəndə heyəti Gəncədə erməni faşizminin izləri ilə tanış olub




**Ölkəmizdə səfərdə olan Fransa Milli Assambleyasının nümayəndə heyəti noyabrın 13-də Gəncəyə gəlib.**

AZƏRTAC xəbər verir ki, nümayəndə heyəti cəbhə zonasından kənarda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri Gəncənin mərkəzi hissəsində Ermənistan silahlı qüvvələrinin raket hücumlarının səbəb olduğu cinayətin izləri ilə tanış olub.

Fransa nümayəndə heyətini Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədov, Milli Məclisin digər üzvləri və rəsmi şəxslər müşayiət ediblər.

Məlumat verilib ki, işğalçı Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla, yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutub.

Döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğrayan Ermənistan silahlı qüvvələri ətrafdakı şəhər və kəndləri, eləcə də cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini və mülki obyektləri hədəfə alıb. Oktyabrın 11-də və 17-də Ermənistan ərazisindən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə məqsədli şəkildə ballistik raketlərlə atəşə tutulub. Gecə saatlarında yatmış şəhərə edilmiş raket hücumları nəticəsində 1 körpə, 5 uşaq, 10 qadın da olmaqla 30-a yaxın dinc sakin həlak olub, 90-dan çox insan yaralanıb. Nümayəndə heyəti erməni terroru zamanı həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq dağılmış evlərin ətrafına gül düzüb.

Qeyd edək ki, nümayəndə heyətinin tərkibinə Fransa Parlamentinin Azərbaycanla dostluq qrupunun vitse-prezidenti Jerom Lamber, Fransa Milli Assambleyasında Azərbaycanla dostluq qrupunun vitse-prezidenti Mişel Viale və Fransa Milli Assambleyasında Azərbaycanla dostluq qrupunun katibi Jan-Lük Reitzer daxildir.

# İşğaldan azad olunmuş ərazilərdə tarix və mədəniyyət obyektləri üzrə monitorinqlərin ilkin nəticələri açıqlanıb

"Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində, Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə müvafiq olaraq, hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqlar və komendantlıqların nəzdində aidiyyəti dövlət orqanlarının (qurumlarının), o cümlədən Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nümayəndələrinin daxil olduğu əməliyyat qərargahları yaradılıb. Fərmanın 7.8-ci bəndində müvəqqəti komendantlıqlara tarix və mədəniyyət obyektlərinin (abidələr və müəssisələr) ilkin inventarlaşdırılması və mühafizəsi ilə bağlı vəzifələrin yerinə yetirilməsi tapşırılıb.

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, müvafiq vəzifələrin icrası məqsədilə müvəqqəti komendantlıqların nəzdindəki əməliyyat qərargahlarında təmsil olunan nazirliyin abidələr və mədəniyyət müəssisələri üzrə ixtisaslı nümayəndələri tərəfindən işğaldan azad edilmiş rayonların ərazilərində monitorinqlərə başlanılıb. Aparılan ilkin monitorinqlər zamanı 56 mədəniyyət müəssisəsi, o cümlədən 25 kitabxana, 19 mədəniyyət evi və klub müəssisəsi, 7 muzey, 5 uşaq musiqi məktəbi aşkar edilib. Bütün müəssisələr, demək olar ki, tamamilə dağıdılmış vəziyyətdədir.

İlkin monitorinqlər zamanı 49 tarix-mədəniyyət abidəsinə, tarixi, memarlıq və arxeoloji əlamət daşıyan obyektə, o cümlədən Xocavənd rayonunun Hadrut qəsəbəsində Alban məbədinə (1170-ci il), Zəngilan rayonunun Əmirxanlı kəndində Qız qalasına (XII əsr), Məmmədbəyli kəndində Səkkizguşəli türbəyə (1304-1305-ci illər), Füzuli rayonunun Qarğabazar kəndində karvansaraya (XVII əsr) baxış keçirilib.

28 abidənin işğalçılar tərəfindən tamamilə dağıdıldığı və yalnız qalıqlarının olduğu aşkar edilib. İşğaldan azad edilmiş ərazilərdə monitorinqlərin aparılması davam etdirilir.

# Paşinyan repressiyalara, müxalifət isə inqilaba başladı

*Əvvəli 1-ci səh.*

Müxalifət partiyalarının hökumətin fəaliyyəti ilə bağlı tənqidləri cəmiyyətə "milli xəyanət" kimi təqdim olunur. Kütləvi həbslərə baxmayaraq, geniş əhali kütləsi tərəfindən başlanan etiraz aksiyaları fonunda getdikcə dramatikləşən hadisələr hakimiyyətin mövqeyini əhəmiyyətli dərəcədə zəiflətməkdədir. Paytaxtın mərkəzi küçələrində təşkil olunan etirazlarda tələbələrlə yanaşı, yuxarı siniflərin şagirdləri də iştirak edirlər. Erməni analitiklərin fikirlərinə görə, alovlanan iğtişaşlar ölkəni qanlı qarşıdurmaya apara bilər.

Qərb dairələrinin 2018-ci ilin mayında Ermənistanda baş vermiş dövlət çevrilişini "demokratik inqilab", hakimiyyəti ələ keçirmiş Nikol Paşinyanı "demokratik lider" kimi təqdim etmələrinə baxmayaraq, Ermənistanda bu müddətdə demokratiyanın işartıları belə olmayıb, ölkə kriminal şəxslərin neofaşizm yuvasına çevrilib.

Əgər bu gün Ermənistanda baş verənlər Azərbaycanda olsaydı, indi Qərb ölkələrində bu barədə bəyanat verməyən heç bir insan hüquq təşkilatı qalmayacaqdı. Ermənistanda isə hamının gözü qarşısında müxalifətin əzilməsi və sıradan çıxarılması susqunluqla qarşılanır. Bu, haqlı olaraq sual yaradır: niyə? Bu ikili standartlar nəyə görədir və bu ədalətsizlik, selektiv münasibət nə vaxtadək davam edəcək?!

Ermənistan bir sıra qeyri-sivil və dözülməz problemləri ilə bərabər, siyasi məhbus probleminə və siyasi məhbuslarının sayına görə də "lider" ölkələrdəndir. Bu ölkədə ən adi insan haqları belə, tapdalanır, alternativ fikir söyləyən və mövqe sərgiləyənlər amansız təqiblərə və həbslərə məruz qalırlar. Bunu müxalif erməni qəzetlərinin səhifələrindən oxumaq, yaxud internetdən izləmək və xəbərdar olmaq mümkündür.

Yerevanda son günlərdə keçirilən etiraz aksiyalarından Qərb qurumları, səfirlikləri, diplomatları yəqin ki, xəbərsiz deyil. Belə olduğu halda, "Human Rights Watch", "Transparency İnternational", "Freedom House" kimi qurumlar niyə Ermənistanda baş verən son hadisələrə görə susurlar? Niyə səslərini çıxarmırlar, Ermənistanı tənqid etmirlər? Niyə hesabatlarına bu barədə məruzələr daxil etmirlər və yenə də ikili standartlardan çıxış edirlər?

Xatırladaq ki, Paşinyanın hakimiyyətinin hələ 7-ci ayında "demokratik ölkə"də siyasi məhbus Mger Yegiazaryan aclıq aksiyası keçirərək həbsxanada vəfat etdi. Onda da Qərb təşkilatları Paşinyan iqtidarının bu cinayətinə göz yumdular. Hakimiyyətdə olduğu 2 il ərzində "korrupsiyaya qarşı mübarizə" adı altında siyasi rəqibləri ilə haqq-hesab çürütməyə başlayan, keçmiş prezidentlərdən birini həbs edən, digərinə qarşı cinayət işi qaldıran, aparıcı müxalifət partiyasının sədrini həbsdə saxlayan Paşinyanın bu davranışı yenə Qərb dairələrini narahat etmir.

Bəzi beynəlxalq təşkulatlar Azərbaycanda problem görməyəndə, ən kiçik qara nöqtələri belə axtarmağa və şişirtməyə çalışırlar, amma insan haqlarının boğulduğu, gündən-günə kütləviləşən həbslər fonunda Ermənistanla bağlı lazımi tənqidi fikir səsləndirmirlər. Bu isə bir daha onu göstərir ki, həmin ikili standartlar nümayiş etdirən təşkilatlar, sadəcə, müəyyən xarici güclərin sifarişləri əsasında fəaliyyət göstərirlər.

Bütün bunlar Ermənistanda daha böyük cinayətlərə rəvac verib. Paşinyan öz cinayətlərinin sırasına hərbi cinayətləri də əlavə edib - Azərbaycana qarşı müharibəyə başlayıb. Müharibə zamanı rusiyalı jurnalist Oleq Kaşin Qarabağda və Ermənistanda baş verən hadisələr haqqında həqiqəti yazdığı üçün onun akkreditasiyası ləğv olunub və ölkədən çıxarılıb. Amma buna baxmayaraq, beynəlxalq jurnalist təşkilatları yenə də susurlar.

Ermənistanda dövlət orqanlarının və vəzifəli şəxslərin hərəkətlərini (çıxışları, nəşrləri də daxil olmaqla) tənqid və təkzib edən, şübhə altına alan və ya başqa bir şəkildə dəyərdən salan məlumatların dərc edilməsi və yayımlanması qadağan edilib. Ölkədə hakimiyyəti, hətta bələdiyyələri belə tənqidə görə 1200 avro cərimə tətbiq edilir. Buna görə sosial şəbəkə istifadəçiləri və jurnalistlər açıq şəkildə hakimiyyətin özbaşınalığını və cinayətlərini tənqid edə bilmirlər. Ermənistanda vətəndaşların dinc etiraz aksiyalarını qeyri-mümkün edən yüksək cərimələr tətbiq olunur.

Bu gün regionda yaşanmış müharibə və dağıntılara görə yalnız Paşinyan yox, onu hakimiyyətə gətirən, bütün cinayətlərinə göz yuman Qərb dairələri və təşkilatları da məsuliyyət daşıyırlar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

EKOL MÜHƏNDİSLİK XİDMƏTLƏRİ QSC

"EKOL Mühəndislik Xidmətləri" QSC-nin
rəhbərliyi və kollektivi
Ali Baş Komandan cənab İlham Əliyevi,
Müzəffər Ordumuzu və Azərbaycan xalqını
Vətən müharibəsində qazanılan
Böyük Qələbə münasibətilə təbrik edir!



QARABAĞ AZƏRBAYCANDIR!

# Ermənistan tərəfindən muzdlu kimi döyüşən PKK-PYD-YPG terror təşkilatlarının üzvləri barəsində Baş Prokurorluq tərəfindən cinayət işi başlanıb

Ermənistan Respublikasının işğalçı mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən təxirəsalınmaz tədbirlərin görülməsi davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həyata keçirilən bu tədbirlərin davamı kimi, İraq Respublikasının müxtəlif ərazilərində yaşayan PKK-PYD-YPG terror təşkilatlarına aid şəxslərin, eləcə də Livan Respublikasının vətəndaşı Vartkes adlı şəxsin və digərlərinin Azərbaycan Respublikasına qarşı törətdikləri cinayət əməllərinə dair Azərbaycan Respublikası Baş Prokurorluğunda toplanmış material əsasında araşdırma aparılıb.

Araşdırmalarla Aslan Murad Vartanyan, Bese Hozat və qeyrilərinin çağırışı, Livan Karadağ, Hemaran Kervaçian, Sərvət Bagopşinin rəhbərliyi ilə Suriya, Livan, İraq Respublikasının müxtəlif ərazilərində yaşayan "PKK-PYD-YPG" terror təşkilatlarına aid bir qrup şəxslərin 2016-cı ilin mart-aprel və 2020-ci ilin sentyabr-noyabr aylarında, Livan Respublikasının vətəndaşı Vartkes adlı şəxs və digərlərinin isə 2020-ci ilin oktyabrında Ermənistan Respublikasında və Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində olan şəxslərlə cinayət əlaqəsinə girib cinayətkar birlik halında Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda, yəni Ermənistan ərazisindən qanunsuz keçərək Xankəndi şəhəri və işğal altında olmuş digər yaşayış məntəqələrinə gəlmələri, Azərbaycan Respublikasının dinc vətəndaşlarına və antiterror əməliyyatlarını həyata keçirən silahlı qüvvələrinə qarşı Ermənistanın siyasi-hərbi rejimi tərəfindən muzdlu kimi istifadə edilmələri müəyyənləşdirilib.

Bundan başqa, həmin cinayətkar birlik üzvlərinin döyüş sursatlarından, hərbi texnikadan istifadə edib atəşlər açaraq xüsusi amansızlıq və ümumi təhlükəli üsulla, milli düşmənçilik niyyəti ilə hərbi əməliyyatlarda iştirak etməyən dinc sakinlərinə qarşı çoxsaylı cinayət əməllərinə yol verməleri, ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətməklə Azərbaycan Respublikası vətəndaşlarına qarşı terrorçuluq fəaliyyətində iştirak etmələri aşkarlanıb.

Qeyd edilən faktlarla bağlı Azərbaycan Respublikasının Baş Prokuroru tərəfindən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 100.2-ci (təcavüzkar müharibəni aparma), 120.2.1-ci (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adam öldürmə), 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələri ilə cinayət işləri başlanılıb və istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə edilib.

Hazırda hər iki cinayət işi üzrə intensiv istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

# *BBC Kəlbəcərdən reportaj hazırlayıb:* ermənilər hətta pəncərə çərçivələrini, unitazları belə söküb özləri ilə aparırlar









Əldə edilən razılaşmaya uyğun olaraq ermənilər Kəlbəcər rayonunu tərk edirlər.

AZƏRTAC xəbər verir ki, razılaşmanın icra olunduğunu "BBC News" kanalının Kəlbəcərdən hazırladığı reportaj da təsdiq edir.

Reportajda ermənilərin Kəlbəcəri tərk etmələri əks olunub. Reportajdan da görünür ki, ermənilər aparılması mümkün olan hər şeyi özləri ilə götürürlər, hətta pəncərə çərçivələrini, unitazları belə aparırlar. Apara bilmədikləri hər şeyi isə yandırır, məhv edirlər. Onlar xüsusən də Kəlbəcərdə meşələri və evləri yandırmaqla daha çox ziyan vurmaq istəyirlər.

Bütün bu faktlar ermənilərin Azərbaycana aid ərazilərdə maddi-mədəni sərvətlərimizin dağıdılması və qarət olunmasını indi də davam etdirdiklərini bir daha sübut edir.

Xatırladaq ki, hələ oktyabrın 28-də Prezident İlham Əliyev "İnterfaks" agentliyinə müsahibəsində bu faktı bildirib. Dövlət başçısı müsahibəsində deyib: "Biz Füzuli şəhərini işğaldan azad edəndə orada bircə salamat bina tapa bilmədik. Təsəvvür edirsinizmi? Bütün şəhərdə, halbuki orada 10 minlərlə insan yaşayırdı. Bircə bina da qalmayıb. Mənə zəng vurdular, dedim ki, bayrağı dirək üzərində qaldırın. Görün, onlar nə ediblər. Ağdamın, Cəbrayıl rayonunun xarabalıqlarına baxın. Hər şey dağıdılıb. Elə bil buradan vəhşilər keçiblər. Elə bil bunlar insan deyilmiş. Onlar hər şeyi söküb-dağıdıblar. Evlərin damlarını, pəncərə çərçivələrini, hətta unitazları da. Bu, sadəcə, quldurluqdur".

Beləliklə, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev hərbi sahədəki möhtəşəm uğurlarımızı məharətlə siyasi-diplomatik müstəviyə keçirməyə nail oldu. BBC-nin reportajından da göründüyü kimi, torpaqlarımız müharibəsiz, qansız, şəhidsiz geri qaytarılır.

# "ASALA" terror təşkilatının cinayət əməlləri ilə bağlı müxtəlif dillərdə videoçarxlar hazırlanıb

Dövlət səviyyəsində terroru dəstəkləyərək terrorçuluğu təcavüzkar siyasətinin əsas vasitələrindən birinə çevirmiş Ermənistan Respublikasının işğalçı mahiyyətinin beynəlxalq müstəvidə ifşa edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən zəruri tədbirlərin görülməsi davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən Ermənistan dövləti səviyyəsində dəstəklənərək uzun illər dünyanın müxtəlif nöqtələrində qanlı aksiyalar törədən "ASALA" terror təşkilatının törətdiyi cinayət əməlləri ilə bağlı dünya ictimaiyyətinin məlumatlandırılması məqsədilə "ASALA terror təşkilatı barədə nə bilirsiniz?" başlıqlı fransız, ispan, alman, rus, ingilis və ərəb dillərində növbəti dəfə maarifləndirici videoçarxlar hazırlanıb.

Ermənistanın işğalçı və təcavüzkar mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi, işğalçı dövlətə qarşı beynəlxalq hüquqla nəzərdə tutulmuş sanksiyaların tətbiq olunması məqsədilə Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən bütün beynəlxalq qurumlara müraciət edilməsi təmin ediləcək.

https://www.youtube.com/watch?v=T2-3U91LkUI
https://www.youtube.com/watch?v=AD3KkpjIsgY
https://www.youtube.com/watch?v=vzbo_IitaU4
https://www.youtube.com/watch?v=aJgSxhPYrcM
https://www.youtube.com/watch?v=hnzKk3SXSRs
https://www.youtube.com/watch?v=AIovOftsZmE

# Azərbaycanın haqq savaşı xarici mətbuatda



ABŞ-da çıxan "The New York Times" qəzetində Azərbaycanın Ermənistan üzərində qələbəsinə və atəşkəsə həsr olunmuş məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Rusiyanın vasitəçiliyi ilə bağlanan sazişdə Azərbaycanın Ermənistan ilə onilliklər boyu danışıqlarda əldə etməyə çalışdığı xeyli güzəştlərə nail olduğu bildirilir.

Bazar ertəsi Ermənistanın baş naziri, döyüş meydanında faktiki məğlubiyyətini etiraf edən Nikol Paşinyan işğal edilmiş ərazilərin qaytarılmasını və digər tələbləri qəbul edərək Dağlıq Qarabağda müharibənin dayandırılması barədə saziş imzalayıb. Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və baş nazir Nikol Paşinyan tərəfindən imzalanan saziş Azərbaycanın Dağlıq Qarabağ regionundan erməni işğalçı qüvvələrinin çıxarılmasını nəzərdə tutur. Məqalədə deyilir ki, atəşkəs barədə Rusiya, Fransa və ABŞ ilə bundan əvvəl bağlanmış üç saziş uğurla nəticələnmədi. Budəfəki saziş isə Cənubi Qafqazda təhlükəsizlik xəritəsinin daha daimi və radikal şəkildə yenidən çəkilməsini nəzərdə tutur. Nizamlanma Azərbaycanın Vətən müharibəsində onu dəstəkləyən Türkiyənin regionda rolunu möhkəmlətdi.

Müəllif yazır ki, azərbaycanlılar üçün münaqişənin nizamlanması 1994-cü ildə başa çatan Birinci Qarabağ müharibəsi zamanı öz evlərini itirən yüz minlərlə məcburi köçkünün doğma ocaqlarına qayıtmasına şərait yaradır. Sazişin imzalanması elan olunduqdan bir neçə saat sonra Yerevanda Paşinyan rejiminə qarşı etiraz aksiyaları baş qaldırdı. Kütlə hökumətin binasına daxil olaraq, baş nazirin kabinetinin qapısı üzərində Paşinyanın adı yazılan lövhəciyi qoparıb atdı.

Məqalədə qeyd olunur ki, Ermənistan təqribən 30 il ərzində BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən və məcburi köçkünlərin doğma ev-eşiklərinə qayıtmalarını nəzərdə tutan qətnamələrinə məhəl qoymayıb.

Yazıda bəzi Qərb KİV-nin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı xəbərlər yayarkən açıq-aşkar tərəfkeş münasibət nümayiş etdirməsinin təəccüb hissi doğurduğu qeyd edilir.

Müəllif qeyd edir ki, bu il sentyabrın 30-da "BBC News"un yaydığı xəbərdə Türkiyənin nəzarəti altında olan Suriya ərazisindən bir neçə yüz muzdlunun Qarabağa gətirildiyi iddia edilir. "BBC News" bu məlumatı hərbçilərin birindən aldığını, ancaq məlumatların doğruluğunun təsdiq olunmadığını qeyd edir.

Həmçinin "France 24" kanalının "The Observers" proqramında internet istifadəçisi tərəfindən çəkilmiş Suriyalı silahlıların Azərbaycana getməyə hazırlaşdıqlarını göstərən bir neçə feyk videonun yayımlandığı qeyd olunur. Bu videoların həqiqiliyinin əsas "sübutu" kimi isə videodakı əsgərlərin ərəbcə Hələb və İdlib şəhərləri barədə danışmaları olduğu deyilir.

Məqalədə bu cür açıq-aşkar saxta məlumatların dünyanın belə aparıcı xarici KİV tərəfindən yayılmasının təəccüb doğurduğu bildirilir. İrəvanın bu günə qədər Qarabağda Azərbaycan tərəfdən hər hansı muzdlunun olması barədə heç bir dəlil təqdim edə bilmədiyi vurğulanır.

Müəllif yazır ki, bütün müharibələr kimi Qarabağ müharibəsi də böyük faciədir. Döyüşlər ərzində hər iki ölkənin mülki əhalisinə və infrastrukturuna ziyan dəyib. Ancaq Qərb mətbuatı öz diqqətini hadisələrin inkişafına yönəltməyib. Xüsusilə də döyüş bölgəsindən çox kənarda yerləşən Gəncə şəhərinin dinc sakinlərinin erməni silahlı qüvvələri tərəfindən atəşə tutulması dünya mediasının diqqətindən kənarda qaldı.

Yazıda vurğulanır ki, müasir dövrdə baş verən silahlı qarşıdurmalarda informasiya cəbhəsindəki qarşıdurma döyüş meydanında olduğu qədər əhəmiyyətli ola bilir. Düşmənin hər hansı sadə bir əməliyyatını belə "müharibə cinayəti" kimi qələmə verərək bütün dünyanı həmin düşmənə qarşı qoymaq olar. Qarabağ münaqişəsi zamanı baş verən hadisələrdən də göründüyü kimi, cəbhədəki real vəziyyət beynəlxalq mediada heç də hər zaman dəqiq əks olunmur. Bu müharibə ilə bağlı həqiqətlərin sonrakı nəsillərə olduğu kimi çatdırılması üçün mətbuatın davamlı olaraq gerçək həqiqətləri qərəzsiz şəkildə təqdim etməsi zəruridir.

❖ ❖ ❖




Rumıniyanın aparıcı KİV, o cümlədən AGERPRES milli xəbər agentliyi, "MediaFax" özəl informasiya agentliyi, "DİGİ24" televiziya kanalı və digər media qurumları Azərbaycan Ordusunun zəfəri barədə məqalələr dərc ediblər.

AZƏRTAC xəbər verir ki, yazılarda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində müharibənin dayandırılması ilə əlaqədar birgə bəyanatı qeyd olunur.

Bildirilir ki, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunub.

Vurğulanır ki, Ermənistan bu il noyabrın 15-dək Kəlbəcər rayonunu, noyabrın 20-dək Ağdam rayonunu, dekabrın 1-dək isə Laçın rayonunu Azərbaycana qaytaracaq.

Yazılarda qeyd olunur ki, Dağlıq Qarabağla Ermənistan arasında əlaqə yaratmaq üçün 5 kilometr enində dəhliz olacaq və dəhlizə Rusiya sülhməramlı kontingenti nəzarət edəcək.

Türkiyə-Rusiya birgə atəşkəsə nəzarət mərkəzinin fəaliyyəti ilə bağlı da məlumat verilib.

❖ ❖ ❖




Avropanın nüfuzlu "EU Reporter" analitik portalı "Qarabağ müharibəsi: Qərb mediasında feyk xəbərlər necə yayılır" adlı məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisi olan Dağlıq Qarabağda hərbi əməliyyatların yenidən alovlanması ilə əlaqədar mətbuatda bu münaqişəyə dair çoxsaylı saxta xəbərlərin yayıldığı bildirilir.



Azərbaycan Dağlıq Qarabağa nəzarət uğrunda döyüşlərdə bir sıra əsas uğurlar əldə etdikdən sonra sülh razılaşması imzalanıb.

AZƏRTAC xəbər verir ki, Çin Mərkəzi Televiziyasının ingilis dilində yayımlanan CGTN (China Global Television Network) kanalının internet səhifəsində yerləşdirilən məqalədə bu barədə qeyd olunur. Bildirilib ki, 6 həftə davam edən döyüşlərdən sonra Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri döyüşlərin dayandırılması haqqında sənəd imzalayıblar. Sənədə əsasən, ərazilər Azərbaycana təhvil veriləcək, məcburi köçkünlər öz yurdlarına qayıda biləcəklər.

Məqalədə qeyd olunur ki, döyüşlərin dayandırılması barədə sənədin imzalanması Azərbaycanda sevinclə qarşılansa da, Ermənistanda tam əksi yaşanıb, yüzlərlə etirazçı Ermənistan parlamentə soxulub, qanunverici orqanın sədrinə hücum ediblər. Qəzəbli etirazçılar bununla kifayətlənməyərək, baş nazir Nikol Paşinyanı axtarıblar, amma onu iş yerində tapmaq mümkün olmayıb. Baş nazir "Facebook" sosial şəbəkəsi üzərindən xalqa müraciət edərək, ordu rəhbərliyinin təklifi əsasında döyüşlərin dayandırılması haqqında sənədi imzaladığını açıqlayıb. Ermənistanın hökumət başçısı orduda həlli görünməyən problemlərin olduğunu, resursların tükəndiyini etiraf edib.

Yazıda Qarabağdakı müharibənin Ermənistanda yaratdığı siyasi gərginlikdən, sosial narazılıqdan ətraflı bəhs olunub.

CGTN-nin saytında Qarabağ müharibəsinə aid digər məqalədə isə Azərbaycan Ordusunun nailiyyətlərinin yekunu kimi sülh bəyanatının imzalandığı qeyd olunub. Bu nailiyyətlərə 1991-1994-cü illərdəki müharibədə itirilmiş onlarca yaşayış məntəqəsinin, o cümlədən bölgədə strateji mövqeyi olan Şuşa şəhərinin azad edilməsi daxildir. Həmin müharibədə təxminən 30 min nəfər ölmüş, xeyli sayda sakin öz evlərini tərk etməli olmuşdu.

❖ ❖ ❖

İsrailin "JerusalemOnline" portalında "Jurnalistlərə qarşı hücuma son qoyulmalıdır" sərlövhəli məqalə dərc olunub.




AZƏRTAC xəbər verir ki, məqalədə jurnalist Reyçl Abraham Dağlıq Qarabağ münaqişəsini işıqlandırdıqdan sonra erməni diasporu tərəfindən təhdid və təhqirlərlə dolu mesajlar aldığını bildirir. O, həmçinin erməni diasporu tərəfindən təhdidlər alan digər jurnalistlərdən və hüquq müdafiəçilərindən bəhs edir.

Məqalədə bildirilir ki, İtaliyanın "La Republica" qəzetinin jurnalisti Peitro Del Re də öz fəaliyyətinə görə ermənilər tərəfindən hücumlara məruz qalıb. Fransanın "TF1" kanalının və ABŞ-ın "Nyu York Times" qəzetinin jurnalistləri də erməni lobbisi tərəfindən hücum və təhdidlərlə üzləşib.

Yazıda həmçinin Kaliforniyadakı türk restoranına edilən erməni vandal hücumlarının qəbuledilməz olduğu vurğulanır.

Qeyd edilir ki, hətta ABŞ-dan olan insan hüquqları müdafiəçisi Sarah Elizabeth Dill də erməni aqressivliyinin hədəfindədir.

❖ ❖ ❖




İspaniyanın geniş oxucu kütləsinə malik "El Confidencial" elektron portalı Azərbaycanın Qarabağda çaldığı zəfər barədə məqalə yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin, Rusiya Prezidenti Vladimir Putinin və Ermənistanın baş naziri Nikol Paşinyanın noyabrın 10-da imzaladığı birgə bəyanatın müddəaları, habelə sözügedən bəyanatın iştirakçı ölkələrin xalqları tərəfindən necə qarşılanması əksini tapıb.

Yazıda Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlarında 40 gündən çox davam edən hərbi əməliyyatın Ordumuzun qələbəsi ilə yekunlaşdığı, məğlub olmuş Ermənistanın baş naziri Nikol Paşinyanın Yerevanda "satqın" kimi qarşılandığı qeyd edilir.

Azərbaycanın tarixi Şuşa şəhərinin işğaldan azad olunmasının Azərbaycan Silahlı Qüvvələrinin qələbəsinə əhəmiyyətli töhfə verdiyi vurğulanaraq, Ordumuzun işğal altındakı ərazilərimizi qısa müddət ərzində azad etdiyi diqqətə çatdırılır.

Noyabrın 10-da imzalanan birgə bəyanatın Azərbaycanın Qələbəsini bir daha təsdiq etdiyi, sözügedən sənədin Ermənistanda böyük etirazlarla qarşılandığı qeyd olunur.

Bildirilir ki, Ermənistan silahlı qüvvələri dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonlarından çıxmalıdır.

Məqalədə Ermənistanda iğtişaşların başladığı, etirazçıların hökumət və parlament binalarını ələ keçirdiyi, baş nazir N.Paşinyanın istefasının tələb olunduğu diqqətə çatdırılır.

❖ ❖ ❖




İran mətbuatı Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin imzaladıqları birgə bəyanat barədə xəbərlərə geniş yer ayırıb.

AZƏRTAC xəbər verir ki, İranın İSNA, İRNA, Mehr, İLNA, "Tehran Times", "Tasnim" saytları Azərbaycanın Dağlıq Qarabağ uğrunda apardığı mübarizədə qalib gələrək Ermənistanı sülhə məcbur etdiyini bildiriblər.

İran mətbuatı Ermənistanın baş naziri Nikol Paşinyanın sosial şəbəkədə paylaşdığı statusa toxunub.

Materiallarda diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti İlham Əliyev siyasi iradə nümayiş etdirərək işğal altındakı torpaqları azad etdi. Materiallarda Prezident İlham Əliyevin xalqa müraciətindən sitat da gətirilib: "Paşinyan bəyanatı öz istəyi ilə deyil, Azərbaycanın dəmir yumruğu sayəsində imzaladı".

İran mediası Ermənistanda baş verən hadisələrə də toxunub. Qeyd olunub ki, Ermənistanda xaos hökm sürür. Şəhid anaları və yaxınları parlamentə hücum edərək qanunverici orqanın binasını dağıdıblar. Ermənistanda baş nazir N.Paşinyanın istefası tələb olunur.

❖ ❖ ❖




Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Dağlıq Qarabağda davam edən döyüşlərin dayandırılması barədə imzaladığı birgə bəyanat Qazaxıstan KİV-inin də diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, "tengrinews.kz", "inbusiness.kz", "kaztag.kz", "azattyq-ruhy.kz" saytlarının və digər kütləvi informasiya vasitələrinin yaydığı məlumatlarda Azərbaycan Prezidenti İlham Əliyevin, Rusiya Prezidenti Vladimir Putinin və Ermənistanın baş naziri Nikol Paşinyanın noyabrın 9-da imzaladığı birgə bəyanatı haqqında məqalə dərc edilib.

Məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin Dağlıq Qarabağda hərbi əməliyyatların dayandırılması ilə bağlı xalqa müraciət etməsi də qeyd olunub.

Eyni zamanda bildirilir ki, Dağlıq Qarabağda Rusiya sülhməramlıları yerləşdiriləcək.

Materiallarda Azərbaycan Prezidentinin çıxışından sitat da gətirilib: "Qarabağ münaqişəsi bizim regionda, Avrasiya məkanında ən uzun münaqişələrdən biridir və bu gün sona çatmaqda olan münaqişə tarixi hadisədir, ilk növbədə, Azərbaycan xalqı üçün çoxillik işğaldan azad olunur".

Həmçinin bu bəyanatın ardınca Ermənistanda iğtişaşların başlaması, etirazçıların hökumət və parlament binalarını ələ keçirməsi, baş nazir N.Paşinyanın istefasının tələb olunduğu diqqətə çatdırılır.

❖ ❖ ❖




Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Dağlıq Qarabağda 45 gündür davam edən döyüşlərin dayandırılması barədə imzaladığı birgə bəyanat Moldova KİV-ində geniş işıqlandırılıb

AZƏRTAC xəbər verir ki, "Timbul", "Tribuna", NOİ.MD, AVA.MD və digər informasiya portallarında dərc edilən məlumatlarda Azərbaycan Prezidenti İlham Əliyevin, Rusiya Prezidenti Vladimir Putinin və Ermənistanın baş naziri Nikol Paşinyanın noyabrın 9-da imzaladığı birgə bəyanat, onun iştirakçı ölkələrin xalqları tərəfindən necə qarşılanması əksini tapıb.

Prezident İlham Əliyevin imzalanma mərasimindən sonra xalqa müraciətində səsləndirdiyi fikirlər məqalələrdə yer alıb.

Qeyd edilib ki, Ermənistan dekabrın 1-nə qədər işğal altında saxladığı Ağdam, Laçın və Kəlbəcər rayonlarını Azərbaycana qaytaracaq.

❖ ❖ ❖




Azərbaycan xalqının Qələbə sevinci, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciəti ərəb mətbuatının diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyə", Qətərin "Aljazeera", İordaniyanın "Almamlaka", Misirin "MBC Masr", "Extranews" və "Nilenews", "Skynews Arabic", "İ24 Arabic" televiziya kanallarının efirində Azərbaycan xalqının Qələbə sevinci, dövlətimizin başçısının xalqa müraciəti haqqında geniş reportajlar yayımlanıb. Ərəb televiziya kanalları həmçinin Ermənistanın məğlubiyyəti, ermənilərin Yerevanda Paşinyanın kabinetinə hücum etməsi barədə də süjetlər veriblər.

Ərəb ölkələrinin informasiya agentlikləri də Azərbaycan xalqının tarixi Qələbəsi barədə xəbərlər yayıb. Misirin MENA və "Asiaelyoum", Tunisin TAP xəbər agentliklərinin saytlarında Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciəti və ermənilərin Yerevanda iğtişaşlar törətməsi barədə yazılıb.

Tarixi Qələbəmiz haqqında materiallar ərəb ölkələrinin nüfuzlu qəzetlərində də dərc edilib. "Arabnews", "Əl Əhram", "Jordantimes", "Əl Cəzirə" nəşrlərinin səhifələrində Müzəffər Ali Baş Komandanımızın xalq müraciəti və ermənilərin təslim olması barədə yazılar dərc edilib.

❖ ❖ ❖



Gürcüstanın böyük oxucu kütləsinə malik "interpressnews.ge" informasiya agentliyi Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciəti zamanı söylədiyi fikirlərə geniş yer ayırıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentinə istinadən yayılan xəbərlərdə Ağdamın, Kəlbəcərin və Laçın rayonlarının dekabrın 1-dək qaytarılması, bölgəyə Rusiya və Türkiyə sülhməramlılarının yerləşdirilməsi məsələsi əksini tapıb.

Ən çox oxunan isə "Prezident İlham Əliyev: Nə oldu Paşinyan? Qarabağla bağlı statusun nə oldu? Cəhənnəmə getdi status, gora getdi status, gorbagor oldu status, yoxdur status və olmayacaq" sərlövhəli məqalə olub.

❖ ❖ ❖




Özbəkistanın "kun.uz", "human.uz", "qalampir.uz" və "tnews.uz" xəbər portallarında cəbhə xəttində müharibənin başa çatması haqqında özbək və rus dillərində məqalələr yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, yazılarda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində müharibənin dayandırılması ilə əlaqədar birgə bəyanatı qeyd olunur.

Bildirilir ki, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunub.

Vurğulanır ki, Ermənistan bu il noyabrın 15-dək Kəlbəcər rayonunu, noyabrın 20-dək Ağdam rayonunu, dekabrın 1-dək isə Laçın rayonunu Azərbaycana qaytaracaq.

Yazılarda qeyd olunur ki, Dağlıq Qarabağla Ermənistan arasında əlaqə yaratmaq üçün 5 kilometr enində Laçın dəhlizi olacaq və dəhlizə Rusiya sülhməramlı kontingenti nəzarət edəcək.

"Qalampir.uz" portalı yazır ki, noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib. Dövlət başçısı müraciətdə bəyanatın qəbul edilməsi, müharibənin başa çatması, Azərbaycanın qələbə çalması haqqında məlumat verib.

❖ ❖ ❖




Azərbaycan Prezidenti İlham Əliyev Dağlıq Qarabağda hərbi əməliyyatların dayandırılması barədə razılaşmanı Ermənistanın məğlubiyyəti adlandırıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Malayziyanın BERNAMA Milli İnformasiya Agentliyi yaydığı məlumatda bildirib.

Azərbaycan Prezidenti İlham Əliyevin noyabrın 10-da xalqa müraciəti əsasında hazırlanmış məlumatda qeyd edilir ki, dövlət başçısı Dağlıq Qarabağ münaqişəsinin qurtardığını bəyan edib.

Azərbaycan Prezidentinin xalqa müraciətinin geniş əks olunduğu xəbərdə bildirilir ki, dövlət başçısı Ermənistanın baş naziri Nikol Paşinyanın bu bəyanatı öz istəyi ilə deyil, məhz Bakının dəmir yumruğunun hesabına imzaladığını vurğulayıb.

Məlumatda Ali Baş Komandanın sentyabrın 27-dən başlamış döyüşlər zamanı Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan ordusunu əzərək təqribən 300-dək yaşayış məntəqəsini azad etməsinə dair fikrini də qeyd edib.

Azərbaycan Prezidentinə istinadla Ağdam rayonunun noyabrın 20-dək, Kəlbəcər rayonunun noyabrın 15-dək, Laçının isə dekabrın 1-dək boşaldılacağı bildirilib.

Yazıda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə də məlumat verilir. Bildirilir ki, 30 ilə yaxın müddətdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış torpaqlarının 20 faizi Ermənistan ordusunun işğalı altında idi.

❖ ❖ ❖



İslam Əməkdaşlıq Təşkilatı Milli Xəbər Agentlikləri Birliyi (UNA) və Misir KİV-i Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətini geniş işıqlandırıb.

UNA-nın AZƏRTAC-a istinadla yaydığı xəbərdə Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri arasında müharibənin dayandırılmasına dair imzalanmış bəyanat və dövlətimizin başçısının xalqa müraciəti yer alıb.

Misirin "Eghad" portalı və "Asiaelyoum" informasiya agentliyi də Prezident İlham Əliyevin xalqa müraciəti haqqında xəbərlər yayıb. "Prezident İlham Əliyev müharibənin Qələbə ilə başa çatdığını bəyan etdi" sərlövhəli xəbərdə qeyd olunur ki, Azərbaycanın dövlət başçısı şanlı Qələbənin döyüş meydanında qazanıldığını, 300-ə yaxın yaşayış məntəqəsinin işğaldan azad edildiyini vurğulayıb. Xəbərdə dövlətimizin başçısının bu fikirləri yer alıb: "Qarabağ Azərbaycandır və nida" ifadəsi artıq bizim qələbəmizin rəmzi idi, rəmzinə çevrildi. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!"

❖ ❖ ❖



Qırğızıstanın "turktoday.info" və "goldenbridgenews.com" portalları Azərbaycan Ordusunun Qələbəsindən, Ermənistanın məğlubiyyətindən, müharibənin başa çatmasından yazır.

Portallar AZƏRTAC-ın "Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin videokonfrans formatında görüşüblər", "Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı" və "Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib" sərlövhəli materialları rus dilində tam olaraq dərc edib.

Məqalələrdə vurğulanır ki, Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən imzalan bəyanatda bildirilir ki, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunur.

Azərbaycan Prezidenti xalqa müraciətində deyib: "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır".

❖ ❖ ❖




Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Dağlıq Qarabağda 45 gündür davam edən döyüşlərin dayandırılması barədə imzaladığı birgə bəyanat İspaniya KİV-inin diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, İspaniyanın Dövlət Televiziyasının "Xəbərlər" proqramında, habelə ölkənin böyük oxucu kütləsinə malik "El Mundo", "La Vanguardia" qəzetlərinin elektron versiyalarında yayımlanmış məqalələrdə Azərbaycan Prezidenti İlham Əliyevin, Rusiya Prezidenti Vladimir Putinin və Ermənistanın baş naziri Nikol Paşinyanın noyabrın 9-da imzaladığı birgə bəyanatın müddəaları, habelə sözügedən sənədin iştirakçı ölkələrin xalqları tərəfindən necə qarşılanması əksini tapıb.

Məlumatlarda Azərbaycanın dövlət başçısının Rusiya Prezidenti ilə keçirdiyi videokonfrans formatında görüşündə səsləndirdiyi fikirlərə xüsusi diqqət yetirilib: "Üçtərəfli bəyanatın imzalanması Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində əhəmiyyətli rol oynayacaq".

Birgə bəyanata qeyd olunur ki, bu sənəd təqribən altı həftə ərzində davam edən ağır döyüşlər və Azərbaycan Ordusunun qətiyyəti nəticəsində əldə edilib. Belə ki, bundan bir gün əvvəl rəsmi Bakı döyüş bölgəsində onlarca yaşayış məntəqəsinin azad olunduğunu bəyan edib.

Məlumatlarda Ermənistanın baş naziri Nikol Paşinyanın sözləri də yer alıb: "Bəyanatın mətni şəxsən mənim üçün və xalqımız üçün çox ağrılıdır. Bu qərar hərbi vəziyyətin dərindən təhlili və sahənin ən yaxşı mütəxəssisləri ilə aparılan müzakirələr əsasında qəbul edilib".

Məqalələrdə Azərbaycan üçün böyük əhəmiyyətə malik Şuşa şəhərinin noyabrın 8-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad olunması xüsusi vurğulanır.

Ermənistanda iğtişaşların başladığı, etirazçıların hökumət və parlament binalarını ələ keçirdiyi, baş nazir N.Paşinyanın istefasının tələb olunduğu diqqətə çatdırılır.

❖ ❖ ❖




Yaponiyanın kütləvi-informasiya vasitələri noyabrın 10-da Moskva vaxtı ilə gecə saat 00:00-dan qüvvəyə minən və Dağlıq Qarabağda Ermənistan silahlı qüvvələri ilə Azərbaycan Ordusu arasında davam edən döyüşlərin tam dayandırılmasını nəzərdə tutan Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı birgə bəyanatı geniş işıqlandırır.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Yaponiyanın NHK telekanalı, Kyodo və "Jiji Press" informasiya agentlikləri, "Asahi shimbun", "Mainichi shimbun" kimi nüfuzlu qəzetləri və digər çoxsaylı kütləvi-informasiya vasitələri bunun tərəflər arasında sentyabrın 27-də başlamış döyüşlərin dayandırılması ilə əlaqədar sayca dördüncü razılaşma olduğunu bildirirlər.

Rusiya Prezidentinin dəftərxanasına istinadla qeyd edilir ki, tərəflər arasında razılaşma Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən noyabrın 9-da imzalanıb.

Məlumatlarda bəyanatın mətni ilə Azərbaycan xalqını tanış edən Prezident İlham Əliyevin xalqa müraciətinə də geniş yer verilib. Azərbaycan Prezidentinin sözləri sitat gətirilib: "Faktiki olaraq bu bəyanat Ermənistanın hərbi kapitulyasiyası deməkdir".

Münaqişənin son mərhələsinin sentyabrın 27-də başladığı qeyd edilərək, döyüşlərin gedişində Rusiya və ABŞ-ın iştirakı ilə üç humanitar atəşkəsin elan olunduğu, lakin heç birinə əməl edilmədiyi bildirilir. Azərbaycan Ordusunun azad etdiyi torpaqları geri qaytarmağa çalışan Ermənistan qoşunlarının cəhdlərinin heç bir nəticə vermədiyi, əksinə, noyabrın 8-də Dağlıq Qarabağın ikinci böyük şəhəri Şuşanın işğaldan azad olunduğu qeyd edilir. Vurğulanır ki, strateji əhəmiyyətə malik olan bu şəhər Dağlıq Qarabağın paytaxtı Xankəndini Ermənistanla birləşdirən yolun üzərində yerləşir.

Azərbaycan Prezidentinə istinadla bildirilir ki, bununla da uzun müddətdir davam edən münaqişəyə son qoyulacaq, Dağlıq Qarabağın ətrafında Ermənistan tərəfindən işğal edilən bütün ərazilər Azərbaycana qaytarılacaq və Türkiyə regionda yerləşdiriləcək sülhməramlı qüvvələrə qatılacaq.

Bununla yanaşı, birgə bəyanatın elan edilməsindən sonra Ermənistanın paytaxtı Yerevanda baş nazir N.Paşinyanın istefasını tələb edən etirazların başladığı və etirazçıların hökumət binasını zəbt etdiyi də bildirilir. N.Paşinyanın sözləri sitat gətirilir: "Başqa yol yox idi. Bu, hərbi vəziyyətin təhlilinin nəticəsidir".

Məqalələrdə həmçinin Dağlıq Qarabağın tarixi Azərbaycan torpağı olduğu və 1988-ci ildə başlanan separatçı hərəkatın Ermənistan tərəfindən dəstəkləndiyi qeyd edilir. Bildirilir ki, 1991-1994-cü illərdə davam edən Birinci Qarabağ müharibəsi Ermənistanın qələbəsi ilə yekunlaşıb və Dağlıq Qarabağ da daxil olmaqla, Azərbaycanın yeddi rayonu işğal edilib.

❖ ❖ ❖

"Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə razılaşma Ermənistanın kapitulyasiyasıdır".

AZƏRTAC xəbər verir ki, bu barədə Ukraynanın "RBK-Ukrayna" informasiya agentliyi dərc etdiyi məqaləsində qeyd edib. Məqalədə Prezident İlham Əliyevə istinadla vurğulanır ki, bu qərar Azərbaycan üçün tam məqbuldur və faktiki olaraq Ermənistanın hərbi kapitulyasiyasıdır.

"Biz istədiyimizə nail olduq, istədiyimiz hədəfə çatdıq", - deyə dövlətimizin başçısının fikri qeyd olunub.

# Beynəlxalq ictimaiyyət Azərbaycanın zəfərini yüksək qiymətləndirir



"Bir ağızdan "Qarabağ Azərbaycandır!" deyə qışqırırdıq. Artıq Qarabağ Azərbaycanındır".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Türkiyənin vitse-prezidenti Fuat Oktayın rəsmi "Twitter" hesabında Azərbaycanın tarixi qələbəsi münasibətilə verdiyi açıqlamasında yer alıb.

Fuat Oktay həmçinin yazıb: "Eşq olsun, sevinciniz, sevincimiz daimi olsun, can Azərbaycan!"

❖ ❖ ❖



"Azərbaycanın qanuni haqqı və qalibiyyəti nəhayət ki, düşmən tərəfindən də qəbul edildi. Ermənistan işğal edərək qətliamlar həyata keçirdiyi Qarabağdan çəkilməyə və təslim olmağa məcbur qaldı".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop özünün "Twitter" hesabında paylaşıb. Türkiyə parlamentinin sədri yazıb: "Tarixin faciəvi səhifəsi Azərbaycan üçün zəfərlə başa çatdı. Azərbaycan bayrağı və azan Qarabağda yenidən yüksəldi".

❖ ❖ ❖



"Böyük məmnuniyyətlə ifadə edirəm ki, Qarabağda 30 ilə yaxındır davam edən düşmən hegemonluğuna tarixi zərbə endirildi, Can Azərbaycan böyük qəhrəmanlıqla torpaqlarını geri aldı. Prezident İlham Əliyevin də ifadə etdiyi kimi, Paşinyan məlum razılaşmanı öz istəyi ilə deyil, Azərbaycanın dəmir yumruğu hesabına qəbul etmək məcburiyyətində qaldı".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Baxçalı partiyanın Türkiyə Böyük Millət Məclisindəki qrup toplantısında söyləyib.

Böyük zəfər münasibətilə Prezident İlham Əliyevi, Azərbaycan əsgərini təbrik edən MHP sədri deyib: "Şanlı Azərbaycan əsgəri böyük qəhrəmanlıqla erməni dəstələrini zəbt etdikləri torpaqlardan qovub çıxarıb. Qatil Paşinyan istəməsə də məğlubiyyəti ilə barışıb, əlləri titrəyə-titrəyə razılaşmanı imzalamaq məcburiyyətində qalıb".

Zəfəri inancın uğuru və əzmin mükafatı kimi dəyərləndirən partiya sədri bildirib ki, Ermənistan tökdüyü qanların bədəlini ödəyib, məğlubiyyətini qəbul etmək məcburiyyətində qalıb, işğala son qoyulub.

❖ ❖ ❖



Ermənistanın baş naziri Nikol Paşinyan bu yaxınlarda İsrailə qarşı çıxış edərək deyib: "İsrail Azərbaycanın Ermənistanla münaqişəsində Azərbaycanı dəstəkləmək üçün Türkiyə, terrorçular və suriyalı muzdlularla birləşib. Bu ittifaqın nəticələri sonda İsrailin zərərinə olacaq".

44 gün davam etmiş döyüş əməliyyatları öz miqyasına və əhatə dairəsinə görə son illərdə ağır artilleriya, tank, raket və pilotsuz uçuş aparatlarından istifadə edilməklə baş verən vaxtaşırı eskalasiyaları üstələyirdi.

AZƏRTAC xəbər verir ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin rəhbəri, beynəlxalq münasibətlər üzrə tanınmış israilli ekspert Arye Qut bu barədə "Jewish Press" informasiya agentliyinin saytında dərc edilmiş "İsrailə Ermənistan kimi tərəfdaş həqiqətən lazımdırmı?" sərlövhəli məqaləsində yazıb.

İsrailli analitik vurğulayır: "Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə son günlərdə Azərbaycanın "Sderot"una (İsraildə şəhər) çevrilib, çünki Ermənistan silahlı qüvvələri Azərbaycanın dinc sakinlərini və digər qeyri-hərbi hədəflərini daim atəşə tutur. "Human Rights Watch" təşkilatı Ermənistanı Azərbaycanın dinc sakinlərinə qarşı kasetli bombalardan istifadə edilməsində təqsirləndirib. Bununla belə, Ermənistanın nəzərində təcavüzkarlar İsrail və Azərbaycandır".

Qutun fikrincə, Ermənistanın baş nazirinin diplomatik protokol və etiket anlayışlarından xəbəri yoxdur. Ekspert yazır: "Mən bilmək istərdim, Paşinyanın Rusiya Prezidenti Vladimir Putin ilə bu cür danışmağa cəsarəti çatarmı? Bu gün İsrail Dövlətini və onun müttəfiqlərini "Qarabağda ermənilərə qarşı soyqırımı törətməkdə" saxta ittiham edən Ermənistan kimi tərəfdaş və ya müttəfiqlər İsrailə yəqin ki, lazım deyil".

İsrailli analitikin fikrincə, Xocalı soyqırımını inkar edən Ermənistanın baş nazirinin "soyqırımı" sözünü işlətməyə haqqı yoxdur. Arye Qut "Jewish Press" nəşrində dərc edilmiş məqaləsində yazır: "Ona xatırlatmaq istəyirəm ki, 1992-ci ilin fevralında məhz Ermənistan Azərbaycanın Xocalı şəhərinin dinc əhalisinə qarşı soyqırımı aktı törədib. Belə amansız etnik təmizləmə aktlarından birində Ermənistan silahlı qüvvələri tərəfindən bir gecədə aralarında 63 uşaq, 106 qadın və 70 ahıl şəxsin olduğu 613 nəfər qətlə yetirilib, bundan əlavə, 487 nəfər şikəst edilib, 1275 əsir götürülüb, aralarında 68 qadın və 26 uşağın olduğu 152 nəfər isə itkin düşüb. 8 ailə bütövlükdə məhv edilib, 25 uşaq hər iki valideynini itirib, yüzlərlə şəxs zorakılığa və isgəncəyə məruz qalıb. O dəhşətli fevral gecəsində baş vermiş real hadisələr sənədli videomateriallar, həmin vaxt bu şəhərdə olmuş xarici jurnalistlərin və ekspertlərin şahid ifadələri ilə təsdiqlənib. Bu azərbaycanlıların belə qəddarlığa məruz qalmasının yeganə "səbəbi" onların azərbaycanlı olması idi".

Ermənistanın keçmiş baş naziri Serj Sarkisyan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar britaniyalı jurnalist Tomas de Vaala verdiyi, "Qarabağ: Ermənistan və Azərbaycan sülh və hərb yolunda" adlı kitaba daxil edilmiş müsahibəsində Xocalı qırğınından söhbət açaraq deyib: "Xocalı hadisələrinə qədər azərbaycanlılar fikirləşirdilər ki, biz onlarla zarafat edirik. Onlar zənn edirdilər ki, ermənilər dinc əhaliyə əl qaldıra bilməyən bir xalqdır. Biz bu stereotipi aradan qaldırdıq və bunlar baş verdi".

Qut qeyd edir ki, Bosniya və Herseqovina, Honduras, Kolumbiya, Çexiya, Qvatemala, İordaniya, Meksika, Panama, Peru, Pakistan, Rumıniya, Serbiya və Sudan hökumətləri Xocalıda törədilmiş soyqırımına görə Ermənistanı rəsmən pisləyib və bu soyqırımına ədalətli münasibət göstərilməsini tələb ediblər. ABŞ-ın 20-dən çox ştatı da Xocalı soyqırımını pisləyən qətnamələr qəbul edib.

İsrailli ekspert yazır: "1918-ci ildə Azərbaycanın Quba rayonunda ermənilər tərəfindən 3000 yəhudi və azərbaycanlının məhv edilməsini heç vaxt unutmayacağıq. Onu da unutmaq olmaz ki, Ermənistanın əvvəlki hakimiyyət orqanları alman faşistlərinə Qaregin Njde ləqəbi ilə xidmət etmiş faşist və cəllad Qaregin Ter-Arutyunyana Yerevanın mərkəzində heykəl qoyublar. Təəssüf ki, Ermənistanın yeni hökuməti bu heykəli oradan götürməyib. Lakin biz susmamalıyıq, deməliyik ki, Holokost dövründə törədilmiş cinayətlərdə əli olmuş bir insan hər hansı ölkənin milli qəhrəmanı kimi qələmə verilməməlidir. Məgər bundan sonra biz müasir Ermənistanda erməni faşist və antisemitin milli qəhrəman dərəcəsinə ucaldılmasına, bundan sonra ermənilərin bizə, israillilərə vicdan, mənəviyyat və ədalət dərsi keçmək cəhdlərinə laqeyd qala bilərikmi?"

Ermənistanın Azərbaycana hücumları nəticəsində evlər dağılıb, uşaqlar yetim qalıb, neçə-neçə insan şikəst olub. Üstəlik, İsraildəki Sderot şəhəri kimi, Azərbaycanın Gəncə şəhəri də cəbhə xəttindən uzaqda yerləşir.

Arye Qut yazır: "Lakin təəssüf ki, dünyada çoxsaylı KİV Ermənistanı deyil, Azərbaycanı təcavüzkar elan edir. Hərçənd 30 ildən çoxdur məhz Azərbaycan erməni təcavüzünün qurbanıdır. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrində vurğulandığı kimi, Dağlıq Qarabağ Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazisidir, Ermənistan bu əraziləri qeyd-şərtsiz azad etməlidir".

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin rəhbəri, beynəlxalq münasibətlər üzrə tanınmış israilli ekspert Arye Qut "Jewish Press" informasiya agentliyinin saytında dərc edilmiş məqaləsinin sonunda yazır: "Geosiyasətdən başı çıxmayan zavallı Paşinyan nə vaxtdan İsrailin xarici siyasəti barədə məsləhətlər verməyə başlayıb? Paşinyan unudur ki, İsrail Yaxın Şərq regionunda hərəkətverici qüvvə və innovasiyalı aktordur. Siyasətçi nə qədər məhdud olmalıdır ki, dünyəvi müsəlman ölkəsi olan Azərbaycanı və dünyada yeganə yəhudi ölkəsi olan İsrail dövlətini terrorçuları dəstəkləməkdə ittiham etsin!"

❖ ❖ ❖



Fransa Milli Assambleyasının deputatı, xarici işlər komissiyasının üzvü Jan Luk Reytzer təmsil etdiyi partiyanın üzvlərinə məktub ünvanlayıb və Fransanı bitərəf olmağa çağırıb.

AZƏRTAC xəbər verir ki, fransız deputat Milli Assambleyada təmsil etdiyi partiyanın üzvlərinə ünvanladığı məktubda Fransanı Minsk qrupunun həmsədr ölkəsi kimi neytral olmağa səsləyib. O, BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 4 qətnaməsini xatırladaraq, Ermənistanın Azərbaycanın təkcə Dağlıq Qarabağ bölgəsini deyil, onun ətrafında yalnız azərbaycanlıların yaşadığı 7 rayonu da işğal etdiyini diqqətə çatdırıb. Həmin qətnamələrin erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdiyini vurğulayıb.

Deputat Fransanın bitərəfliyi qorumalı olduğunu, əks təqdirdə ziddiyyətlərlə üzləşəcəyini, beynəlxalq nüfuzunu, etimadını və imicini zəiflədəcəyini və diplomatik əlaqələrinə ziyan dəyəcəyini bildirib. O vurğulayıb ki, BMT-nin qətnamələrinə hörmətlə yanaşmaq lazımdır.

❖ ❖ ❖



Azərbaycanın Almaniyanın Ştutqart şəhərindəki fəxri konsulu Otto Hauzer Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulması ilə bağlı fikirlərini bölüşüb.

AZƏRTAC xəbər verir ki, Otto Hauzer Prezident İlham Əliyevi və Azərbaycan xalqını bu vacib addım münasibətilə təbrik edib. Bildirilib ki, beləliklə, Azərbaycan Dağlıq Qarabağı və ətraf 7 rayonu öz tərkibinə qaytarmaq yolundadır. Otto Hauzer qeyd edib ki, qaçqınların vətənlərinə qayıtmasına dair razılaşma çox vacib humanitar addımdır.

Otto Hauzer, həmçinin vurğulayıb: "Ermənistana aydın olmalıdır ki, artıq qan tökülə bilməz. İndi Yerevanda anlayış hökm sürməlidir".

❖ ❖ ❖



"Mən Azərbaycan Prezidenti İlham Əliyevi, doğma Azərbaycan xalqını tarixi Qələbə münasibətilə təbrik edirəm. Bu qələbə azərbaycanlıların Ermənistan tərəfindən 30 il əvvəl işğal olunmuş torpaqlara qayıdış hüququnun bərpasıdır".

Bu sözləri AZƏRTAC-ın müxbirinə müsahibəsində Misirin Həlvan Universitetinin professoru, politoloq Adel Dərviş söyləyib.

O bildirib: "Mən hələ iyulda sizə verdiyim müsahibədə qeyd etmişdim ki, hərbi təxribatlara əl atan Ermənistan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində maraqlı deyil. Onu da bildirmişdim ki, COVID-19 pandemiyası dövründə dərin böhran keçirən Ermənistanın baş naziri bu təxribatlarla öz xalqının diqqətini yayındırmaq istəyir. Lakin hər şeyin sonu olduğu kimi, bu təhlükəli oyunların da axırı gəlməli idi. Ermənistanın sentyabrın 27-də hərbi təxribatından sonra başlayan döyüşlər işğalçı ölkənin təslim olması ilə başa çatdı. Mən Şuşa, Füzuli, Zəngilan, Cəbrayıl şəhərlərinin, 300-dən çox yaşayış məntəqəsinin cəmi 40 gün ərzində işğaldan azad edilməsini böyük hərbi zəfər hesab edirəm. Ümidvaram ki, Dağlıq Qarabağda nəhayət ki, sülh və təhlükəsizlik bərqərar olacaq. Doğma Azərbaycan xalqına öz torpaqlarında sülh və əmin-amanlıq arzu edirəm".

❖ ❖ ❖

"Azərbaycanı, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevi, Azərbaycan xalqını və bütün türk dünyasını bu şanlı qələbə münasibətilə təbrik edirəm. Sevincimizin həddi-hüdudu yoxdur. Tarixi Azərbaycan torpaqları öz sahiblərinə qaytarıldı. Tarixi ədalət bərqərar oldu. Dünya bir daha türkün, şanlı Azərbaycan Ordusunun gücünə şa-



hidlik etdi. 28 illik həsrət sona çatdı. Bunu sözlərlə ifadə etmək mümkün deyil. Qarabağ yalnız Azərbaycan üçün deyil, bütün türk dünyası üçün müqəddəsdir, əzizdir, doğmadır".

Bu sözləri AZƏRTAC-a açıqlamasında İstanbul Türkiyə-Azərbaycan Dərnəyinin (İSTAD) sədri Səfər Qaraqoyunlu bildirib.

O deyib: "Tarixi qələbə əldə olundu. Lakin unutmamalıyıq ki, müharibə cinayətləri törədən, neçə günahsız insanın, uşağın ölümünə səbəb olan Ermənistanın baş naziri Nikol Paşinyan, eləcə də Xocalı və bu kimi bir çox soyqırımları törədənlər Avropa İnsan Haqları Məhkəməsi və insanlıq qarşısında cavab verməlidirlər. Yalan məlumatlarla millətini uçuruma aparan N.Paşinyan öz xalqı qarşısında da cavab verməlidir. Şanlı Azərbaycan Ordusunun gücü, qələbə çalacağı ilk gündən tərəddüdsüz idi. Hər zaman olduğu kimi, bu savaşda da Türkiyə Azərbaycanın yanında oldu, ilk gündən qardaşının qələbəsinə inandı və budur, Azərbaycan əsgəri hər birimizi sevinc göz yaşlarına qərq etdi. Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən hər bir şəhidimizin ruhu şad olsun. Yaşasın Azərbaycan, yaşasın Türkiyə, yaşasın "Bir millət, iki dövlət"! Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir".

❖ ❖ ❖



"Azərbaycan Ordusu erməni tərəfi sarsıdıcı məğlubiyyətə uğratdı. İşğaldan azad edilmiş ərazilərin sayı buna sübutdur. Ermənistan həm şəxsi heyət, həm də texnika baxımından böyük itkilərə məruz qalıb. Şuşa şəhərinin işğaldan azad edilməsi bir daha göstərdi ki, erməni tərəfin bundan sonra müqavimət göstərməsi hərbi-siyasi vəziyyəti onun üçün daha da gərginləşdirəcək. Mən Ermənistanın təslim olacağını gözləyirdim".

Ukrayna Ali Radasının deputatı, Ukrayna-Azərbaycan dostluq qrupunun həmsədri Valeri Kolyux bu fikirləri AZƏRTAC-a eksklüziv müsahibəsində söyləyib.

Onun sözlərinə görə, hazırda Ermənistan sosial, iqtisadi və siyasi böhran təhlükəsi qarşısındadır. Koronavirus pandemiyası Ermənistan iqtisadiyyatına ciddi təsir göstərib, döyüş əməliyyatları isə bu iqtisadiyyatın normal fəaliyyətini təhlükə altına alıb. Aşkar görünür ki, erməni cəmiyyətinin bir hissəsi müharibədən yorulub və onlardan ötrü mənasız olan qarşıdurmada qan tökməyə hazır deyil.

Valeri Kolyux sonda deyib: "Ukraynada ümid edirlər ki, Azərbaycan öz ərazi bütövlüyünü tamamilə bərpa edəcək, regionda çoxdan gözlənilən sülh və əmin-amanlıq bərqərar olacaq".

❖ ❖ ❖



"Dağlıq Qarabağda münaqişə zonasında Rusiyanın sülhməramlı missiyası o zaman səmərəli olacaq ki, Ermənistan da Azərbaycan kimi öz üzərinə düşən vəzifəni yerinə yetirməyə hazırlığını nümayiş etdirsin".

AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə RF Federasiya Şurasının beynəlxalq məsələlər üzrə komitəsinin sədri Konstantin Kosaçov bəyan edib.

K.Kosaçov deyib: "Azərbaycan dayanmağa və rusiyalı sülhməramlıların xidmətindən istifadə etməyə razılıq verib. Ermənistan, hər halda Ermənistanın birinci şəxsləri buna razılıq veriblər. Bu günə olan vəziyyətə görə, biz hələ əmin olmalıyıq ki, bu razılıq heç olmasa nisbi ictimai razılıqla, ictimai konsensusla müşayiət olunur. Ermənistan üçtərəfli sazişə görə öz üzərinə düşən öhdəlikləri yerinə yetirməyə hazır olduğunu göstərməlidir. Yalnız o zaman rusiyalı sülhməramlıların regionda mövcudluğu səmərəli nəticə verər".

❖ ❖ ❖

"Biz Rusiya, Azərbaycan və Türkiyənin iştirakı ilə oynanılan möhtəşəm geosiyasi şahmat partiyasının "endşpil"ini (almanca: "oyunun so-




nu") müşahidə edirik. Bununla belə, tərəflərin heç biri ziyan görmədi".

AZƏRTAC xəbər verir ki, hərbi publisist Vladislav Şurıgin bu barədə "Svobodnaya pressa" internet nəşrində yazıb.

Məqalədə qeyd olunduğu kimi, Azərbaycan 28 il bundan əvvəl itirdiyi torpaqların demək olar ki, hamısını özünə qaytarmağa, beynəlxalq arenada güclü hərbi dövlət kimi möhkəmlənməyə, keçmiş SSRİ ölkələrinin reytinqində ən inkişaf etmiş və müstəqil respublika kimi yüksək mövqe tutmağa nail olub. Bununla yanaşı, Prezident İlham Əliyev atəşkəs və sülhməramlıların yerləşdirilməsi barədə bəyanatı imzalamaqla müharibəni vaxtında dayandırmağı bacaran müdrik və uzaqgörən siyasətçi şöhrətini qazandı. Bundan sonra o, Azərbaycan tarixinin siyasi Olimpində atası Heydər Əliyevlə bərabərləşdi.

Müəllifin fikrincə, Rusiya təqribən 30 il ərzində böyük regional münaqişəyə, demək olar ki, bütün Qafqaz ölkələrinin iştirakı ilə nəzarətsiz müharibəyə çevrilə biləcək "Qarabağ minası"nı zərərsizləşdirdi.

Azərbaycanın strateji müttəfiqi kimi çıxış edən, ona bütün səviyyələrdə hərbi və diplomatik dəstək verən Türkiyə bu regionda özünün geosiyasi mövcudluğunu vurğulayaraq Azərbaycana öz təsirini möhkəmlədə bildi.



Müəllif yazır ki, paytaxt Bakıda və Azərbaycanın digər şəhərlərində insanlar küçələrə çıxaraq Müzəffər Ali Baş Komandanı və Azərbaycan Ordusunun qələbələrini alqışlayıblar.

❖ ❖ ❖



"Azərbaycan 30 il işğal altında olan torpaqlarını azad etdi. Noyabrın 8-də Azərbaycan və türk dünyasının mədəniyyət beşiyi, Qarabağın qəlbi Şuşanın işğaldan azad olunmasını qeyd etdik. İki gün keçmədən tarixi qələbə xəbərini aldıq. Azərbaycanımızın və Türkiyəmizin gözü aydın olsun".

Bu sözləri AZƏRTAC-a açıqlamasında Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım bildirib.

Türkiyənin hər zaman, hər şəraitdə Azərbaycanın yanında olduğunu vurğulayan Ş.Ayrım deyib: "Bir millət, iki dövlət!" şüarı burada da özünü göstərdi. Türkiyə və Azərbaycan qardaşlığını qələbə sevincini qeyd edən hər iki ölkə vətəndaşlarının gözlərindən görmək olar. Bu tarixi qələbəni bizə yaşadan başda Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev olmaqla, qüdrətli Azərbaycan Ordusuna və bütün dünyaya milli birlik nümunəsi nümayiş etdirən Azərbaycan xalqına təşəkkürlərimizi bildiririk. Haqq və ədalət öz yerini tapdı. Bütün türk dünyasının gözü aydın olsun".

❖ ❖ ❖



"Bəziləri Azərbaycan torpaqlarına gəldikləri kimi də geri dönərlər. Türkiyə və Azərbaycanın gücünü, həmrəyliyini, birliyini bütün dünya gördü".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin Ukraynadakı səfiri Yağmur Əhməd Güldərə jurnalistlərə açıqlamasında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın zəfərindən danışarkən söyləyib.

Səfir bildirib ki, Azərbaycanın gücü düşmən tərəfindən də qəbul edildi.

"Bundan sonra da Türkiyə və Azərbaycan bir yerdə olacaq, ölkələrimiz birlikdə gücünü daha da artıracaq", - deyə diplomat qeyd edib.

❖ ❖ ❖

"Azərbaycanın əziz bayramı - Bayraq Günündə Şuşada dalğalanan dövlət bayrağı igid azərbaycanlı əsgərlərin Ermənistan silahlı qüvvələri üzərində parlaq qələbəsinin rəmzinə çevrilib".

AZƏRTAC xəbər verir ki, Misirin "Aldiplomasy" internet portalının baş redaktoru Əşrəf Əbo Urafənin məqaləsi bu sözlərlə başlayır.

Misirli jurnalist qeyd edib ki, rəşadətli Azərbaycan Ordusunun döyüş meydanında ən mühüm qələbəsi məhz Bayraq Gününə təsadüf edib. 2009-cu il noyabrın 18-də Prezident İlham Əliyevin fərmanı ilə təsis edilən bu əlamətdar bayram bu il işğal altındakı ərazilərin azad olunması və dövlət bayrağının Şuşa şəhərində dalğalanması fonunda qeyd edilir.

❖ ❖ ❖



"Azərbaycan Prezidenti İlham Əliyev bəyan etdi ki, Azərbaycan Ordusu Şuşanı işğaldan azad edib. Bu, müharibənin əsas məqamıdır. Demək olar ki, İkinci Qarabağ müharibəsi Azərbaycanın tam qələbəsi ilə başa çatdı".

AZƏRTAC xəbər verir ki, bu barədə özünün "Facebook" səhifəsində Rusiyanın ictimai xadimi, politoloq, Siyasi Araşdırmalar İnstitutunun baş direktoru Sergey Markov yazıb.

O bildirib: "Şuşa Dağlıq Qarabağın paytaxtı Xankəndi ilə Ermənistan ərazisi arasında yerləşir. İndi şimal yolu Xankəndidən olan qaçqınlarla doludur. Azərbaycan Ordusu qaçqınlara heç bir təcavüz göstərmir. İndi Ermənistanın müharibəni dayandırmaq şansı var. Əgər Paşinyan Ermənistanın bütün ordusunun, - bu ordu yaxın vaxtlarda Dağlıq Qarabağda mühasirəyə alınacaq, - Dağlıq Qarabağdan çıxarılması barədə əmr verərsə, o halda hərbi əməliyyatlar dayanar və sülh danışıqları başlanar. Əks halda müharibə özlərinin baş nazirlərinə qorxaraq sadiq olan, mühasirəyə düşmüş erməni qoşunlarının sonadək qırılmasına gətirib çıxara bilər. Qırğın heç kimə lazım deyil".

Politoloqun vurğuladığı kimi, Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan edib ki, ermənilər Azərbaycan ərazilərində sakit yaşaya bilərlər, orada onlara təhlükə yoxdur. "Azərbaycan müasir çoxmillətli və çoxkonfessiyalı ölkədir ki, onun ideologiyası multikulturalizmdir və orada hazırda təqribən 30 min erməni yaşayır. Bütün xalqlar güclü dövlətin müdafiəsi altındadır. Dağlıq Qarabağ ermənilərinə, məsələn, İtaliyada Cənubi Tirolda və digər ölkələrdə olduğu kimi, mədəni muxtariyyət təmin olunacaq. Onlar öz kilsələrində sakitcə dua edə biləcəklər", - deyə politoloq qeyd edib.

Politoloq əmindir ki, Dağlıq Qarabağda müharibə hər halda tezliklə başa çatacaq. "Hamıya aydındır ki, Azərbaycan yaxın vaxtlarda Dağlıq Qarabağın bütün ərazisində öz suverenliyini tam bərpa edəcək. Prezident İlham Əliyev Dağlıq Qarabağın xilaskarı kimi Azərbaycan üçün milli qəhrəmana çevrilir. Azərbaycan tam qələbənin bir addımlığındadır", - deyə sonda S.Markov bildirib.

❖ ❖ ❖



Azərbaycan diasporunun nümayəndələri Dövlət Bayrağı Gününü və Şuşanın erməni işğalından azad edilməsini qeyd etmək məqsədilə Azərbaycanın Belarusdakı səfirliyinin önündə toplaşıblar.

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, tədbirdə çıxış edən səfir Lətif Qəndilov Dövlət Bayrağı Günü və Şuşa şəhərinin işğaldan azad olunması münasibətilə həmvətənlərimizi təbrik edib və qələbəyə gedən yolun çox uzun və çətin olduğunu söyləyib. Bugünkü qələbənin əsasının 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlməsi və Azərbaycan dövlətinin məhv olma təhlükəsindən qorunub saxlanması ilə qoyulduğunu bildirib. 1994-cü ildə Bişkek protokolunu imzalamaqla dövlətimiz iqtisadiyyatını, ordusunu, xarici siyasi əlaqələrini gücləndirmək üçün tarixi möhlət qazandığını söyləyib.

"Azərbaycan bu dövr ərzində 3 dünya əhəmiyyətli enerji və nəqliyyat layihəsini reallaşdırmaqla, güclü ordunun yaradılması üçün maliyyə imkanları qazanıb və güclü xarici siyasət apararaq müxtəlif beynəlxalq tədbirlərə ev-sahibliyi edib, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətləri dünya ictimaiyyətinə çatdırmağa müvəffəq olub. Digər tərəfdən Bişkek protokolunun imzalanmasından bu günə qədər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycan Prezidentinin daim diqqət mərkəzində olub və bu məsələ diplomatiyamızın əsas fəaliyyət məqsədinə çevrilib", - deyə səfir əlavə edib.

L.Qəndilov qeyd edib ki, bütün dünya Dağlıq Qarabağın Azərbaycan torpağı olduğunu bilib. Ali Baş Komandanın atdığı qətiyyətli addımlar Azərbaycan xalqının özünə qayıtması, şərəf və ləyaqətinin qorunması kimi qiymətləndirilməlidir.

Tədbirdə Azərbaycan İcmalar Konqresinin rəhbəri Natiq Bağırov çıxış edərək konqresin adından Müzəffər Ali Baş Komandana və Azərbaycan Ordusuna dəstəyini ifadə edib və tədbir iştirakçılarını Şuşa şəhərinin işğaldan azad olunması münasibətilə təbrik edib.

Azərbaycan İcmalar Konqresinin Gənclər qrupunun rəhbəri Vüsal Qarayev Ali Baş Komandana sevgi, məhəbbət, iftixar və alqışlarını bildirib.

Tədbirin sonunda iştirakçılar Azərbaycanın Prezidenti İlham Əliyevə və Ordumuza işğal olunmuş ərazilərimizin azad olunmasında göstərdiyi qətiyyətə görə təşəkkür edərək xalqımızın birliyini göstərən "Yallı"nın sədaları altında rəqs ediblər.

❖ ❖ ❖



Azərbaycanın Efiopiyadakı səfiri Elman Abdullayev bu ölkənin nüfuzlu, geniş auditoriyaya malik olan televiziya kanalı EBS TV-yə müsahibə verib. Səfir Efiopiya ictimaiyyətini Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq və etnik təmizləmə siyasəti barədə ətraflı məlumatlandırıb, Azərbaycan dövlətinin xalqımızın əzəli tarixi torpaqlarını işğaldan azad etmək və işğalçı Ermənistanı sülhə məcbur etmək məqsədilə özünü müdafiə etmək hüququndan istifadə etdiyini izləyicilərin diqqətinə çatdırıb. Bu barədə AZƏRTAC-a Azərbaycanın Efiopiyadakı səfirliyindən məlumat verilib.

Səfir Elman Abdullayev öncə münaqişənin tarixi, Azərbaycan ərazilərinin 20 faizinin Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanması haqqında məlumat verib. O, Azərbaycan ərazilərinin tam və qeyd-şərtsiz azad edilməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə bu illər ərzində Ermənistan tərəfindən məhəl qoyulmadığını, xüsusilə son illərdə Ermənistanın hərbi-siyasi rəhbərliyinin aqressiv, təxribatçı və məsuliyyətsiz çıxışlarının, Azərbaycanın yeni ərazilərinin işğal edilməsinə çağırışlarının münaqişənin sülh yolu ilə həllini mümkünsüz etdiyini diqqətə çatdırıb.

Beynəlxalq birliyin laqeyd münasibəti, həmçinin işğalçı əməllərinə və törətdiyi müharibə cinayətlərinə görə cəzasızlıq nəticəsində daha da azğınlaşan işğalçı Ermənistanın cari ilin iyul ayından başlayaraq Azərbaycanın dövlət sərhədi boyunca təxribatlara cəhd etməsi, son olaraq 27 sentyabr tarixində cəbhə xətti boyunca Azərbaycan mövqelərinə, o cümlədən dinc əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələrinə ağır artilleriyadan istifadə etməklə hücumu haqqında danışan səfir E.Abdullayev Azərbaycan Ordusunun Ermənistanın hücum cəhdinin qarşısını almaq və təmas xətti boyunca yaşayan dinc əhalinin təhlükəsizliyini təmin etmək üçün əks-hücum əməliyyatına başladığını bildirib.

Azərbaycanın öz torpaqlarını azad etmək məqsədilə apardığı haqlı mübarizəsində beynəlxalq humanitar hüquqa tam riayət etdiyini, ordumuzun sadəcə legitim hərbi hədəflərə zərbə endirdiyini vurğulayan Azərbaycan səfiri bunun əksinə olaraq təcavüzkar Ermənistanın münaqişə zonasından xeyli uzaqda yerləşən Gəncə, Tərtər, Bərdə, Mingəçevir şəhərlərinin yaşayış məntəqələrinə raket zərbələri endirdiyini, o cümlədən dinc əhali arasında tələfatı artırmaq məqsədilə qadağan olunmuş kaset bombalarından istifadə edərək müharibə cinayəti törətməsi haqqında məlumat verib, 27 sentyabr tarixindən etibarən cəbhə xəttindən xeyli uzaqda yerləşən bu yaşayış məntəqələrinə endirilən artilleriya zərbələri nəticəsində aralarında körpələrin, qadınların və qocaların da olduğu 90-dan artıq dinc sakinin həlak olduğunu, 400-ə yaxın insanın yaralandığını bildirib.

Hərbi əməliyyatların dayandırılması üçün əsas şərtin işğalçı Ermənistan ordusunun Azərbaycan ərazilərindən qeyd-şərtsiz və gecikmədən çıxarılması olduğunu qeyd edən diplomat beynəlxalq birliyin münaqişənin həllinə əsas töhfəsinin Ermənistana işğalçılıq siyasətini dayandırması və silahlı qüvvələrini Azərbaycan ərazilərindən dərhal çıxarılması üçün təzyiq etməsinin vacibliyini vurğulayıb.

Azərbaycanda qədim multikulturalizm ənənələrinin mövcud olduğunu bildirən səfir E.Abdullayev ölkəmizdə əsrlər boyu sülh və qardaşlıq şəraitində yaşayan müsəlman, xristian və yəhudilərin milli ideologiyamız olan azərbaycançılıq ideologiyası altında birləşərək və bir yumruğa dönərək Vətənimizin ərazi bütövlüyünün müdafiəsi naminə təcavüzkar dövlətə döyüş meydanında layiqli cavab verdiyini və tarixi ədalətin bərpa edildiyini vurğulayıb.

## Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu avtonəqliyyat vasitələrinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının **https://www.etender.gov.az/** vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu və təklifləri Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı 200 manatdır.**

**İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu**
**VÖEN: 1305619841**
**Hesablaşma hesabı: AZ03PAHA36015AZNHC0100089628**
**Bankın adı: PAŞA Bank ASC**
**Kod: 505141**
**VÖEN: 1700767721**
**Müxbir hesab: AZ82NABZ01350100000000071944**
**S.W.I.F.T. PAHAAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır və ya tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *malgöndərənin (podratçının) ixtisas göstəricilərinə aid məlumat;*
- *tenderin əsas şərtlər toplusunda qanunvericiliklə nəzərdə tutulan və tələblərindən irəli gələn digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə aid sənədləri **07 dekabr 2020-ci il saat 12:00-a**, tender təklifi ilə bank təminatı sənədlərini isə **15 dekabr 2020-ci il saat 12:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **16 dekabr 2020-ci il saat 12:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

İddiaçılar E-şərtlər toplusunu **16.11.2020-ci il saat 12:00-dan** sonra əldə edə bilərlər.

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Məşğulluq Agentliyi İSO 37001:2016 Beynəlxalq Standartın tələblərinin tətbiqi üzrə məsləhət xidmətlərinin göstərilməsinə dair xidmətlərin

### *kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan təşkilatlar +99412 497-71-34 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 13.11.2020-ci il tarixdən 20.11.2020-ci il saat 15:00-dək qəbul olunur.

**Ünvan: AZ 1009, Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85**
**Telefon: +99412 497-71-34; E-mail: dmx@mlspp.gov.az; shahin.gubadov@sosial.gov.az**

***Tender komissiyası***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün bir sıra təhsil müəssisələrində qazanxana quraşdırılması və daxili istilik sistemlərinin təmiri işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyən təşkilatlar 200 (iki yüz) manat məbləğdə heç bir halda geri qaytarılmayan iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə bilərlər:

**Təşkilat: Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçı tərəfindən ən azı 1 (bir) il ərzində müvafiq sahədə peşəkarlığı və təcrübəsi (bağlanmış müqavilələrin surəti);*
- *Azərbaycan Respublikasının mövcud qanunvericiliyində və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlər çərçivəsində qəbul olunmuş sertifikatlar (mənşə, uyğunluq və s.);*
- *iddiaçının 2019-cu ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli (Əlavə 1);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənəd;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təkifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 14 (on dörd) təqvim günü ərzində İcraçı tərəfindən Sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **04.12.2020-ci il saat 10:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **14.12.2020-ci il saat 10:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **15.12.2020-ci il saat 10:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycanda koronavirus infeksiyasına daha 1364 yoluxma faktı qeydə alınıb, 1015 nəfər sağalıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 1364 yoluxma faktı qeydə alınıb, 1015 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 22 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 71 min 580 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 53 min 1 nəfər müalicə olunaraq sağalıb, 927 nəfər vəfat edib. Aktiv xəstə sayı 17652 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 489 min 382 test aparılıb. Dünənki test sayı isə 9744-dür.




## Şamaxı Rayon İcra Hakimiyyəti

### *kotirovka sorğusu elan edir*

Şamaxı Rayon İcra Hakimiyyəti icra hakimiyyəti başçısı aparatına kompüter avadanlıqlarının alınması

Kotirovka sorğusunda iştirak etmək üçün iddiaçıların sənədləri 16 noyabr 2020-ci il tarixdə saat 18:00-dək qəbul olunur.

Təkliflər 17 noyabr 2020-ci il tarixdə saat 15:00-da açılacaqdır.

**Ünvan: Şamaxı şəhəri, H.Əliyev küçəsi, 27**
**Əlaqə telefonu: (020) 265-16-55.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 7 sentyabr 2020-ci il tarixdə www.etender.gov.az Portalında, 8 sentyabr 2020-ci il tarixdə "Azərbaycan" qəzetində dərc edilmiş Bakı Dövlət Regional Peşə Təhsili Mərkəzi üçün inzibati bina və emalatxana sahəsinin icarəsi xidmətinin satın alınmasına dair keçirilmiş açıq tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.2-ci maddəsinə əsasən ləğv edilmişdir.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Radio-Televiziya Yayımı və Peyk Rabitəsi" İstehsalat Birliyi

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT-1. Bakı Teleqüllə Kompleksində mövcud 2 ədəd 75 Om-luq RF fider kabelinin əvəz edilməsi məqsədilə, 2 ədəd (hər biri 250 metr) yanğına davamlı 50 Om-luq 4 inchlik RF fider kabelinin alınması və montaji işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://etender.gov.az/** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba Asan Pay vasitəsilə köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Əlaqə telefonu: mobil: (055) 400-95-07; şəhər: 012 498-77-80**
**Əlaqələndirici şəxs: Zöhrə Əfəndiyeva**
**Elektron poçt: info@teleradio.az**
**İştirak haqqı: 300 (üç yüz) manat**
**Rekvizitlər:**
**Hesab №: AZ29AZPO91015461200420100081**
**VÖEN: 9900037841**
**Bank: Azərpoçt MMC PF1**
**Kodu: 691011**
**VÖEN: 9900037711**
**M/H: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində olan bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **04 dekabr 2020-ci il saat 11:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **14 dekabr 2020-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **15 dekabr 2020-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar Portal vasitəsi ilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Şamaxı rayonunda yerləşən 2 saylı Psixonevroloji sosial xidmət müəssisəsinə xarici kommunikasiya xətlərinin çəkilməsi işlərinin satın alınması üçün keçirilən açıq tenderdə "Conco" QSC qalib olmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən "Təhsil müəssisələrinin təmir-tikintisi üçün layihə-smeta sənədlərinin hazırlanmasının satın alınması" üzrə 11 noyabr 2020-ci il tarixdə keçirilmiş elektron açıq tenderdə LOT-1,6 üzrə "Azkommunlayihə" KLİ, LOT-2,3,4 üzrə "AZƏRDÖVLƏTSƏNAYELAYİHƏ" Dövlət Layihə İnstitutu, LOT-5,8 üzrə "Ay Konsaltinq LTD" MMC, LOT-7,9 üzrə "Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutu, LOT-10 üzrə "SOSİAL-İNKİŞAF LAYİHƏ" MMC qalib elan edilmişdir.

Qalib təşkilatlarla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan İnvestisiya Şirkəti" ASC (şirkət) tərəfindən şirkət üçün yeni loqonun və veb saytın dizayn edilməsi və hazırlanması, həmçinin hostinq xidmətinin satın alınması məqsədilə keçirilmiş təkliflər sorğusu proseduru başa çatmışdır. Tender komissiyasının 12.10.2020-ci il tarixli qərarına əsasən "SAFAROFF CA" Məhdud Məsuliyyətli Cəmiyyəti təkliflər sorğusunun qalibi seçilmişdir. Qalib şirkətlə 06.11.2020-ci il tarixli müqavilə bağlanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Mərkəzi Seçki Komissiyasının katibi Mikayıl Rəhimova əzizi

**HÜSEYN FƏRZƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin rəhbərliyi və kollektivi iş yoldaşları Sərvan Ağayevə əzizi

**BƏSTİ RZAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Amil Novruzov, Raqif Məmmədli, İxtiyar Hüseynli, Bəxtiyar Əzizli, Bahadur İmanquliyev, Rüstəm Kamal və Elçin Vəliyev Namiq Əhmədova qardaşı

**NATİQİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin rəhbərliyi və kollektivi iş yoldaşları Anar Bəkirova əzizi

**RAHİB İBRAHİMXƏLİLOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin rəhbərliyi Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Hacıbala Abutalıbova qardaşı

**OSMAN ABUTALIBOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı şəhəri 6 saylı Vəkil Bürosunun kollektivi vəkil Ənnağı Məmmədliyə atası

**ƏBDÜL MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7410
Sifariş 2640
Qiyməti 40 qəpik